AZƏRBAYCAN AŞIQLAR BİRLİYİ

OZAN DÜNYASI

№2(9) 2012

Ozan dünyası **№2(9), 2012**

Təsisçi:
AZƏRBAYCAN AŞIQLAR BİRLİYİ

Məsləhətçilər:
Zəlimxan YAQUB
Xalq şairi
Məhərrəm QASIMLI
professor

Baş redaktor: **Musa NƏBİOĞLU**

REDAKSİYA HEYƏTİ:

Həsən Mirzə
Nizami Cəfərov
Qənirə Paşayeva
Qəzənfər Paşayev
Qara Namazov
Sədnik Paşayev
İsmayıl Məmmədli
Elxan Məmmədli
İlyas Tapdıq
Seyfəddin Qəniyev
Məmməd Aslan
Ədalət Nəsibov
İsfəndiyar Rüstəmov
Seyfəddin Altaylı (Türkiyə)
Nizaməddin Onk (Almaniya)
Çingiz Mehdioğlu (İran)
İrfan Nəsrəddinoğlu (Türkiyə)
Məhərrəm Cəfərli (Naxçıvan)
Osman Əhmədoğlu (Gürcüstan)

Ünvan: Bakı, Zərifə Əliyeva küç. 21
Əlaqə telefonları:
(+ 994 12) 493 86 61
(+994 50) 345 36 52
musa58@bk.ru

Jurnalda gedən hər yazıdan sorumlu müəllifin özüdür.

Ustad sözü

"AŞIQLIQ GƏLƏNƏYİ MİLLƏTİN ƏXLAQIDIR"

Müsahibimiz Türkiyənin məşhur aşığı, YUNESCO-nun "Canlı insan xəzinəsi" titulunu qazanmış Şərəf Taşlıovadır

Şərəf Taşlıova: "Dünyanın bugünkü düzənini ən iyi şəkildə idarə edə biləcək əxlaqi sistem aşıqlıq gələnəyinə bağlıdır".

– **Ustad, Sizi bu sənətə gətirən nə oldu**?

– Aşıqlıq ənənələri, deyimlər, türkülər, Quran. Yaxşı yadımdadır, mən hələ uşaq idim, cocuk bayramına hazırlıq görülürdü. Bir gün okulda öyrətmənim bizdən soruşdu ki, cocuklar, türkü söyləyən varmı aranızda. Mən də o zaman 9 yaşında bir cocuk idim və dedim ki, mən söyləyə bilərəm. Və ilk dəfə onda çıxış etdim. Sonra öyrətmənim məni konservatoriyaya göndərmək istədi. Ancaq atam rəhmətə getdiyindən gedə bilmədim. Sonra Aşıq Şenniyin oğlu Aşıq Qasım məni düyündə gördü, səsimi bəyəndi və beləcə mən aşıqlığa başladım.

– **Neçə yaşından bu sənətə bağlandınız**?

– 10 yaşından.

– **Ustadınız kim olub**?

– Aşıq Şenniyin oğlu Aşıq Qasım.

– Təkcə Türkiyədə yox, dünyada tanınmış sənətkarsınız. Sizi hər yerdə tanıyır və sevirlər. Türkiyədə aşıq sənəti ilə bağlı sizin fikirləriniz və bu sənətdə özünüzün keçdiyiniz yol oxucularımız üçün də maraqlı olardı.

– Təşəkkür edirəm. Aşıq sənəti özündə şeir, saz, söz, dastan və s. birləşdirir. Türkiyədə özünəməxsus aşıqlıq ənənəsi vardır ki, dədə-babalarımızdan bizə miras qalıb. Burada zəngin bir ustad-çıraq ənənəsi olub. Aşıq olmaq üçün ustad yanında yetişmək gərəkir. Ustad görməyənin iyi bir aşıq olması mümkün deyil. Beləsi aşıqlıq edə bilər, amma çox tərəfi boş qalar. Mən bu nərdivanların hər birisini keçdim.

Bu gün aşıqlıq çox zəngindir. Borçalıdan mənim ustamın bir arkadaşı var idi – Aşıq Şenniyin son şəyirdlərindən biri Aşıq İbrahim. Onun söylədiyi əski havalar bu gün bizim aşıqların söylədiyi havalardır. Qarsda çox məşhur aşıqlar olub. Aşıq Gülüstan vardı – Murad Çobanoğlunun babası, Aşıq Musa vardı, Aşıq Mirzə, Aşıq İslam Ərdənər və daha bir çox aşıqlar vardı ki, bunların hər birindən faydalandım mən. Türkiyədəki aşıqların hər biri ilə görüşdüm. 44 il Konya aşıqlar bayramına qatıldım. Konya aşıqlar bayramı Türkiyədə çox geniş yayılıb və çox da böyük faydası olur. 20 ildir Uluslararası İstanbul festivalında iştirak edirəm. Yəni, Türkiyədə keçirilən aşıqlarla bağlı həmən-həmən bütün festivallarda, yığnaqlarda, toplantılarda iştirak etmişəm. Yurd dışında da bir çox ölkələrdə olmuşam. İngiltərə, Danimarka, Qırğızıstan, Qazaxıstan, Pakistan və s. ölkələrdə olmuşam. Hətta Pakistanda Azərbaycan elçiliyində bir proqram da yapdım. Türkiyə televiziya kanallarında, özəlliklə də TRT-də uzun illər proqramlar yapdım. Yurd dışında da kanallarda çıxış etdim. Bunları söyləməklə demək istəyirəm ki, hələ uşaqlıqdan özümü hər kəsə tanıtmaq istəyim, diləyim vardı. Mən uşaq vaxtında, 6 yaşımda yetim qaldım, babam rəhmətə getdi və heç kimim yoxdu. Amma Allah bunları mənə nəsib etdi. Bir çox şeirlər, məqalələr, dastanlar, hekayələr yazdım. Kitablarım işıq üzü gördü. Kitablarımdan birini Dil Kurumu, birini Milli Eyitim Bakanlığı çap etdirdi, biri də çapa hazır vəziyyətdədir.

Aşıqlıq gələnəyi millətin əxlaqıdır, kültürüdür, ailə mutfağıdır. Yəni, bir evdə süfrəyə qoyulan gözəl, dadlı yeməklər sağlığa faydalı olursa, aşıq gələnəyi də özəlliklə türk milləti, hətta dünya millətləri – mən bunu Londonda da, Amerika da söylədim, – üçün faydalıdır. Dünyanın bu günkü düzənini ən iyi şəkildə idarə edə biləcək əxlaqi sistem aşıqlıq gələnəyinə bağlıdır. Bizdə atalar sözləri, deyimlər, qarşılıqlı söyləmələr, dastanlar vardır ki, bütün dünya bir araya gəlsə, bunlardakı hikmətlərdən faydalansa dünyadakı bir çox problemlər daha asan çözülər.

Aşıq havası yerlə göyün arasında quşların səsidir, rüzgarın səsidir. Bunları ən iyi tərənnüm edən aşıqlardır. Aşıqlıq sənəti neçə illərdən bəri yol gəlmişdir. Bunun divanisi var, təcnisi var, gəraylısı var, müxəmməsi var. Bunlar əsrlərin sınağından çıxaraq bizə gəlib çatmışdır. Amma yeni yaranan mahnılarda, görürsən ki, biri nəsə çıxardır, ortaya qoyur, bir neçə gündən sonra isə yaddan çıxıb gedir.

– Türkiyədə aşıq sənətində ustad-şəyird ənənəsi hansı durumdadı, bu ənənə davam edirmi?

– Üzülərək söyləmək istəyirəm ki, bu, yox deyə biləcək dərəcədə azalmışdır. Bunun əsas səbəbi budur: Türkiyə 1960-cı ildən sonra bir köç durumunda idi. Qarsdan İzmirə, Ərzurumdan İstanbula, Ağrıdan Urfaya köçənlər oldu, yer dəyişimi ortaya çıxdı. Bu yer dəyişimi aşıq sənətinə təsirsiz qalmadı. O cümlədən də ustad-şəyird əlaqəsinin zəifləməsinə səbəb oldu. Axı, aşıqlıq sənətinə gəlmək istəyən yeniyetmə ustaddan bu sənətin bütün sirlərini, incəliklərini öyrənir. Sazı necə tutacağından başlayaraq, məclisdə ehtiramla necə sözə başlayacağını, hansı sözləri deyəcəyini, hər bir məclisin ruhuna uyğun olaraq hansı sözləri oxumaq, nələr anlatmaq lazım gəldiyini, dastanın necə söylənilməsini mənimsəyir. Yəni ustad şəyirdini bir növ yoğurar və lazım olan şəklə salar. Ustadından eyitim almayan bir aşıq çox başarılı olmaz.

– Gənc nəsildə bu sənətinə meyil varmı?

– Gənclərdə meyil var. Ancaq bu gün dünyada bir kültür dəyişikliyi də var.

– Türkiyədə aşıqlığın indiki durumu sizi qane edirmi?

– İnsan yediyi çörəyə, yaşadığı həyata xor baxa bilməz. Bu, mənim həyatım, çörəyim, yolumdur. Amma onu deməliyəm ki, bu gün aşıq sənəti əski aşıqlıq ənənələrinə o qədər də bağlı deyil, yəni əski ustaların öyrətdiyi şəkildə deyil. Bir növ modernizə edilmiş, sadə şəkildədir. Bu, əslində çox böyük bir təhlükədir. Mən bütün Türk dünyasını gəzdim gördüm, Azərbaycandakı, eləcə də Borçalıdakı aşıqları da dinlədim. Mən bir şey də söyləyim bütün Türk dünyasına, aşıq dostlarımız bir məsləhət kimi qəbul etsinlər bunu, bizdən bizim kimi olmamızı gözləyirlər. Biz başqalarına bənzəməyə başlarsaq çox şey itirərik.

– **Aşıq sənətinin bu günü ilə bağlı nə deyərdiniz**?

– Azərbaycandakı aşıq ənənələri aşıqlığın çıxış nöqtələridir. Bu gün türk dünyası ölkələri arasında Azərbaycanda aşıqlıq daha yüksək səviyyədədir, ölkənin mədəniyyətinin inkişafında mühüm yer tutur. Xalqın dilinin saflığının qorunmasında aşıqların böyük rolu var. Bir məmləkətin dilini, onun səsini ən gözəl yaşadan aşıqlardır, aşıq havasıdır. Buna görə də aşıq sənətinin əski varlığının qorunub saxlanılmasına çalışmaq lazım-

dır. Doğrudur, dünya bir dönüş içərisindədir, dəyişiməyə məcburdur, amma çalışmaq lazımdır ki, bu sənətin qədim ənənələrinə xələl gəlməsin. Keçmiş ustadların da varlığına sadiq qalaraq davam etdirməklə bu sənətin daha faydalı olacağına inanıram.

– Sizi Azərbaycanda çox gözəl tanıyırlar, sevirlər. Oradakı aşıqlardan hansılarla əlaqələriniz olub, kimlərlə görüşmüsünüz?

– Sağ olsunlar. Azərbaycan, Borçalı mənim ata yurdumdur. Mən hələ uşaq idim, kənddə radio var idi. Radionu açdıqları zaman hər kəs Azərbaycandakı aşıqları dinləməyi dördgözlə gözləyərdi. Mən Azərbaycan aşıqlarından çox şeylər öyrəndim. O zamanlar çox qapalı bir dönəm idi, aramızdakı sınırlar qapalıydı. 1992-ci ildə Konya Aşıqlar bayramına hazırlıq görülərkən bu bayramın təşkilatçısına dedim ki, böyük Konya aşıqlar bayramına Azərbaycandan da aşıq dəvət etmək lazımdır. O zaman Azərbaycan Aşıqlar Birliyinin sədri Hüseyn Arif və Aydın Çobanoğlu (Allah hər ikisinə rəhmət eləsin) gəlmişdi. O dönəmdə sınırdan keçib bu tərəfə gəlmək üçün izin almaq lazım idi və sınırda mənim qohumum çalışırdı, onunla əlaqə saxladıq. Onların proqrama çatmaları gərəkirdi, amma axşama ancaq gələ bilmişdilər. Onlar gəldiyi zaman artıq aşıqlar bayramı başlamışdı və qapıdan içəri girdikləri zaman – mənim ən gözəl xatirələrimdən biridir bu, – hər kəs, oradakı insanların hamısı sanki donmuş şəkildə qaldı onları görəndə. Sakitcə – biz onların yerlərini əvvəlcədən hazırlamışdıq, – gəlib bizim aramızda oturdular. İnanın ki, insanların gözlərindən damla-damla yaş axırdı sevincdən. Sonrakı illərdə Aşıq Mahmud və Aşıq Hacı gəldi. Sonradan

Azərbaycan aşıqları Qarsa çox gəldilər. Rəhmətlik Mikayıl Azaflı da gəlmişdi, amma mən onunla görüşə bilmədim, o zaman İranda idim. Sonra mən Mikayıl Azaflının qızı və digər aşıqlarla görüşdüm. Burdan Azərbaycanın bütün aşıqlarına salamlar göndərir, sağlıqlar diləyirəm. Allah hamımıza xeyirli ömürlər versin.

– Ustad, Sizin fikriniz mənim üçün də, aşıq sənəti ilə ilgili olan hər kəs üçün də önəmlidir: Türkiyədəki aşıqlarla Azərbaycan aşıqlarını daha çox bir araya gətirmək, bu sənəti daha irəli aparmaq üçün nələr etmək lazımdır?

– YUNESKO-nun yaşayan insan xəzinəsi elan etdiyi və dünyanın bir çox ölkələrində mükafatlara layiq görülmüş bir aşıq kimi demək istəyirəm ki, Azərbaycan aşıqları ilə, İrandakı azərbaycanlıları da bura daxil edirəm, Türkiyə aşıqlarının bir araya gəlməsində çox böyük fayda var. Bizim dil birliyimizi, yazı birliyimizi ən iyi şəkildə elan etməkdən öncə, qaynayıb-qarışıb bir-birimizi tamamlamaq üçün Azərbaycan aşıqları ilə Türkiyə aşıqlarının zaman-zaman bir araya gəlməsi, məsələn, iki ildə bir Azərbaycanda, iki ildə bir Türkiyədə, hətta mən deyərdim ki, digər türk dövlətlərində də aşıqlar bayramı, festivallar və digər tədbirlər düzənləmək lazımdır. Yəni Türkiyədə, Azərbaycanda, yaxud Türk dünyasının aşıq sənəti ilə ilgili olan harası layiq görülürsə, orada sıx-sıx aşıq olimpiadaları, aşıq bayramları, hətta Dünya Aşıq olimpiadası yapmaq lazımdır. Sıx-sıx bir araya gəlindiyi zaman yeni nəslin ustadlardan öyrənmələri asanlaşar, gənc nəsil bizə baxaraq nəyim əskik qalıb, nələri öyrənməliyəm deyə öz əskiklərini aradan qaldırarlar. Bu gün dünyada çox sürətli bir dəyişim vardır, indi elektronik çağındayıq. Onun üçün belə bayramların, toplantıların yapılması lazımdır. Bu da yalnız TÜRKSOY-un, Türk Birliyinin ortaq yapımı ilə olur. BMT-nin bir kültür qurumu olaraq YUNESKO-nu da bu işə cəlb etmək olar. Yayımlara çox fikir vermək lazımdır. Sizin nəşrlərinizə baxdım və çox sevindim. İstər jurnallar olsun, istər kitablar olsun, onları çoxaltmaq, Azərbaycandakı aşıqları Türkiyədə, Türkiyədəki aşıqları Azərbaycanda daha yaxşı tanıtmaq lazımdır. Bu sahədə universitetlərin müvafiq fakültələri də çox iş görə bilər. Yeri gəlmişkən, son illərdə Türkiyədə Ərdəhan universitetinin bu yöndə xidmətləri böyükdür. Bu universitetin rektoru Çıldırlıdır, özü də ədəbiyyatçıdır.

Bir məsələyə də toxunmaq istəyirəm. Bu gün dünyada film çəkmək üçün bir növ ssenari qıtlığı var. Amma aşıq sənətinə üz tutsaq görərik ki, dastanlarımızın hər birisi bir ssenaridir. Bu gün yabançı filmlər, Avropadan gələn və bizim mədəniyyətimizin tam əksinə olan roklar, poplar, milli mədəniyyətləri əridib yox edərək öz mədəniyyətlərini qəbul etdirməyə çalışır. Bu dalğanı yox etmək, başlı-başına üzərimizə gələn bu

yükün qarşısında duruş gətirmək üçün qədim mədəniyyətimizi qoruyub yaşatmalıyıq. Bu yükün, bu basqının qarşısında duruş gətirmək üçün Türk dövlətləri, hər kəs olduğu coğrafi ərazi içərisində aşıqlarına sahib çıxmalıdır. Çünki aşıq sənəti yaşadığı müddətdə onun mədəniyyəti də, dili də yaşayar, əxlaqı irəliyə doğru gedər. Bu sənəti qoruyub yaşatmaq lazımdır.

– Nə zamansa Azərbaycana, ata yurdunuz Borçalıya gəlməyi düşünürsünüzmü?

– İnşallah. İlk can atdığım, Allahdan aman dilədiyim, mənə möhlət ver, gedib görüm dediyim yer Azərbaycandır, Borçalıdır. Ata yurdumdur ora mənim, əcdadımın torpağıdır. Azərbaycan Aşıqlar Birliyinin başkanı, dəyərli qardaşım Zəlimxan Yaquba, bu birliyin yönəticilərinə və bütün üzvlərinə hörmət və sayğı göndərirəm. Böyüklərin əllərindən, kiçiklərin gözlərindən öpürəm. Və onlara da deyirəm ki, aman ha, Azərbaycan, Borçalı, o bölgədəki aşıqlıq gələnəyini yaşatmağa qeyrət göstərsinlər. Bir məsələyə də toxunmaq istəyirəm: Azərbaycandakı kimi qadın aşıqlar dünyanın heç bir yerində yoxdur. O görüntünü, o geyimləri, ənənəni yaşatmaq lazımdır. Onların hər birinə salam göndərirəm, öz ənənələrini buraxıb başqalarına bənzəməsinlər, yanlış edərlər.

– Ustad, bəlkə gözlədiyiniz sual vardı, amma mən onu vermədim?

– Yox, çox təşəkkür edirəm bu söhbət üçün, bərabər olduğumuz üçün. Sizi tanımaqdan da çox böyük qürur duydum.

Sonda bir daha deyirəm, Aşıqlıq sənətini dünyaya ulaşdırmağa çalışaq, yeni texnologiyaların, internetin bu sənəti öldürməsinə icazə verməyək.

– Müshibə üçün təşəkkür edirəm.

Müsahibəni apardı:
Musa NƏBİOĞLU

Türkiyə, Kayseri
16 may, 2012

Dr. Oruc ƏLİYEV
AMEA Folklor İnstitutunun
direktor müavini

AZƏRBAYCAN FOLKLORU ANTOLOGİYASI

(Borçalı-Qarapapaq cildi)

AMEA Folklor İnstitutunda müxtəlif istiqamətlərdə seriya kitabların çapı həyata keçirilməkdədir. Bunlardan "Azərbaycan folkloru antologiyası", "Azərbaycan folklorunun ilkin nəşrləri", "Azərbaycan folkloru külliyyatı" seriyalarını göstərmək olar.

"Azərbaycan folkloru antologiyası" seriyasından indiyə kimi Naxçıvan, İraq-Türkman, Göyçə, Şəki, Qarabağ, Qaraqoyunlu, Ağbaba, Gəncəbasar, İrəvan, Şirvan, Zəngəzur, Dərbənd, Dərələyəz, Ağdaş, Muğan, Loru-Pəmbək cildləri nəşr olunmuşdur.

Bu seriyadan 2011-ci ildə Borçalı-Qarapapaq cildi də işıq üzü görmüşdür. Bu cildi toplayıb tərtib edən və "Ön söz"ün müəllifi Gürcüstan Ədəbiyyatşünaslıq Akademiyasının həqiqi üzvü, filologiya elmləri doktoru, professor Valeh Hacılardır.

Antologiya "Borçalı-Qarapapaq folklorunun təməl özəllikləri" adlı geniş və dolğun "Ön söz"dən, on altı bölmədən, "Tərtibdə istifadə olunmuş qaynaqlar və söyləyicilər haqqında məlumat" hissəsindən ibarətdir.

Müəllif kitaba yazdığı "Ön söz"də milli folklorumuzun zəngin və çoxşaxəli bir qolunun Gürcüstanda yarandığını, türkdilli xalq ədəbiyyatının inkişafının təkcə Borçalı-Qarayazı folkloru ilə məhdudlaşmadığını nəzərə çatdırır. Onu da qeyd edir ki, Azərbaycan şifahi xalq ədəbiyyatı müxtəlif millətlərin yaşadığı Ahısqa-Axalkələkdə, Zalqa-Barmaqsızda və Tiflisdə də geniş şöhrət qazanmışdır. Bu barədə fikirlərini ümumiləşdirərək belə qənaətə gəlir:

"Bir sözlə, Gürcüstanda Türk-Azərbaycan folkloru ənənələrinin kökləri qədim və çoxşaxəlidir. Yazıya alınaraq topluda oxuculara təqdim olunmuş örnəklər zəngin Borçalı-Qarapapaq folklorunun kiçik bir qis-

mini əhatə etsə də, xalqımızın mədəni-tarixi inkişafının, etnik xüsusiyyətlərinin hərtərəfli öyrənilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Onları və digər nümunələri ardıcıl şəkildə toplamaq, araşdırıb təhlil və nəşr etmək milli folklorumuzun, dilimizin tarixini, nüfuzunu, təsir və əhatə dairəsini doğru-dürüst müəyyənləşdirmək üçün çox gərəklidir".

Valeh Hacılar "Azərbaycan folkloru antologiyası"nın Borçalı-Qarapapaq cildinə daxil edilmiş nümunələri uzun illər boyu toplayıb yazıya almış, sistemləşdirmişdir. Bununla yanaşı, cildə daxil edilmiş bir qism nümunələri Gürcüstan Mərkəzi Tarix Arxivindən, Gürcüstan EA S.Rustaveli adına Ədəbiyyat İnstitutunun folklor arxivindən və digər mənbələrdən əldə etmişdir. Tərtibçi o məsələyə də aydınlıq gətirir ki, hələ XIX yüzillikdən başlayaraq K.Qvaramadze, N.Asatiani, N.Marr, E.Tağaişvili və başqa gürcü alimləri, folklorşünasları Gürcüstanın müxtəlif bölgələrindən xeyli türkdilli xalq ədəbiyyatı inciləri toplayıblar.

Valeh Hacıların arxiv materialını, mənbələri dərindən bilməsi folklorumuzun bir sıra məsələlərinin üzə çıxarılmasında əhəmiyyətli rol oynamışdır.

Misal üçün, onun araşdırmaları XIX yüzilliyin əvvəllərində Azərbaycan nağıllarının söyləyiciləri, toplayıcıları, eyni zamanda tərcümə və nəşr tarixi barədə yeni müddəaları ortaya çıxarmışdır. O, müəyyənləşdirmişdir ki, "Деревяная красавица"dan sonra rus dilinə çevrilib çap edilmiş ikinci Azərbaycan nağılı 1852-ci ildə "Kavkaz" qəzetində deyil, 1830-cu ildə "Tiflisskie vedmosti" qəzetinin 91-ci sayında dərc edilmişdir. Həmin nağılı Zubaryev soyadlı toplayıcı 1828-ci il oktyabr ayının 6-da Borçalının Şamalı kənd sakini Mehdi Bayram oğlundan yazıya almışdır. Nağılımızın rus tərcüməçi-naşirinin "Tatarskiy skazoçnik" adlı mətndə yazdıqlarını yüksək qiymətləndirən Valeh Hacılar doğru olaraq belə qənaətə gəlir:

"Tərcüməçinin Borçalını və borçalıları müsbət səciyyələndirən, yerli sakinlərin məişəti, folkloru, nağılçı Mehdi Bayram oğlu haqqındakı qeydlərini və Azərbaycan nağılının ruscaya tərcüməsini əhatə edən bu yazı XIX yüzilliyin əvvəllərində rusdilli mətbuatda bu qəbildən dərc olunmuş

ən ilkin məlumatlardan biri kimi həm folklorşünaslığımız, həm də ədəbi əlaqələr tariximiz üçün mühüm elmi əhəmiyyət daşıyır".

Antologiya mövsüm və mərasim nəğmələri ilə başlayır. Bu nümunələr özündə bir sıra arxaik elementləri əks etdirməkdədir.

Antologiyanın miflər və əfsanələr, inanclar-inamlar, rəvayətlər, nağıllar bölmələrindəki nümunələr xüsusilə seçilir və tədqiqat üçün zəngin material verir. Bu baxımdan "Hərşənin küllüyü", "Anaxatır", "Maral dağı", "Elçi dağı", "Cəmşid Sultan dərviş libasında", "İnsanla ilanın nağılı", "Balıqların sirri", "Əhmədi-biqəm", "Qara Qulam ilə Sultan Süleyman", "Xıdır İlyaz", "Vermədi Məbud, nə etsin Mahmud?" və s. nümunələr xüsusilə diqqət çəkir.

Bunların arasında səma hadisələrinə, astral cisimlərə dair ilkin təsəvvürlər nəticəsində meydana gəlmiş bir sıra surətlərə də rast gəlinir. Miflər, əfsanələr, inamlarla yanaşı belə surətlərə nağıllarda da təsadüf olunması xüsusilə maraq doğurur. Antologiyaya daxil edilmiş, 1982-ci ildə tərtibçi tərəfindən Bolnis rayonunun Muğanlı kənd sakini Mədəd Mövlud oğlu Hüseynovdan yazıya alınmış "Qara Qulam ilə Sultan Süleyman" nağılı tədqiqat üçün zəngin material verir.

Dərbənd, Göyçə, Qarabağ, Güney Azərbaycanda da müxtəlif variantları olan bu nağıl süjet quruluşu, təhkiyə üsulu ilə seçilir. Bəxtini, taleyini axtarmağa yollanan qəhrəman yolda müxtəlif şəxslərlə, varlıqlarla qarşılaşır, onların da dərdini öyrənib yoluna davam edir. Məqsədinə yetib geri qayıdarkən axırıncıdan başlamış əvvəlinciyə qədər yenə onlarla qarşılaşır, bir-bir onların sirrini açıb söyləyir.

"Qara Qulam ilə Sultan Süleyman" nağılında təsvir olunur ki, günlərin bir günü Sultan Süleyman elçi daşının üstündə oturan yetim bir oğlanı qulluqçu kimi sarayında saxlayır. Bir xeyli keçəndən sonra bu yetim oğlanın padşah qızını istədiyi xəbəri hər tərəfə yayılır. Bunu eşidən padşah əvvəl qəzəblənir, sonra isə bir namə yazıb Qulama onu Günəşə apermağı əmr edir. Qulam yolda bir ceyrana, sonra balıqlar padşahına rast gəlir. O, Göydəmir ata minib Günəşin yanına çatır və padşahın naməsini ona verir. Günəş naməni alıb deyir: "Biz varıq, şərikimiz yoxdu, yazıya da pozu yoxdu. Qız Qara Qulamındı". Günəş balığın, ceyranın da dərdini Qara Qulama söyləyir. Qara Qulam balığın burnundan çıxan ləli və ceyranın verdiyi sehirli südü götürüb Sultan Süleymanın məmləkətinə gəlir və onun qızı ilə evlənir.

Bu nağılın qəhrəmanının taleyini, bəxtini Günəş verir. Günəşin yanına gedib qayıdandan sonra Sultan bu yetim oğlanla qohumluğu özünə şərəf bilir. Məlum olduğu kimi, bir çox qaynaqlarda türk xalqlarının göy

cisimlərinə, Günəşə, Aya inamı əks olunmuşdur. Deməli, bu nağılda da Günəşlə bağlı əski inamlar qorunub saxlanmışdır.

Topluda Xıdırnəbi (Xıdır Əlləz, Xıdır İlyas), çən qarışı, Yel baba ilə bağlı inamlar, "Yağma, yağış", "Cənnət bulağı" və s. nununələr bir sıra əski təsəvvürləri özündə qoruyub saxlayır.

Müəllif antologiyaya daxil etdiyi "Xıdır İlyas", "Mən qurdu gördüm", "Vermədi Məbud, nə etsin Mahmud", "Pinti Mahmud" nağıllarını Gürcüstan EA Rustaveli adına Ədəbiyyat İnstitutunun folklor arxivindən götürmüşdür. Bunları N.Asatiani toplamışdır. Deməli, tərtibçinin bu nümunələri antologiyaya daxil etməsi də təsadüfi deyil. O, bu barədə "Ön söz"də yazır:

"N.Asatianinin XIX əsrin 90-cı illərində topladığı folklor nümunələrinin Azərbaycan folklorşünaslığı üçün böyük əhəmiyyəti vardır və onlar ayırca öyrənilməlidir. "Tatar (Azərbaycan-Türk – V.H.) xalq yaradıcılığı" başlığı altında yazıya alınmış bu nümunələrin maraqlı cəhətlərindən biri də orijinalla yanaşı onların gürcü dilində tərcüməsinin verilməsidir".

Bölgədən toplanmış nümunələrin mövzu, ideya və poetik xüsusiyyətləri belə bir qənaət doğurur ki, bu regionun folklor örnəkləri Azərbaycan folklorunun tərkib hissəsi kimi özünəməxsus səciyyəvi xüsusiyyətləri ilə də seçilməkdədir.

Bu baxımdan antologiyanın alqışlar, qarğışlar, andlar, atalar sözü, məsəllər, elat dodaqqaçdıları, tapmacalar, uşaq folkloru bölmələrinə daxil edilmiş nümunələr də dediklərimizi aydın göstərməkdədir.

Tərtibçinin müxtəlif illərdə elmi səfərləri zamanı ayrı-ayrı aşıqlardan yazıya aldığı rəvayətləri, "Mehralı bəy" (düzüb-qoşan Aşıq Məhəmməd Sadaxlı), "Cəlal-Sayad-Sərvinaz" (düzüb-qoşan Aşıq Zeyin – Topa Veridze, söyləyəni Aşıq Eto – Ekime Davlaşeridze), Cahangir (düzüb-qoşan şair Ağacan, söyləyəni Aşıq Hüseyn Saraçlı), "Şam şahzadə" (düzüb-qoşan Təhlə Novruz) dastanlarını da topluya daxil etməsi təsadüfi xarakter daşımır. Məlum olduğu kimi, aşıq sənəti ənənələrinin formalaşmsında, inkişafında Gürcüstanda yaşayıb-yaratmış aşıqların və el şairlərinin də böyük rolu olmuşdur. Borçalı mahalında Alxas Ağa, Güllər Pərisi, Şair Nəbi, Aşıq Sadıq, Xındı Məmməd, Aşıq Əmrah, Aşıq Hüseyn Saraçlı, Aşıq Alxan Qarayazılı, Aşıq Kamandar, Aşıq Əhməd Sadaxlı, Aşıq Nurəddin Qasımlı, Gülabı Xındı Məmməd oğlu kimi sənətkarlar yaşayıb-yaratmışdır. Bu mahalın saz-söz ənənələrini Məhəmməd Sadaxlı, Aşıq Aslan Kosalı, Aşıq Bilal, Aşıq Həvəskar, Aşıq Arif, Aşıq Şakir, Qırıxlı Aşıq Hüseyn və başqaları davam etdirməkdədirlər. Bütün bunları

yada salan müəllif aşıqların və el şairlərinin yaratdıqları dastanların Borçalı aşıq ədəbiyyatını daha da zənginləşdirdiyini nəzərə çatdırır.

Dastanlarımızın yayılmasında, təbliğində Borçalı aşıqlarının rolunu yüksək qiymətləndirən Valeh Hacılar bu barədə fikirlərini belə ümumiləşdirir:

"Maraqlı məzmunu və zəngin ideya-bədii səciyyələri ilə fərqlənən xalq dastanlarımız Gürcüstanda da geniş yayılmış, müxtəlif millətlərin nümayəndələri olan toplayıcıların, naşirlərin və tədqiqatçıların diqqət mərkəzində olmuş, arxiv sənədlərində, salnamə və cünglərdə öz əksini tapmışdır. Bütün dövrlərdə peşəkarlığı və yüksək sənətkarlığı ilə seçilən Borçalı aşıqlarının, el şairlərinin ardıcıl fəaliyyəti bu vüsəti daha da genişləndirmiş, xalq romanlarımızı təkcə türkdilli xalqlara yox, Qafqazda yaşayan bütün millətlərə sevdirmişdir. Bütün bunlar həm də dastanlarımızın dövrümüzə qədər gəlib çatmasına, qorunub saxlanmasına yardım etmiş, müxtəlif xalqlarda çoxsaylı variantların və versiyaların yaranmasına səbəb olmuşdur".

Kitabın sonunda hər bir söyləyicinin harada yaşaması, adı, soyadı, yaşı, nümunənin nə vaxt yazıya alınması barədə müfəssəl məlumat verilir. Eynilə müxtəlif qaynaqlardan və mənbələrdən götürülmüş nümunələrin də yeri göstərilir. Bunlar da folklor nümunələrinin toplanması və yazıya alınmasının mühüm şərtlərindən biri sayılır.

Gürcüstan Ədəbiyyatşünaslıq Akademiyasının həqiqi üzvü, filologiya elmləri doktoru, professor Valeh Hacıların elmi yaradıcılığı geniş və çoxşaxəli olub. O, folklorumuzun toplanması, tədqiqi, nəşri, tərcüməsi məsələlərinə daha çox üstünlük verib. Bütün bunları o, "Borçalı-Qarapapaq folklorunun təməl özəllikləri" adlı "Ön söz"ündə belə yekunlaşdırmışdır.

"Xalq ədəbiyyatı bizdən əvvəl yaşayanların əsrlər boyu qazandıqları həyat və əmək təcrübəsini, eləcə də daxili, mənəvi aləmini aydınca əks etdirən əsl müdriklik xəzinəsidir. Odur ki, bu sərvəti onu yaradanların, yaşadanların tarixi ilə vəhdətdə, ardıcıl və sistemli şəkildə araşdırmaq, yaddaşlardan yazıya köçürüb nəşr və təbliğ etmək folklorşünaslıq qarşısında duran ən vacib məsələlərdəndir".

Yekun olaraq deyə bilərik ki, Borçalı-Qarapapaq cildi Azərbaycan folkloru antologiyasının ən uğurlu nəşrlərindən biridir.

Türkiyəli araşdırmaçılar Azərbaycan aşıqları haqqında

Doç.Dr. Eyup AKMAN

Türkiyə, Kastamonu Üniversitesi , Eğitim Fakültesi
Email:eakman@kastamonu.edu.tr

AZERÎ ÂŞIK AZAFLI MİKAYIL'IN ŞİİRLERİNDE TÜRKLÜK BİLİNCİ VE İKİ ŞİİRİNİN HİKÂYESİ

Azerbaycan'da Âşık Edebiyatı XVI. yüzyıl âşığı Kurbanî ile başlatılır. Bu yüzyıldan sonra Azerbaycan coğrafyası, denilebilir ki Türk âşıklık sanatının merkezi, kalbi durumuna gelmiştir. Özellikle XIX. yüzyıl, Azerbaycan Âşık Edebiyatı'nın en üst seviyeye ulaştığı bir çağdır. Fakat Ekim 1917 yılında yapılan devrim ile eski hayat tamamen değişmiş ve bu değişiklik toplumun/toplumların her kesiminde güçlü akislerini bulmuştur.

Tamamen Komünizm ve Marksizm esaslarına dayalı olarak kurulan Sovyet hükümetinin başında devrimi yapan Lenin vardır. Merkezî hükümetin ve Lenin'in esas gayesi bünyesindeki bütün halklara komünist rejimi benimsetmek ve yeni kurulan Bolşevik hükümetinin bekasını sağlamaktır. Bu amaç için her türlü imkan kullanılmalı ve geniş halk kitlelerine ulaşılmalıdır.

Lenin ve diğer parti mensupları Türk halkı üzerine âşıkların büyük bir nüfuzları olduğunu biliyordu. Bundan dolayı da onlardan propaganda amacıyla faydalanılabilirdi. 1924 yılında Lenin'in ölümünden sonra Lenin'in bu düşüncelerini Stalin aynen kabul etmiş ve âşıklara gerekli alakayı göstermiştir. Bu devirde âşıklar gerek zorla ve gerekse de teşvikler almak suretiyle yeni rejimi halka anlatabilmek için olağanüstü çaba sarf etmişlerdir. Bu vesileyle de Azerbaycan'da âşık edebiyatı yönetim ve halk nezdinde değer kazanmış ve bununla ilgili çeşitli zamanlarda dört defa âşıklar kurultayı düzenlenmiştir.(Akman 2008:177-191)

Sovyetler Birliği Dönemi'ndeki âşıklardan biri vardır ki, dönemin diğer âşıklarından farklıdır. Çünkü o, diğer âşıklar gibi komünist partinin baskılarına boyun eğmemiş, kutsal âşıklık sanatını komünist propagandaya alet etmemiştir.[1] Bu âşık 1924 yılında doğup 1990 yılında vefat eden Azaflı Mikayıldır.[2]

Azaflı Mikayıl'ın çocukluğu ve gençliği Stalin zamanında geçmiştir. Stalin'in zulmüne daha 14 yaşında iken yedinci sınıfta uğrar. Azaflı bu olayı şöyle anlatmıştır: "Sınıfta resim dersi yapıyorduk. Öğretmenimiz o zamanki devlet başkanı Stalin'in portresini çizmemizi söylemişti. Çalışmalarımızı bitirmek üzereydik ki, benim resmimin üzerine mürekkep döküldü. Bu hadise üzerine beni mahkemeye götürdüler. "Sen Stalin'in üzerine kasıtlı olarak mürekkep döktün. Niçin döktün? Sana kim öğretti?..." gibi sorular sorarak beni yargıladılar. Suçlu bulunarak hapsedildim. Bir yolunu bularak kaçtım. Hayli zaman Gence, Karabağ bölgelerinde firar dolaştım. Sonra yakalanarak tekrar hapsedildim."(Kafkasyalı 1996: 26)

İkinci Dünya Savaşı'nın çıkmasıyla Stalin taktik değiştirir ve Rus olmayan halklara daha hoşgörülü davranmaya çalışır. Çünkü vakit, cepheye asker gönderme vaktidir. Bunu yapacak olanlar da elbette ki, Türk askerleridir. Türklerdeki vatan sevgisinin en yüce duygu olduğunu bilen

---

[1] Adı geçen dönemde rejim taraftarı şiir yazan/yazdırılan başlıca Azerbaycan âşıkları şunlardır: Âşık Şemşir, Hüseyin Bozalganlı,Âşık Gara, Âşık Mirze Bayramov,Âşık Esed Rızayev, Âşık Hüseyin Cavan, Âşık Penah…Örnek şiir olarak Âşık Penah'ın şu dörtlüklerini verebiliriz:

Lenin ölmeyibdi, bu gün de sağdı,
Onun emelleri halga dayagdı.
Bizi partiyamız aparacagdı
Şanlı kommünizme ileri, dostlar!

Ölmez bu ellerin gözü Lenin'im,
Arzusu, muradı, sözü Lenin'im,
Ölmez azadlığın özü Lenin'im,
Ölmez milyonların hüneri, dostlar! (Akman 2008:209)

[2] Bu araştırmamızda Azaflı Mikayıl'ın hayatı hakkındaki bilgiyi Ali Kafkasyalı'nın "Mikayıl Azaflı, Hayatı-Sanatı-Eserleri, Erzurum 1996"isimli eserinden aldık. Yine ilerde tahlil edeceğimiz şiirler de bu eserden alınmıştır.

Stalin, savaş yıllarında Türklere kahramanlık destanlarını (Köroğlu, Dede Korkut, Kaçak Nebi…) söylemelerine izin verir hatta bu destan kahramanlarını o da över. (Fakat savaşın bitmesinden sonra 1951 yılında Dede Korkut Kitabı yasaklı kitap olarak ilan edilir.) Böyle bir ortamda Azaflı Mikayıl yakalanır ve cepheye gönderilir. Savaştan sonra sağ olarak evine dönen Azaflı bir yıl sonra serbest bırakılır.

1952 yılından itibaren düğünlerde usta âşık olarak görünmeye başlayan Azaflı 1961 yılından 1965 yılına kadar tekrar hapis yatar. Bu sefer hapis yatmasının sebebi ise aşağıda inceleyeceğimiz üzere, şiirleriyle, düşünceleriyle mevcut düzene itaat etmemesi, milli ve manevi değerlerine sahip çıkmasıdır.

Sovyetler Birliği Dönemi'nde folklora karşı merkezî hükümetler yakın ilgi göstermişler ve folklorun derlenmesi ve neşri için devlet desteği sağlamışlardır. Fakat halk ağzından derlenen folklor ürünleri ince bir süzgeçten geçirildikten sonra yayınlanabilmiştir. Bu süzgecin vazifesi, folklor ürünlerinde mevcut olan dini ve milli değerlerden bahseden kelime, söz ve kalıpları ayıklamaktır. Hal böyle olunca bu sahada yapılan her neşriyat, değiştirilmiş veya eksik bırakılmış vaziyette halka sunulmuştur. Halk âşıkları da söylediği şiirlerinde buna dikkat etmişler dinî ve millî konulara değinememişlerdir. Fakat kendini toplumun sorunlarını dile getirmekle yükümlü sayan bazı âşıklar, bir şey yapamadıklarından dolayı kahrolmaktadırlar. İçlerinden geldikleri gibi söyleseler sonunda ceza, hatta ölüm var; söylemeseler vicdanları rahat değil. Bu durumu Mikayıl Azaflı şöyle dile getirir:

Yüz min tebib gelse bilmez derdim var,
Deyirem ölürem, demirem olmur.
Ne'metim, gismetim oldu zehermar,
Yeyirem ölürem, yemirem olmur.

Umudum az galdı göy Allah'ına,
Ganlı gılıç verib yerin şahına,
Başım zulümkarın secdegâhına,
Eyirem ölürem, eymirem olmur.

(Kafkasyalı 1996:158)

Bir diğer sıkıntı da yerli iş birlikçilerinin özellikle kendi halkına eziyet çektirmesidir. Komünist partisine şirin görünmek içim kolhoz, sovhoz yöneticileri Türk köylüsüne pek göz açtırmamıştır. Azaflı bunu da şöyle ifade eder:

Ağladan gardaşım, gülen gardaşım,
Dağlayan gardaşım, bölen gardaşım,
Öldüren gardaşım, ölen gardaşım,
Yahılan özümüz, yahan özümüz.
(Kafkasyalı 1996 : 178)

Mikayıl Azaflı için Türk olmak, Türk töresine göre yaşamak ve İslam kaidelerine uymak en başta gelen vazifelerdir. Fakat dönem, hiç de bunları açıkça söyleyip yaşayabileceği dönem değildir. Bundan dolayı Azaflı vatan sevgisini anlattığı şiirlerinde Türk kelimesi yerine Azeri kelimeini tercih etmiştir. Fakat diğer ülkelerde yaşayan Türklere de kardeşim demeyi ihmal etmez ve ataları olarak Dede Korkut'u, Nizami'yi gösterir:

Goca Azaflı'yam, dilim var, "lal"am
Tebriz'de gardaşım, Sibir'de balam,
Ele derd varmı ki çekmemiş olam,
Bah, onlar ağartdı başımı menim.
(Kafkasyalı 1996 : 230)

Burda Dede Gorgud boyları gurdu,
Salsal'ı, Babek'i ecnebi vurdu.
Nizami, Fuzuli, Nesimi yurdu
Azerbaycandanam, azer oğluyam.
(Kafkasyalı 1996 : 241)

Azaflı'nın hayali, ölmeden önce bir kez Türkiye'yi görmektir. Onun bu hayali 1989 yılında İstanbul'a gelmesiyle gerçekleşmiştir. Artık ne onu takip eden komünist parti vardır ne de onu engelleyecek bir durum. Yıllardır söylemek isteyip de söyleyemediği duygularını açıkça söylemiştir:

Dinimiz bir, dilimiz bir –
Sizin eller, bizim eller.
Selamımız, "beli"miz bir –
Sizin eller, bizim eller.

Bir gartalın ganadıyıg,
Bir milletin damadıyıg,
Bir babanın övladıyıg –
Sizin eler, bizim eller.

Tarihlerde goymuşdur iz,
Taleyi kem geldi temiz.
Türk, İstanbul, Bakü, Tebriz –
Sizin eller, bizim eller.
(Kafkasyalı 1996 :252)

Türklüğünü hiçbir zaman inkar etmeyen, fakat sessiz kalmak durumunda kalan Azaflı aşağıdaki şiirlerinde Türk olduğunu adeta haykırır:

Öz vetenim, öz dilimdir,
Öz mekanım, öz elimdir,
Öz Türkümdür, öz elimdir
Menim dünyam, menim dünyam.
(Kafkasyalı 1996 :253)

Türkem, Türk'ün balasıyam,
Her derdine galasıyam.
Yanarsa, od alasıyam,
Söndürmez bu seller meni,
Unutmasın eller meni.
(Kafkasyalı 1996 : 295)

Azaflı Mikayıl'ın İki Şiirinin Hikâyesi [3]

1950'li yıllarda Âşık Şemşir [4] "vedesinde" redifli bir şiir (güzelleme) yazar. Bu şiiri mektupla, yakından tanıdığı, dostu olan Âşık Mikayıl Azaflı'ya gönderir. Bu şiir şöyledir:

VEDESİNDE[5]

Seni bele gördüm, heyalım çaşdı,
Menim sakkalımın çal vedesinde.
Hetrime deydin, yadıma düştün…
Çok dedim gönlüme al vedesinde.

[3]Azaflı'nın aşağıdaki iki şiirinin hikayesini, kızı Âşık Dilara 2002 yılı temmuzunda Bakü'de kendisini ziyaretimiz esnasında anlatmıştır.
[4]Âşık Şemşir 1893 yılında Kelbecer bölgesinin Demircidam köyünde doğmuş, 1980 yılında vefat etmiştir. Âşıklık sanatını babası Gurban ve komşuları Elesker'den öğrenmiştir. Sovyetler Birliği Dönemi'nin usta âşıkları arasındadır.(Sakaoğlu vd. 1986 :207)
[5]Bu şiir Azaflı'nın çırağı Âşık Mahmut ve Âşık Dilara'dan derlenmiştir.

Meğrur oldun elde varılan vahtı,
Açılan bahçanda gül olan vahtı,
Goynunda memeler nar olan vahtı,
Gıymadın bir dene bol vedesinde.

Süleyman'ı yola salan dünyadı,
Gocalıp gartalıp galan dünyadı.
Ayrılık teblini çalan dünyadı,
Senin rüşdünün gül vedesinde[6].

Ov dereden keçti, yuhuda yattın,
Oyandın, izine hedengin attın.
Yörüdün, yörüdün nerdeki çattın,
Herşeyin geydine gal vedesinde.

De görüm, de görüm, kimin yârısan,
Hansı behtevarın vefadarısan.
Bu âşık Şemşiri görmek istersen,
Doğru düz ilgara gel vedesinde[7].

Azaflı da bu şiiri üstadı âşık Yusuf'a okutur. Âşık Yusuf şiiri beğenir ve şiir at kulağı şeklinde çift kalsın diyerek Azaflı'dan bu şiire bir nazire yazmasını ister. Azaflı da "Daha önce güzellemede hiç kalemimi sınamadım,"diyerek cevap yazmak istemez. Fakat üstadı ısrar eder. "Ya bu şiire nazire yazacaksın ya da bu sazı, bu sanatı bırakacaksın." der. Azaflı çok düşünür fakat bu şiire nazire yazacak bir mevzu bulamaz. Bir sabah erkenden kalkar ve mısır tarlasını sulamaya gider. Vakit sabahın dördü veya beşidir. Köylüler de o saatte kalkmış hayvanlarını nöbetçi kişiye katmak için toplanmışlar. 60 yaşlarında bir kadın da kendi tarlasını sulamak için tarlasına doğru gelmektedir. Karşıdan ise 70 yaşlarında bir adam koyun sürüsünü nöbetçi kişiye katmak için gelmektedir. Adamın geldiğini gören kadın yönünü değiştirir. Bunun üzerine adam kadına seslenir. Mikayıl Azaflı da onlara görünmeden olanları seyretmektedir. Adam kadına: "Gençliğimde seni sevdim, seni alamadım, o zaman benden kaçtın. Şimdi ikimiz de yaşlı iki insan olduk. Şimdi neden benden

[6] Bu mısranın, âşık edebiyatı araştırıcısı Prof. Dr. Muharrem Kasımlı "Dünyadan kamını al vedesinde" şeklinde olduğunu söylemiştir.

[7] Bu şiir Şemşir'in daha evvel yayımlanmış şiir kitaplarında mevcut değildir.

kaçıyorsun?" diye sorar. Kadın da adama "Sen ne zaman elçi gönderdin de ben senden kaçtım" der. Adam da: "Ben dedemi, anamı sana gönderdim, ama seni bana vermediler. Ben de seni kaçırmak istedim. Bir gece atımla beraber sizin evin oraya geldim. Atımı evinizin yanındaki ceviz ağacına bağladım. Tam senin pencereye doğru yaklaşırken kara kuduz değmiş kara itiniz bağlı değilmiş, dışardaymış. Geldi beni bacağımdan ısırdı. Canımı zor kurtardım. Ondan sonra da seni başkasına verdiler. İstiyorsan köpeğin ısırdığı yaranın izini sana göstereyim. Hala bu iz duruyor" der. Bu konuşmaları dinleyen Azaflı Mikayıl daha fazla kendini saklayamaz ve ortaya çıkar. O yaşlı adama "Başına döndüyüm emmi, izin ver ben de bakayım o aşkın damgasına. Günlerdir bir şiir yazmak için konu arıyordum. Sizin sayenizde şiirime konuyu buldum" der. Bunun üzerine yaşlı adam "Benim yetmiş yıllık bu sırrımı kimse bilmiyordu, ama artık bunu Azaflı biliyor" diyerek üzülür. Bu şiir şöyledir:

Başına döndüyüm a mihribanım[8],
Golların boynuma sal vedesinde.
Sen olarsan garı, men olam goca,
Goy, emim leblerin bal vedesinde.

Bir canım var, bir gün felek alacak,
Üstünden kervanlar yollar salacak.
Bir yimek, bir geymek, gezmek galacak,
Dolan, gel canının hal vedesinde.

A zalım, deme ki, şirindi akça..
Edalet yolunu kim tapar hakça.
Olmasın, olmasın bağbansız bahça,
Dererler tökerler kal vedesinde.

Dünyanın lezzeti kefdi damakdı,
Kim göre görmeye, o bahta bahtı.
Sür günen dövranın cevanlık vahtı,
Ağlama geddinin dal vedesinde.

Azaflı Mikail, yaranan köçür,
İnsan bir zemidir, ezrail biçir.
Tarihler dolanır, ömür kün geçir,
Dünyadan payını al vedesinde[9].

[8] Bu mısrayı, Mikayıl Azaflı'nın kızı âşık Dilara Azaflı "Başına döndüyüm a nazlı dilber" şeklinde de söylemiştir.

Hikayesini anlatacağımız diğer şiir de Azaflı'nın "Geder" redifli şiiridir. Şiirin hikayesini Azaflı kızı Dilara şöyle anlatır: "Uzak olsun elden, işten, uzak olsun meclisimizden. 100 yaşlarında bir kişi ölmüş. Mollanın biri de elinde bir çubukla ölüye sürekli vuruyor. Ölen kişinin oğlu da kenardan mollayı seyrediyor. En sonunda oğul dayanamayıp mollaya soruyor: "Molla emmi, gurbanın olam, baba mı niye dövüyorsun?" Molla da "Oğlum, babanı dövmüyorum, ona anlatıyorum ki, öbür dünyaya gidiyor. Orada münkir, nekir, kaynar kazan, sorgu-sual olacak. Ona anlatayımki şimdi, orada sorulara doğru cevap versin" diyor. Oğlan: "Molla emmi, gurbanın olayım. Babam yüz yıl yaşadı. Evvel, Çar Nikolay'ın vaktinde babamı o kadar dövdüler, o kadar dövdüler ki, yine de ona bir şey anlatamadılar. Sonra Sovyet hükümeti gelince pamuk planı, üzüm planı gibi planları anlattılar, onları da anlamadı. Şimdi sen 2-3 dakikada ona ne anlatacaksın. Bırak rahat gitsin bu kişi demiş." Azaflı bu ölen kişinin vurdum duymazlığını kastederek şöyle söylemiştir:

Gel, gel Azaflı Mikayıl, nânecibe söz deme,
Yahşı-yaman ne bilecek, ganmıyanı bizleme.
Bu dünyada çek kefini, o dünyanı gözleme,
Yimeyenler yi malını, dövlet, var elden geder[10].

Şiirin tamamı şöyledir:

GEDER

Hab içinde yatan seyyad, duy şikâr elden geder[11],
Bel bağlama nânecibe, namus, ar elden geder.
Budur, insan kervanları gece-gündüz köç eyler,
Bu dünya fani[12] dünyadır, her ne var elden geder.

Bil ki, yaratmayacag bir daha yaradan bizi,
Geza gehri eyleyecek yer ile yeksan bizi.
Gâh endirer, gâh galdırar vaht bizi, dövran bizi,
Hökümdarlar öyünmesin, ihtiyar elden geder.

---

[9] Bu şiir A. Kafkasyalı'nın kitabında yoktur.
[10] Bu mısra da Kafkasyalı'da "Felek çalar çengelini dövlet, var elden geder."biçimindedir.
[11] Bu mısra A. Kafkasyalı'nın kitabında "Oyan daha, yatan seyyad, bil, şikar elden geder"şeklindedir. s.307
[12] Bu kelime Kafkasyalı'nın kitabında "bele dünyadır"şeklinde kayıtlıdır.

Gel, gel Azaflı Mikayıl, nânecibe söz deme,
Yahşı-yaman ne bilecek, ganmıyanı bizleme.
Bu dünyada çek kefini, o dünyanı gözleme,
Yimeyenler yi malını, dövlet, var elden geder[13].

Sonuç olarak şunu diyebiliriz: Azaflı Mikayıl bütün sanatını iyilik, güzellik ve vatan sevgisiyle yoğurmuştur. Devrin baskı ve zulümlerine boyun eğmemeye çalışmış, Türklüğünü ve diğer manevi değerlerini muhafaza ederek başta kendi çocuklarına ve çevresine bu değerleri miras olarak bırakmıştır. Bütün Türk dünyasının bu değerlere sahip çıkması dileğiyle…

ÖZET

Azaflı Mikayıl XX. yüzyıl Azerbaycan âşıklarındandır. Sovyetler Birliği Devrinde yaşamış ve sanatını devrin zulüm ve baskılarına boyun eğmeyerek sürdürmüştür. Şiirlerini komünist propagandaya alet etmediği için defalarca yargılanmış ve hapiste yatmıştır. Bu araştırmamızda Azaflı'nın şiirlerini tahlil ederek ondaki Türklük bilincini ortaya koymaya çalıştık ve iki şiirinin hikayesini ele aldık.

Anahtar kelimeler: Azerbaycan, aşık, Azaflı Mikail, Komünist Partisi

ABSTRACT

Azaflı Mikayıl is one of the 20 th century ashiks of Azerbeijan . He was lived in the Soviet Union period and continued his art without unyielding cruelty and oppression. He has been judged a lot of times for not employing his poems for the communist propaganda.In this study, we tried to put forth the Turk consciousness by analysing Azaflı's poems and took the narratives of his two poems.

Key words: Azerbeijan, Ashik, Azaflı Mikayıl, Communist Party.

KAYNAKLAR

Akman, Eyüp (2008), Sovyetler Birliği Dönemi'nde Azerbaycan'da Folklor Politikaları ve Çalışmaları (1917-1953)"Ankara

Kafkasyalı, Ali (1996), Mikayıl Azaflı Hayatı-Sanatı-Eserleri, Erzurum

Sakaoğlu, Saim vd.(1986),Azerbaycan Âşıkları ve Halk Şairleri, C.II , Halk Kültürü Yayınları

[13] Bu mısra da Kafkasyalı'da "Felek çalar çengelini dövlet, var elden geder."biçimindedir.

Xatirə BƏŞİRLİ
filologiya elmləri doktoru

OZAN DÜNYASI, SAZBƏNDLİK

M.Nəbioğlunun tədqiqatları əsasında

Aşıq sənətinin 2009-cu ildə YUNESKO-nun Qeyri-maddi mədəni irs üzrə siyahısına daxil edilməsindən sonra bu mənəvi alanda baş verən yeniliklər göz qarşısındadır. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və uğurlu çalışmaları nəticəsində əldə olunan aşıq sənətinin inkişafına, qorunmasına yönələn bu dəyərli fakt, təbii ki, aşıq sənətkarları, aşıqşünasları daha ciddi fəaliyyətə səsləyir.

Aşıqlar Birliyinin gördüyü işlər, həyata keçirdiyi layihələr əslində elə aşıq sənətinin inkişafına, əzəli köklərinə qayıtması, unudulan havaların bərpası, həyatda olmayan ustad aşıqların məktəblərinin davam etdirilməsi və s. hədəf götürülüb. Qeyd etməliyik ki, xalq şairi Zəlimxan Yaqub Birliyə sədr seçiləndən az zaman keçməsinə rəğmən, aşıq festivalları, Gürcüstanda yaşayan türk-azərbaycanlı aşıqların qurultayının keçirilməsi, ustad aşıqların yubileylərinin qeyd edilməsi, onlar haqqında kitabların nəşr edilməsi kimi nəcib işlər görülmüşdür. Aşıqlar Birliyi çağdaş Azərbaycan, Türk dünyası aşıq sənətinin tarixi, çağdaş problemləri və yaşaması, kökləri üstə inkişaf etməsi naminə ciddi Mərkəzə çevrilmişdir. Mərkəzin sədri xalq şairi Zəlimxan Yaqubun türk dünyası aşıqları arasındakı nüfuzu, şəxsi əlaqələri Birliyin işinə bir qədər də isti-ilıq münasibət, ahəng qatmışdır. Türk dünyası aşıqları ilə bir növ koordinasiya, xəbər, uzlaşma, mərkəzləşmə statusu daşıyan Azərbaycan Aşıqlar Birliyinin dərgisi olan "Ozan dünyası"nın (məsləhətçiləri xalq şairi Zəlimxan Yaqub, professor Məhərrəm Qasımlı, baş redaktor Musa Nəbioğludur) nəşr edilməsi də aşıq sənətinin təbliğində önəmli addımdır.

Görülən işlər sırasında Azərbaycan Aşıqlar Birliyinin təşəbbüsü, Zəlimxan Yaqubun məsləhəti ilə hazırlanıb 2010-cu ildə işıq üzü görmüş **"Ozan – Aşıq dünyası"** kitabının nəşri də xüsusi yer tutur. Əsər

dünyasını dəyişən aşıqların, ustad sənətkarların unudulmaması naminə görülmüş əhəmiyyətli işdir. XIX-XX əsrlərdə yaşayıb fəaliyyət göstərmiş, ictimaiyyətə bəlli olmayan bəzi aşıqlar haqqında da məlumat verən kitab əslində ensiklopedik xarakterdədir. Kitabda gedən materiallar və çox unikal fotolar, maraqlı bilgilər Dövlət Ədəbiyyat və İncəsənət Arxivindən istifadə edilməklə hazırlanmışdır. Kitabın məsləhətçisi Xalq şairi Zəlimxan Yaqub, redaktorları professor M.Qasımlı və fəlsəfə doktoru E.Məmmədlidir. Kitaba "Borcumuzdur bu ehtiram" adlı ön söz yazan Z.Yaqubun qeyd etdiyi kimi, nəşrin əsas məramı haqqa qovuşan sənətkarlarımızın xatirəsinin əbədiləşdirilməsidir. Kitabla tanışlıqdan məlum olur ki, əsərdə 250-ə yaxın sənətkar haqqında nadir fotolarla yanaşı ən mühüm bilgilər verilmişdir.

Kitabın müəllifi və tərtibçisi Musa Nəbioğlu S.Mümtaz adına Ədəbiyyat və incəsənət Arxivində uzun müddət arxiv sənədlərilə işləməklə yanaşı, yaşlı aşıqların yaddaşlarına, xatirələrinə, dost-tanışlara, aşıqşünaslara, aşıqsevərlərə də müraciət etmişdir. Böyük tədqiqatın, axtarışların nəticəsində M.Nəbioğlu fikrimizcə, musiqi mədəniyyətimizə, xüsusilə aşıq sənətinə böyük töhvə vermişdir. Ən azından, dediyimiz kimi, dünyasını dəyişən aşıqların bir arada – bir kitabda toplanması, onlar haqqında zəruri məlumatların verilməsi, bir çox fotoların ilk dəfə təqdimi, bir sıra aşıqlar haqqında məlumatların ilk dəfə verilməsi də kitaba dəyər verən faktlardandır.

Kitabı izlədikcə aşıqlarla, onlar haqqında bilgilərlə tanış olduqca bir sıra aşıq havaları və aşıq repertuarlarından xəbərsiz olduğunun fərqində olursan. Məlum olur ki, bu irsin böyük bir hissəsi yazıya, lentə köçürülməyib. M.Nəbioğlunun tərtib etdiyi kitabda verilən dəyərli məlumatlar əslində aşıqşünaslıqda yeni-yeni tədqiqatlara impuls verəcəkdir. Fikrimizcə, kitab folklor elmimizin qarşısında aşıq sənətinin az tanınan, az öyrənilən ustadları, onların repertuar yaddaşının incələnməsi məsələsini də qaldırır. Əsərdə cəmləşən aşıqların yaşayıb yaratdığı geniş coğrafiya – İrəvan, Göyçə, Borçalı, Dərbənd, Şirvan, Şəki, Qazax, Kəlbəcər, Laçın, Amasiya və s. diqqəti cəlb edir. Tarixən həmin coğrafiyalarda məskunlaşan, məlum səbəblərdən pərən-pərən düşən mədəniyyət, tarix, elm, məişət özəllikəri daşıyanlarımızın irsi, ənənəsi, məktəbləri, özəl repertuar, özəl havacatlar baxımından diqqəti çəkir, ani baxışdan belə sezilir, yeni tədqiqata, ciddi öyrənilməyə çağırır.

Müəllifin də qeyd etdiyi kimi, bu yöndə ilk təşəbbüs olduğundan təbii ki, kitaba adı düşməyən aşıqlar da var. Lakin hər şeyə rəğmən, fikrimizcə, Musa Nəbioğlunun "Ozan-aşıq dünyası" kitabı son illər aşıq sənəti ilə bağlı hazırlanan ən uğurlu tədqiqat, tanıtımdır, bir qədirşünaslıq

örnəyidir. 2010-cu ildə "Nurlan" nəşriyyatında hazırlanan kitabın tərtibatı, poliqrafiyası, bir çox fotoşəkillərin ilk kəz işıqlandırılması, bir sözlə texniki bər-bəzəyi də razılıq doğurur, kitabın işıq üzünə çıxmasına dəstək verən təşkilata da minnətdarlıq duyğularımızı çatdırmağı borc bilirik.

Musa Nəbioğlunun Aşıqlar Birliyi sədrinin məsləhəti və görkəmli aşıqşünas prof. M.Qasımlının rəyi ilə işıq üzü görən **"Sazımız – sazbəndimiz"** (Bakı, "Elm və təhsil", 2011) kitabı müasir el sənətlərinin, aşıq mədəniyyəti məktəblərinin öyrənilməsi, bərpası, tanıdılması və yaşadılması yolunda görülmüş ən nəcib və dəyərli çalışmadır. Sazbəndlik aşıq sənətinin, aşıqlığın çox vacib məqamlarından biridir. Bildiyim qədərində, M.Nəbioğlunun çap etdirdiyi bu kitaba qədər sazbəndlik, sazbəndlər haqqında sistemli, mükəmməl nəşr olmamışdır. M.Nəbioğlu sazbəndlər haqqında əldə olan ən mühüm bilgiləri xronoloji ardıcıllıqla təqdim etməklə sazbəndlik haqqında dəyərli məlumat verən əsər hazırlamağa nail olmuşdur. Bəzi kitab və məqalələrdə ara-sıra bu və ya digər məsələ ilə bağlı sazbəndlər xatırlanmışdır. Lakin, qeyd edildiyi kimi, 60-a yaxın sazbəndi çevrələyən sazbəndlik haqqında zəruri, maraq çəkən, tarixi dəyər daşıyan lazımlı əsər folklorşünaslıq elmimizdə demək olar ki, ilk qaranquşdur.

Kitabın "Xalqımızın qədim və ölməz sənəti – sazbəndlik" adlı girişində, oxucuya sazın düzəldilməsi texnikası, texnologiyası, materialı barəsində maraqlı məlumatlar verilir. Sazın keçdiyi inkişaf yolu – bu gün aldığı formaya – biçimə qədər uğradığı dəyişikliklər faktlara söykənərək izlənilmişdir. Müəllif sazın indiki görünüş halının tatixini XVI əsrə bağlayır və böyük saz-söz ustadı şah Xətaidən örnək-fakt gətirir:

Bir gün ələ almaz olsam mən sazım,
Ərşə dirək-dirək çıxar avazım.
Dörd iş vardır hər qarındaşa lazım:
Bir elm, bir kəlam, bir nəfəs, bir saz.

Kitabda sazın hazırlanmasında önəmli olan ağacın kəsilməsi vaxtı, qol və çanaq hissələrinin, daxili hissələrin adları (beçə, içəri yamşaq, ağac çüylər, xatabəndi, qoliçi oyma, daraq, sinə, baş xərək və s.), pərdələr, onların hazırlanması, təzənə kimi saza lazım olan onlarla atri-

butların adları, hazırlanması haqqında ən xırda detalların ardıcıllıqla diqqətə çatdırılması müəllifin səriştəsindən, bu sənəti kamil bilməsindən soraq verir. Sazbəndliklə bağlı təqdim edilən ayrıntılar maraq doğurur: çox qədimlərdə Sim, ağac qabığından, bitki lifi, heyvan tükündən hazırlanarmış. Sonralar isə metal simlərdən istifadə olunmuşdur, təbii ki, metaldan olan simlər daha güclü, təmiz səs versə də, ifa zamanı aşığa müəyyən əziyyət də verər. Poladdan hazırlanan simlər gümüş suyuna Salınarmış ki, həm paslanmasın, həm də qırılmasın. Müəllif qeyd edir ki, məs. sazın hazırlanması üçün seçilən ağacın Güneydə və ya Quzeydə bitməsinin çox böyük əhəmiyyəti var, çanaq tut, qol hissə qoz ağacından olsa daha münasibdir, aşıq (simlərin sarıldığı zivana-balaca paya, qulaq) isə ən yaxşı armud ağacından alınar, çünki bu ağacdan hazırlanan aşıqlar kökü dəqiq saxlayır, atmosfer təzyiqinə davamlı olur. Kitabda sazla, onun ərsəyə gəlməsi ilə bağlı onlarla bu şəkildə faktlar bir dərslik timsalında diqqətə çatdırılır.

"Sazımız – sazbəndimiz" kitabı XIX əsrin sonlarından bu günümüzə qədər yaşayıb yaratmış sazbəndlərin həyatı, gündəlik qayğıları, yaradıcılıq fəaliyyətini əks etdirən geniş məlumat – tanıtımdır. Məhəmmədəli Məhərrəmovdan başlayaraq (doğum tarixi 1893-cü ildir), İmaməli Budaqova qədər (1980-ci ildə anadan olmuşdur) 100 illik bir tarixdə yaşayıb-yaratmış sənətkarlar, onların özəl ustalıqları, adla deyilən sazları, şəyirdləri yada salınır. Sazbəndlər haqqında əldə olunan məlumatlar qədirşünaslıqla təqdim edilir, bəzilərinin bədii yaradıcılığından örnəklər də verilir. Diqqəti çəkən məqamlardan biri də mətnləri bəzəyən çox unikal fotolardır. Adlarını eşidib, xidmətlərini bilsək də, sazbənd ustaların çoxunun fotoları ilk dəfə işıq üzünə çıxır.

Kitabın tərtibatı yeknəsəq deyil, tərtibçi M.Nəbioğlu məlumatları lazım gəldikdə özü nəql edir, bəzən sazbəndin dilindən danışır, bir sıra hallarda dialoq qurur, müsahibə aparır. Tərtibçi, böyük səliqə və səbirlə mətnləri – sazbəndlər haqqında məlumatları onların doğum tarixinə uyğun ardıcıllıqla verir.

Kitabda yalnız sazbəndlərlə bağlı təsviri məlumatla deyil, eyni anda onların həyatının maraqlı səhifələri, aşıqlığı barədə də bilgilərlə tanış olursan.

Mənə maraqlı gələn, yeni hadisə, faktlarla tanış oldum. Çox qürur hissi keçirdim ki, bizim sazbəndlər saz bağlamaqla qalmayıb, mötəbər tədbirlərdə iştirak ediblər, mötəbər insanlarla görüşüblər, böyük ödüllərə layiq görülüblər: Göyçə mahalında doğulan Rizvan Qurbanov, ali təhsilli mühəndisdir, Bakıda Pənah Qurbanovdan sazbəndliyin sirlərini öyrənib, onun düzəltdiyi sazların sorağı Türkiyə, Cənubi Azərbaycan, Orta Asiya

respublikaları, Çin (uyğurlar yaşayan bölgədə), Almaniya, İsrail kimi ölkələrdən gəlir. Bir maraqlı faktı da M.Nəbioğlu qürur hissi ilə təqdim edir ki, Roma papası ölkəmizdə səfərdə olarkən ona bağışlanan unikal sazın ustası məhz Rizvan Qurbanov imiş. Kitabı vərəqlədikcə sazbəndlərin ömür səhifələrində sazbəndliklə bağlı fərəh yaradan, insanı qanadlandıran, eyni zamanda mədəniyyətimizə başucalığı gətirə bilən nə yazıq ki, gizlində qalan məqamlarla tez-tez rastlaşırsan: sənətkarlar ocağı sayılan Paşalar tayfasının (Hüseyn Mayıl, Şeyda Əziz, Miskin Əli, Tofiq Hüseynov, Hümbət Əlizadə, Aşıq İsmayıl, Gövhər Əziz qızı və b.) bir nümayəndəsi Paşa Hüseynov (qədim Erivan mahalı, İcevan bölgəsi Salahlı kəndi) ali təhsilli müəllim işləyib. 1990-1991-ci illərdə İsraildə dünya xalqlarının musiqi alətlərinin sərgisində onun düzəltdiyi saz sərgilənib, övladlarını da bu sənətə bağlayıb.

Sazbəndlər haqqında məlumatları oxuduqca bir şeyin fərqində oldum ki, sazbəndlərin çoxu ali təhsil almış savadlı, zövqlü insanlardır, çoxları da genetik, soy baxımından aşıq ocaqlarına mənsubdur, söz qoşmaları bu xətdən gəlir.

Bir məlumatda deyilir ki, sazbənd Pənah Qurbanov böyük alimdir, elmi dərəcəli ixtisas sahibidir. O, 1966-cı ildə namizədlik dissertasiyası müdafiə etmiş, 1989-cu ildə kimya üzrə elmlər doktoru alimlik dərəcəsi almışdır. “Göyçə – gözüm işığı” adlı şeirlər kitabını və sonrakı illərdə 5-cildlik şeirlər toplusunu nəşr etdirib. Sazbənd Pənah müəllimin eyni zamanda digər milli musiqi alətlərimiz kamança, tar, qavalın təkmilləş-dirilməsində də xidmətləri çoxdur. “Sazımız – sazbəndimiz” kitabında Pənah Qurbanovun poetik yaradıcılığından bir nümunə –“Göyçə” adlı şeiri də nəşr olunub.

M.Nəbioğlu sazbənd Haqverdi Nadirova istinad edərək yazır ki, o, 200-dən artıq saz düzəltmişdir. Sazbənd Süleyman Süleymanov isə 1975-1987-ci illərdə SSRİ miqyasında keçirilən Ümumittifaq Xalq yaradıcılığı festivalının laureatı olub, SSRİ Bəstəkarlar İttifaqının xətti ilə keçirilən etnoqrafik konsertdəki çıxışına görə Fəxri fərmana layiq görülüb, Leninqradda keçirilən Beynəlxalq Folklor festivalında I dərəcəli diplomla mükafatlandırılıb (1988). Elə 1988-ci ildə YUNESKO xətti ilə keçirilən Beynəlxalq Folklor festivalında sazda uğurlu ifasına görə bürünc medala layiq görülüb. Sazbənd Süleyman sazbəndliyi atasından öyrənib, onun düzəltdiyi sazları Aşıq Hidayət, Qəmkeş Allahverdi, Ulduz Sönməz, Ədalət Dəlidağlı, aşıq Sevindik kimi məşhur aşıqlar səsləndiriblər. Sazbənd Süleymanın düzəltdiyi 23 ədəd saz Böyük Britaniyanın “OKSFAM” təşkilatının müqavəlisinə əsasən həmin ölkəyə satılıb və s.

Kitabda ulu ustad Hüseyn Saraçlının sonuncu şəyirdi olan Murad Kövrəklə müsahibə şəklində yer alan yazıda aşıq sənətinin vacib məqamlarından söz açılır: ustad-şəyird məktəbi, bu ənənənin sürətlə itməsi və onun çox ağır nəticələrinin üzə çıxması, müasir aşıq repertuarı, aşığın nəcabəti kimi önəmli problemlərə toxunulur: – Şəyird ustaddan öncə nəyi öyrənməlidir? – sualına Murad Kövrək belə cavab verir: "Hər şeydən əvvəl ədəb-ərkanı. Aşıqlıq incə sənətdir. Rəhmətlik H.Saraçlı deyərdi ki, sən bir nəfərsən, məclis əhli 200-300, hamısının nəzəri səndədir, ədəb-ərkanın kamil olmalıdır..."

Sazbəndlik də aşıqlıq kimi insana vergi verilir. Təsadüfi demirəm, kitabda Xudu Mahmudovla bağlı hissədə sazbənd Xudu müəllimin bir həzin xatirəsi diqqətə çatdırılır: O uşaqlığında hər gecə yuxusunda saz düzəltdiyini görərmiş, beləcə yuxuları çin oluncaya qədər gecə-gündüz işləyib məşhur sazbəndə çevrilir. Oğlu Fərmanı da bu sənətə bağlayır. Birgə əməklərinin bəhrəsi olan saz 1990-cı ildə Türkiyənin o zamankı prezidenti Turqut Özala hədiyyə edilir.

"Sazımız – sazbəndimiz" kitabı sazbəndlər, sazbənd aşıqlar haqqında belə nadir, fərəh gətirən, qürur doğuran məlumatlarla zəngindir. Kitab həm ensiklopedik, tanıtım xarakterinə görə, eyni anda mədəniyyətimiz, aşıq sənətimizlə ayrı-ayrı sazbəndlərin ömür tarixləri ilə bağlı maraqlı məqamlara işıq salmaq baxımından da qiymətli vəsaitdir.

Son illər aşıq sənəti ilə bağlı uğurlu nəşrlərə imza atan M.Nəbioğlunun "Sazımız – sazbəndimiz" əsəri, fikrimizcə, bu qədim sənətimizi öyrənməyə, sevdirməyə, tanıtmağa yönələn dəyərli bilgi mənbəyidir.

Aşıq Kamandar – 80

Maşallah XUDUBƏYLİ

BU YOL KAMANDAR YOLUDU...

Elimizin-obamızın sazlı-sözlü diyarı kimi tanınan Borçalı mahalı həmişə öz ustad aşıqları ilə fəxr edib, öyünüb. Özünün həzin qoşmalarına ilıq nəfəsilə can verən ustad Xındı Məmməd, sinəsi dərya tutumlu Hüseyn Saraçlı, hər zənguləsi bal kimi şirin olan Əmrah Gülməmmədov! Sənət dünyasında hər birinin özünəməxsus yolu var bu ustadların. Borçalıdan başlanan bu yollara bir cığır da qoşulub. Əzəli dolaylardan keçən bu daşlı-kəsəkli yol 50 ildən bəri təmizlənib, saflaşıb büllurlaşandan sonra ustadların yollarıynan qoşalaşıb, sənət aləmində ilk addımlarını atan cavan aşıqların qibləgahına çevrilib.

Bu yol Aşıq Kamandar yoludu!

Elə bil, Borçalı dərələrindən axan çayların ilahi bir zümzüməsi var bu aşığın səsində. O, həm şaqraq, həm də kövrəkdir. Bu iki nəfəs bir-birinə qovuşub telli sazın ahənginə qarışanda duyan ürəklərin ehtizazı dünyaya sığmır. Əgər Kamandarın yadigar səsi "Kərəmi" ifasıynan bizi kövrəldə bilirsə, Koroğlu simasında damarlarımızdan axan saf qanı coşdurur, hər birimizi hünər meydanında süvari bir əsgərə döndərir. Bəzən Aşıq Cünun nəsihətindəki müdriklik "Dəli Koroğlu"yu sığala çəkəndə də Kamandarın saz dünyası bizi sehirləyə bilir. O, adicə bir qoşmaya "Cəlili" ahəngiylə, sadə bir gəraylıya "Dübeyti" oxşaması ilə yeni məna verir, onu yüksək zövqlə bizə aşılayır. "Müxəmməs" maraqlı bir hadisənin saz havacatında söylənəcək nəqlidir. Aşıq Kamandar öz dinləyicisinə elə nəql edir ki, hadisənin təfsilatı olduğundan daha maraqlı, daha şirin eşidilir. Ustad

sənətkar "Yurd yeri"ni oxuyanda onu yaradan aşıq-bəstəkardan da çox həzinləşir, elə indinin özündə boş qalan ata-baba oylaqlarımızın hər ocaq daşını gözlərimiz önündə canlandırır. Lakin arxasınca ucalan "Misri" sanki bizi qəflətdən oyadır, atları yəhərləyir, qəlbimizə qeyrət, qolumuza qüvvət gətirir. Aşıq Kamandar "El havasını" elə çalıb oxuyur ki, onun avazı böyük bir elin əzəli birliyindəki gücə-qüdrətə çevrilir. Bir sözlə, o, hər havanı yerində çalıb-oxumaqla öyünmür. Bu havaların hər birini Aşıq Kamandar daha da zənginləşdirir, ona yeni məna, yeni çalar gətirir.

Əgər kimsə aşıq sənətinə yüngülvari baxırsa, o, bizim milli mənəviyyatımıza biganədir. Bu, əlbəttə, inkarolunmaz bir həqiqətdir. Hər xalqın öz sənət mənbəyi olduğu kimi, bizimki də ulu ozanların sinəsində dillənən telli sazdan başlayır. Necə ki bu saz hər birimiz üçün müqəddəsdir, eləcə də onu yaşadan, ürəyinin başında əzizləyən aşıqlarımız da bizim milli mədəniyyətimizi yaşadan istinadgahımız olub.

İndi başına aşıq papağı, ayağına xrom çəkmə geyinib oxuyan aşıqlar çoxdur. Lakin əsl sənət ustalarını barmaqla saymaq olar. Məhz Kamandar da adınnan, sənətiynən sayılanlardan olub həmişə. Onun özünəməxsus məktəbi var. Elə bir məktəb ki, ora yalnız Kamandar səsli, Kamandar avazlı adamlar qəbul oluna bilərlər.

O, ilhamla çaldığı kimi, ilhamla da oxuyur. Əvvəl sazı oynaq barmaqlarıynan dilləndirir, sonra onun öz ilhamı dilə gəlir. Oxuyanda həm özünü unudar, həm də eşidənləri özünə unutdurardı. Bax, elə buradaca hər aşıqda tapılmayan, ancaq Kamandar sənətinə xas olan cəhətlərdən söz açmağa dəyər.

Aşığın çaldığı hər havada öz yenilik payı var. Amma bu yeniliklər heç bir havanın əzəli çalarına xələl gətirmir. Əksinə, vurduğu güllər onu daha da zənginləşdirir. Aşıq-bəstəkar kimi özü yaratdığı havalar da heç kiminkinə bənzəmir.

60 illik aşıqlıq yollarında Kamandar neçə-neçə gəlinlər gətirib, qızlar köçürüb. Lakin bugünkü mağar da dünənkindən fərqlənib.

Hər havada, hər sözdə, hər söhbətdə nəsə bir müsbət yenilik icad edib. Hər dəfə də Aşıq Kamandar camaatın gözündə təzələnib. Neçə yüz nəfərlik mikrofonsuz mağarda kimsə cınqırını da çəkməyib, hamı bütün varlığıynan ona diqqət kəsilib. Havaların ahəngiynən adamlar haldan-hala düşübdür. Gah coşub-daşıb, gah heyfsləniblər, gah gözləri yaşarıb, gah da gülüşüblər. Bəzən aşıq özü "Yanıq Kərəmi", "Dilqəmi" və "Məmmədhüseyni" kimi havaları oxuyanda sel kimi gözlərindən yaş axıdıb. Havacat isə öz ahəngində davam edib. Adam gördüklərinə inana bilməyib. Bu, həqiqətdir, yoxsa möcüzə? Görən Kərəm də öz dərdini telli sazın ahənginə qoşanda beləcə ağlaya-ağlayamı oxuyurmuş? Görəsən, Məm-

mədhüseyn ana yurdu Göyçəni tərk edəndə bədahətən yaratdığı havasını göz yaşlarıynanmı izhar edirmiş?

Aşıq Kamandar dastan danışanda da belədir. O, gah mülayim, gah da hirsli görünür. Hadisələri nəql etdikcə özü də qəhrəmanları ilə bərabər yaşayır. Söhbətləri şirin, ardıcıl və maraqlı olur. Belə hallarda onun tamamilə bənzərsiz ustalığı xüsusilə nəzəri cəlb edir. Aşıq danışanda sazı susdurub qoltuğuna almır. Həm danışır, həm də sazı məzmuna uyğun tərzdə çalır. Nə barmaqları yanılır, nə də dili. Ahəngi ahəngə qoşub eşidənləri heyran qoyur. Elin çeşmə suyu kimi saf dilində elə danışır ki, Borçalı ləhcəsindəki şirinlik sazda vurduğu təzə güllər kimi axıcı olur.

Aşıq Kamandarın səhnə mədəniyyəti gözoxşayan, ürəyəyatan olub. Nə bəzi aşıqlar kimi şit-şit oynamaqla, nə də yeri gəldi-gəlmədi səsinin tonunu dəyişməklə özünü gözə soxmağa çalışmırdı. Onda hər nə varsa təbiidir. Çalmaq da, oxumaq da, danışmaq da. Hər havanın sözünü ustalıqla seçər, məzmunsuz, mənasız və haradasa yerinə düşməyən sözü oxumazdı. Aşıqlıq sənətində neçə hava varsa, Kamandar onu öz sazında çala bilib. Bəzən hər hansı bir aşıqdan soruşanda ki, “Neçə saz havası var?” – cavabında onun sayını yüzdən yuxarı qaldırır. Təfsilatına varsan özü heç 10 havanı kamil çala bilməz. Kamandar isə ustad kimi həmişə qeyritəvazökarlıqdan uzaq olub. Hər yerdə deyib ki, “Aşıq ki var, o, el ağsaqqalıdı. Gərək harada nə danışdığını bilsin. Hərdən elələri olur ki, naşı ikən, özünü ustad kimi göstərməyə çalışır. Belələrinin dayazlığı tez də aşkar olur. Amma təəssüf ki, onlar həmişə, hər yerdə sənətə xələl gətirirlər. Gərək beləsinə heç yerdə meydan verilməsin”.

Bax, bu mənada aşığın gileyi çox idi. Sazın tellərinə hörmət etməyən, onu ucuz gəlir mənbəyinə çevirən bəzi üzdəniraq aşıqlar, sözün əsl mənasında, ulu sənətimizə xəyanət etmiş kimidi. Əgər belədirsə, bu məsələ rəsmiləşdirilsə yaxşı olmazmı? Qoy yeməkxanalarda, sanatoriyalarda, çayxanalarda və başqa ictimai yerlərdə oxuyan aşıqlara xüsusi icazənamə verilsin. Belə ki, onlar ustad aşıqlar tərəfindən yoxlanılsın, görək el içinə çıxasıdı, yoxsa yox? Əgər belə olsa, uzaq eldən gələn qonaq-qara yanında da üzümüz ağ olar. Axı onların arasında elələri var ki, bizim aşıq sənəti haqqında şifahi məlumatı olsa da, özünü görməyib, səsini eşitməyib? Naşı aşıqlar isə onlarda klassik saz sənətimiz barədə yanlış fikir oyada bilər...

Bəli, ustad gileyində haqlıydı. Bu, ellikcə hamımızın qayğısıdır.

Aşıqlıqda qaydadır, hər kamil ustadın da öz ustadı olub. Şəyird isə həmişə ustadıynan öyünüb, fəxr edib. Sənətin bu yolunda da çətinliklər olub. Hərdən görürsən ki, şəyird ustadın etimadını doğrultmur. Belələri

yarıyolda büdrəyir. Bəzən də şəyird gəlib ustadını keçir, sənətdə onu üstələyir. Lakin hörmət hörmətliyində qalır.

Sənətsevərlər yaxşı bilirlər ki, Aşıq Kamandar deyəndə, istər-istəməz Aşıq Əmrah yada düşür. Ya da ki, əksinə... Ümumiyyətlə, bu iki ustadın adı həmişə, hər yerdə qoşa çəkilib. Lakin Kamandardan soruşanda ki, "Ustadın kim olub?". O, Aşıq Sadıqdan sonra Aşıq Əmrahın adını xüsusi bir kövrəkliklə çəkir. İstər-istəməz ötən günlər çözələnir, yuxulu, kövrək xatirələr oyanır.

Bəlkə də, çoxları nə zamansa bu iki kamil sənətkardan birinin ustad, o birinin isə şəyird olduğunu bilməyib. Elə onları sənət yollarında qoşa görüb, qoşa tanıyıblar. Amma bu müqəddəs sənətin əlilə ustadla şəyird münasibətlərinin nümunəvi bir dostluğa çevrilməsi hər kəsə nəsib olmur. Aşıq Kamandar məhz belə sənətkarlardandır. Onu Aşıq Əmrahla bağlayan dostluq tellərini dünyanın ən dəhşətli tufanları da qıra bilməzdi. Çünki bu dostluğun çələngi telli sazın sehrli səsindən yaranan məslək və əqidə birliyindən hörülüb. Qədim Borçalının saf suyu, təmiz havası, ürəkdən, qandan gələn mənəvi birlik, təmizlik onların dostluğunu daha da möhkəmləndirib, əbədiyyətə çevirib. Aşıq Əmrahın sağlığında onlar hər yerdə, hər məclisdə qoşa gəzib, qoşa durub, qoşa da oxuyublar. Nədənsə onların xasiyyətləri kimi, sənət vərdişləri, hətta səsləri də oxşar olub, zəngulələri də. Radio dalğalarında onlara qulaq asan dinləyicilər qarşılıqlı oxumada kimin Əmrah, kimin Kamandar olduğunu ayırd etməkdə çətinlik çəkiblər. Amma bircə onu biliblər ki, Əmrahla Kamandar oxuyur. Deməli, dinləmək, tam diqqətlə qulaq asmaq lazımdır.

Qədirbilən el sənətkarı saysız-hesabsız dastanların, ən mürəkkəb havaların kamil bilicisi kimi tanınmağına görə əziz ustadı və dostu Aşıq Əmraha ömürlük minnətdar olub. Onun adını daim hörmətlə çəkib, xatirəsi önündə baş əyib. Hətta bəzən taleyin ona bəxş etdiyi fitri istedadı da Aşıq Əmrahın adı ilə bağlayan Aşıq Kamandar dostluğa sədaqətinə görə el gözündə daha da ucalıb, min qat artıq hörmət qazanıb.

Heç şübhəsiz, sonralar Aşıq Kamandarın Əməkdar mədəniyyət işçisi kimi yüksək ada layiq görülməsi çoxlarımızın sevincinə səbəb olmuşdu. Lakin əgər Aşıq Əmrah sağ olsaydı, yəqin ki, bu sevincdən ən çox ona pay düşərdi. Təəssüf ki, o, əziz şəyirdinin, istəkli sənət dostunun bu gününü görmədi. Axı belə obyektiv bir qiyməti Aşıq Əmrah da illərlə gözləmişdi. Fəqət min əfsus ki, həyatımızın, mədəniyyətimizin və incəsənətimizin bir çox sahələrində olduğu kimi, ustad aşıqlarımızın da sənətinə haradasa vaxtında qiymət verilməmiş, telli sazın dünyasına barmaqarası baxılmışdı. Aşıq Hüseyn Saraçlı və Aşıq Əmrah kimi saz-söz ustadlarımız könlü qubarlı, qəlbi gileylicə bu dünyadan köçüb getmişlər.

Gec də olsa onların da nəfəsini Kamandar nəfəsində duyan sənətsevərlər, ona verilən addan təsəlli tapıblar. Çünki Aşıq Kamandar sənəti bu ada çoxdan layiq idi.

Kamandar sənətindən söz açarkən onun istedadının xüsusi bir cəhətindən – şairlik istedadından da danışmaq borcumuzdur. Ağır yığnaqlarda öz sələflərinin qoşma, gəraylı, təcnis, müxəmməs, və divani kimi şeirləri ilə yanaşı özününküləri də arabir telli sazın ahənginə qoşub ellərə yayan sənətkar həmişə aşıq-şair kimi tanınıb. Bir də, onun sözlərini təkcə özü yox, qeyri-aşıqlar da çalıb-çağırır. Eşidənlər bəyənib afərin deyir. Amma neçə il əvvəl oxucular aşığın "Yazıçı" nəşriyyatı tərəfindən buraxılmış ayrıca kitabını hədiyyə alıblar. Kitabda ustadın aşıq şeirinin bütün biçimlərində yazıb-yaratdığı şeirlər cəmlənmişdir. Səf-səf düzülən qoşmalar, gəraylılar, təcnislər, müxəmməslər, taziyanələr və müxtəlif ölçülü şeirlər aşıq-şairin öz pərəstişkarlarına verdiyi yeni bir hədiyyədir. Kitabın redaktoru, istedadlı şair Müzəffər Şükür Kamandar incilərini diqqətlə nizama düzmüş, aşıq şeirinin bütün formalarının bilicisi olduğunu bir daha göstərmişdir. "Borçalı laylası" adlanan bu kitab el məhəbbəti, Vətən sevgisi ilə doludur.

Sənə can demişəm, Azərbaycanım,
Dinim-imanımsan dinlər içində.
Harda dara düşsəm, qaynayar qanım,
Ünüm sənə çatar ünlər içində.

Sənət meydanında qurulub xanam,
Bir sazım-sözümdü barım-barxanam.
Mən sənə bağlıyam, mehriban anam,
Milyonlar içində, minlər içində.

Aşıq Kamandarı hərdən yad elə,
Ən gözəl günlərin öndədir hələ.
Bakımla Təbrizim versin əl-ələ,
Min yaşa xoş aylar, günlər içində.

Bəli, biz Aşıq Kamandar kimi sənət ustadlarımızın qədrini özlərindən sonra da bilməli, onları hər vaxt qiymətləndirməliyik. Çünki onların yadigar səsləri tarixdir, bugünkü sənət dünyamızın canlı nümunəsidir. Onları gələcək nəsillərimiz üçün əbədiləşdirməkdə əlimizdən gələni əsirgəməməliyik.

GÜNƏŞƏ GEDƏN YOLU SEVMƏYƏN BİZDƏN DEYİL!

Bəlli olduğu kimi, 2012-ci il iyun ayının birinci yarısında respublikamızda "Avrasya Beynəlxalq Ararşdırmalar İnstitutu" İctimai Birliyinin Azərbaycan-İraq Parlamentlərarası Dostluq Qrupu, Azərbaycan Yazıçılar Birliyi, Dünya Gənc Türk Yazarlar Birliyi və digər qurumların iştirakı ilə gerçəkləşdirdiyi "Azərbaycan-İraq əlaqələri: dünəni, bugünü, gələcəyi" adlı proqram uğurla başa çatmışdır. Proqramda iştirak edən İraq Türkman nümayəndə heyəti tanınmış ictimai-siyasi xadimlər, sənətçilər və ədəbiyyatçılardan ibarət idi. Nümayəndə heyətinin üzvləri olan tanınmış İraq Türkman ədibləri – dr. Mustafa Ziya, dr. Şəmsəddin Kuzəçi və keçmiş millət vəkili Fövzi Əkrəm Tərzioğlunun ədəbi yaradıcılıqlarından örnəkləri "Ozan dünyası" jurnalının oxucularına təqdim edirik.

Əkbər QOŞALI

dr. Mustafa ZİYA

Azərbaycan Yazıçılar Birliyi və Dünya Gənc Türk Yazarlar Birliyinin fəxri üzvü, tanınmış İraq-Türkman aydınlarından biri olan dr.Ziya, İraq Türkman Cəbhəsi və İraqlı soydaşlarımızın qurmuş olduğu digər ictimai qurumlarında önəmli görəvlər daşıyıb.

Kərkük doğumlu Mustafa Ziya, hazırda Ankarada yaşayır və bugün də İraq Türkmanlarının həm ictimai-siyasi, həm də ədəbi-mədəni həyatında seçilən isimlərdəndir.

Torpaq

(Şəhid Yavuz Əfəndioğlu və bütün Türklük şəhidlərinin əziz ruhuna)

Bu torpaq susamış – can, qan istəyir,
Bu torpaq xınalı qurban istəyir.
Tozunu qoparan, daşını dələn,
Yağız atlılara dövran istəyir.

Kirlənən dağları yıxanmalıdır,
Dinən qasırğalar şahlanmalıdır.
Yolları axıncı dolub-daşmalı,
Görən

məhşər günüdür –
sanmalıdır.

Kükrə, Gürgür Baba, yax, siyah suyu,
Dağıt bu düzəni, poz bu pusuyu…
Sənə çirkli neft deyil, al qan gərək,
Hər Türkmanın qəlbində aç, bir quyu…

Kəfənlə gömülən utansın bu gün,
Bu bir qanlı düyündür, qanlı düyün…
Yavuzlar torpağı qanla sularkən,
Nədir sənin ürkək-ürkək durduğun..?

Bu torpaq susamış canan istəyir,
Nurəddin Zəngidən fərman istəyir.
Atabəylər gözlər Qarasarayda,
Əbdülhəmid kimi sultan istəyir.

Dəclənin suları ağlasın artıq,
Nuh tufanı kimi çağlasın artıq!
Kərkükün səsiylə oxunsun azan,
Hoyrat ürəkləri dağlasın, artıq!

Dilək

Həyatımı dilədin,
Həyatım sənin olsun.
İstədin boşluğumu,
Səninlə dolsun.

Gözlərimi bəyəndin,
Gözlərinə ərməğan.
Yürüyüşüm xoş idi,
Dizlərinə ərməğan.

Tanrı sənin yerinə,
Yorsun, qoy məni yorsun.
Uydum diləklərinə,
Daha nə istiyorsun?

Fövzi Əkrəm Tərzioğlu

Sabiq deputat, İraqın tanınmış ictimai-siyasi xadimi, şair. Kərkükə bağlı Tuzhurmatu elində doğulub. Orta məktəbi burda bitirəndən sonra Bağdadda lisey və universitet təhsili alıb. Uşaq vaxtlarından şeirlə-sənətlə maraqlanan Fövzi Əkrəm, əsgərlikdən gəldikdən sonra (1989) Tuzda müəllimlik edib. Səddamsonrası iki çağırış İraq parlamentinin üzvü seçilib.

Onun ilk kitabı olan "Cənnət quşları" 2000-ci ildə Kərkükdə çıxıb. İkinci kitabı "Azərbaycan dastanı" isə 2001-ci ildə Bakıda nəşr olunub. Daha sonra 2003-cü ildə Bağdadda "Röyalar qitəsi" kitabı nəşr olunub. Daha sonra tənqid yazılarının toplandığı kitab ərəb dilində işıq üzü görüb.

***

Dünyada,
səni saldım dün yada.
İstərəm bir sey deyim,
deyilməyib dünyada…

***

Diləklər,
sözü sözə dil əklər.
Nə zaman gerçəkləşir
könlümdəki diləklər?!.

***

Mən Tuzda yaşırsam da,
Qulaq, ruhum səndədi.
Bir Azər cocuğu ağlasa,
bilərəm mən.

BİZDƏN DEYİL

Heç batmayan günəşi,
Gözlənilən barışı,
Savaşla, qurtuluşu
Sevməyən bizdən deyil!

Şanlı milləti, vətəni,
İgid aslan atanı,
Yerdə şəhid yatanı
Sevməyən bizdən deyil!

Din, Dil, Millət, Toprağı,
Qandan təmiz bayrağı,
Gür-gür yanan çırağı
Sevməyən bizdən deyil!

Ağsu, Hasa, Fıratı,
Günəşə qoşan atı,
Göydən enən ayatı
Sevməyən bizdən deyil!

Kərkük, Bəsrə, Bağdadın
Duyan yoxdur fəryadın.
Peyğəmbərin evladın
Sevməyən bizdən deyil!

Birlik, şan, hürriyəti,
Qoruruq hür dövləti.
Qosqoca bu milləti
Sevməyən bizdən deyil!

Evliya diyarını,
Yurdumun baharını,
Oğuzların sazını
Sevməyən bizdən deyil!

Tarlamız altın dolu,
Lalə sünbüllü olu(r),
Günəşə gedən yolu,
Sevməyən bizdən deyil!

BU, SƏNMİSƏN?

Bu sənmisən, bimürvət, dəlicə soruşursan,
Adım, şeirim, adresim – haradan olduğumu.
Aramızda sınırlar, dənizlər görüyorsun,
Soruşma daha, məchul, içimə dolduğumu.

Bilməyirəm bu məchul məni bəs harda arır,
Əcaba, hanki duraqda gələcəkdi qarşıma.
Andıkca o günləri, içimi qəmlər sarır,
Mənim bu gənc çağımda nələr gəldi başıma.

Mən bir adsız, bəlirsiz yolçuluq peşindəyəm,
Sən də artıq dalmışsan həyatın şənliyinə,
Çarpışır yollarımız, bilməm hara gedəyim,
Sən də adsız, bəlirsiz gir sevgi kimliyinə…

TÜRKMAN GÖZLÜ SEVGİLİMƏ

Gözündə boğulan nəm min bir anlam daşıyır,
Canalıcı baxışların aşılmaz yollar aşır.
İşıqlanan üfüqlər yar şövqünü paylaşır,
O payda gör süslənir baxçamız çiçək-çiçək,
Umut saçıb dolaşar şaqraq bülbül, kəpənək…

Tel-tel sırma saçında yaşıllanır umutlar,
Yetirsin mənə müjdə əsən rüzgar, buludlar.
Gül pərilər, mələklər şanlı bayramın qutlar,
Bayramın da şənliyi gözlərində canlanır,
Sənin sevgin də artıq şan şöhrətim saxlanır.

Kirpiklərin kölgəsi baharın sərinliyi,
Yanağının çuxuru eşqimin dərinliyi.
Utancaq gülümsəmən xoşbəxt həyat şənliyi,
Şənliyin, düyünün görüb, ondan öləydim,
Gilas rəngli dodağın gizlərini biləydim.

Dünyanın hər yerində gözlərinin izi var,
Mövsümlər çeşid-çeşid baharı var, güzü var.
Tərzioğlunun sənə… dur, getmə, bir sözü var,
Hər bayramın axşamı sən gəl məzar daşına,
Söylə, bu gənc aşiqin nələr gəldi başına…

dr. Şəmsəddin KUZƏÇİ

Dünya Gənc Türk Yazarlar Birliyinin uluslararası baş koordinatoru, Türk Dünyası Gənc İlətişimçilər (Media Mənsubları) Birliyinin başqanı olan Kuzəçi tanınmış İraq-Türkman aydınlarından biridir.

İraq, Türkiyə və Azərbaycanda onun yazarı, həm-yazarı, tərtibçisi, həmtərtibçisi olduğu 20-nin üzərində kitab işıq üzü görüb.

Yazar Kərkükün ünlü Kuzəçioğulları nəslindəndir.

"Hoyrat və dördlüklər silsiləsi"ndən

Dosta dərdim,
Əkdiyim dostsa dərdim.
Göz yumdu, qulaq tutdu
Deyəndə dosta dərdim...

Dağ yandı,
Köyümüzdən dağ yandı.
Dərdlərimi dağa dedim,
Külə döndü dağ yandı.

Dərdi yalqız,
Yar gülüm dərdi yalqız.
Bağban baş aldı getdi,
Bülbül, çək dərdi yalqız.

Ya nar dalda*,
Ya heyva, ya nar dalda.
Bağban bağa xor baxsa,
Quş gözünnən yaş axsa,
Açan gül yanar dalda.
Yadı bağban etsələr,
Yanar bağ, yanar dalda da..!

(dalda – budaqda)*

Kimsə yaram,
Bağlamaz kimsə yaram.
Girginən könlümə, yar,
Bax, səni kim sayaram...

Bizi vuran fələkdi,
İçimizdə qəm əkdi.
Görmə üzdə gülürük,
Həsrət çəkən ürəkdi.

Bu mənim naşı könlüm,
Dərdlər yoldaşı könlüm.
Dərdini daşa desə,
Ağladı(r) daşı könlüm.

Qəm ürəyim dağlayır,
Gözümdə yaş çağlayır.
İçimdə bir şeylər var,
Məni yurda bağlayır.

İş isə işdə qalsın,
Diş isə dişdə qalsın,
Hər kim millətin sevməz,
Vətən qiymətin bilməz,
Qoy yansın şişdə qalsın.

Sazın dostu – sözün dostu

SAZ MƏNƏVİYYAT MƏKTƏBİDİR

Q.Şəmşiroğlu: "Bu sənətin sahibi biziksə, biz ona yiyə durmalıyıq, onu yaşatmalıyıq".

Müsahibimiz Aşıq Şəmşir Mədəniyyət Ocağı İctimai Birliyinin sədri Qənbər Şəmşiroğludur

– Qənbər müəllim, Siz Azərbaycanımızın saz-söz beşiklərindən olan Kəlbəcərdə – böyük ustad Dədə Şəmşirin ocağında dünyaya gəlmisiniz. Bu gün Kəlbəcər erməni işğalı altındadır. Nə qədər ağrılı olsa da, istərdim ki, bir qədər o illərə qayıdaq. Sazlı-sözlü Kəlbəcərə – Dədə Şəmşir ocağına.

– Mən dəfələrlə bu barədə söhbət etmişəm, Kəlbəcər Allahın bəndələrinə bəxş etdiyi gözəl bir varlıq, pay idi. Kəlbəcərə adicə bir rayon kimi baxmaq düz deyil. Kəlbəcər gözəlliklər diyarıdır. Burada insanın yaşaması üçün hər nemət vardır. Kəlbəcər ərazisində 416 mineral bulaq suyu mövcuddur. Kəlbəcərdə Bala Xudavənd deyilən bir yer var idi, biz ona mağara deyirdik, Alban tikilisi idi, ermənilər gətirib ora xaç tikmişdilər, biz də əvvəl-əvvəl başa düşməmişdik, başa düşəndə isə artıq gec idi.

Mən Miskin Abdal ocağının yadigarı, şair Qurbanın övladı Dədə Şəmşirin evində dünyaya göz açmış, 1950-ci ildə orta məktəbi bitirmişəm. Orta məktəbi bitirəndən sonra bir il ali məktəbə gedə bilmədim və o vaxtlar mövcud olan savadsızlığın ləğvi kursunda müəllim işlədim.

Kəlbəcərin mənfi cəhəti onda idi ki, mərkəzdən çox uzaq idi. İndi bəzən mənə sual verirlər ki, niyə Qurban babanın, Şəmşir babanın əsərləri vaxtında üzə çıxarılmayıb. Axı o vaxt ora gəlib çıxan yox idi. İlk dəfə dədəmin və Qurban babamın əsərlərini toplamağa təşəbbüs göstərənlər Məmmədhüseyn Təhmasib və Əhliman Axundov olublar. Onlar bizim kəndə qədər gəlmişdilər, o vaxtlar çətin idi kəndə gəlib çıxmaq. Atla gəlmişdilər, dədəmi tapıb əsərlərini topladılar. 1938-ci ildə II Aşıqlar

Qurultayında dədəm iştirak edib, yəqin ki, onların təşəbbüsü ilə olub bu. Və dədəmin mətbuatda çap olunan ilk şeirləri o vaxt olub.

Kəlbəcərdə sənətə çox böyük qiymət verilirdi. Mənim Qurban babam şair olub, onun bədahətən şeir demək qabiliyyəti vardı. Aralarında yaş fərqi olmasına baxmayaraq, Aşıq Ələsgərlə çox yaxın ailəvi dost olublar.

– Atamın dediyinə görə onun saz ustadı Goranboydan Aşıq Sarı olub. Əsasən sənəti öz atasından – Qurban babamdan öyrənib, amma sonra aşıqlığa başlayanda Aşıq Sarıdan dərs alıb. Qurban kişi aşıq kimi az fəaliyyət göstərib, ancaq qohumların toyunda çalarmış. Əsasən şair kimi fəaliyyətdə olub. Çox istedadlı bir şair olub və bayaq qeyd etdim, Aşıq Ələsgərlə çox yaxın dost olublar, aralarında yazışmalar, deyişmələr çox olub.

– Məşhur adamın övladı olmaq sizcə nə deməkdir: şan-şöhrət, hər yerdə bu addan istifadə etmək, yoxsa bu adın məsuliyyətini daşımaq*?*

– Mən bunu məsuliyyət sayıram. Ancaq məsuliyyət. Atalar deyib ki, oğul ağıllı olsa dədənin malını neynir, dəli olsa neynir?! Dəli olsa, vurub dağıdacaq, ağıllı olsa, özü qazanmalıdı. Məşhurluq o demək deyil ki, həmişə səni tərifləsinlər. Bir dəfə, iki dəfə tərifləyəcəklər, sonra görəndə ki, öz qabında bir şey yoxdu, deyəcəklər qoy getsin. Dünyada gərək sənə edilən hörmətə qarşılıq verməyi bacarasan. Əgər bacarmasan, olacaq hər şey boş. Şöhrəti əldə saxlamaq üçün zəhmət çəkmək lazımdır, zəhmətə qatlaşmaq lazımdır. Bu da hər oğulun işi deyil.

– Deyirlər ustad oğlu şəyird olmaz. Sizin üçün saz nədir*?*

– Tək mənim üçün deyil, mən fikirləşirəm ki, bütövlükdə Azərbaycan üçün saz mənəviyyat məktəbidir. Saz mənim üçün incəsənət məktəbi, xalqın ruhunu oxşayan sənət, Türk dünyasının mənəvi aləmi, mənəvi ruhudur. Bizim xalqımızı sazsız təsəvvür etmək mümkün deyil.

– Dədə Şəmşirin ocağında böyüməyiniz, sonradan isə cəmiyyətdəki mövqeyiniz imkan verirdi ki, bir çox ustad aşıqlarla, tanınmış elm və sənət adamları ilə ünsiyyətdə olasınız. Bu gün onlardan kimləri xatırlayırsınız*?*

– Çoxlarını xatırlayıram. Dədəmin çox şəyirdləri olub. Məsələn, İbrahim adlı bir şəyirdi var idi, o kişi oxuyanda elə bilirdin dədəm özü oxuyur. Kəlbəcərdən idi. Aşıq Qardaşxan, Qəmkeş Allahverdi və başqaları da dədəmin əlinin altından keçmişdilər.

Borçalı aşıqlarından Aşıq Əmrah, Hüseyn Saraçlı və Aşıq Kamandarı yaxşı xatırlayıram. Aşıq Əmrah mənə əmioğlu deyə müraciət edərdi. Atamın ən çox sevdiyi aşıq Əmrah idi. Deyirdi ki, Aşıq Əmrah sazı xırdalayır, havanı adamın qanına yeridir. Sazı elə çalır ki, elə bil saz dil-

lənir, deyir ki, mən də varam. O vaxt indiki kimi deyildi, mehmanxana yox idi, Bakıya qonaq gələndə hamı bir-birinin evində qalırdı. Yaxşı yadımdadır, dədəm də, Əmrah əmi də Bakıya gəlmişdi, mən də o zaman ali məktəbdə oxuyurdum. 12 gün Aşıq Əmrahla mən ata-bala kimi bir yerdə qalmışıq.

Atamın dediyinə görə onun saz ustadı Goranboydan Aşıq Sarı olub. Əsasən sənəti öz atasından – Qurban babamdan öyrənib, amma sonra aşıqlığa başlayanda Aşıq Sarıdan dərs alıb. Qurban kişi aşıq kimi az fəaliyyət göstərib, ancaq qohumların toyunda çalarmış. Əsasən şair kimi fəaliyyətdə olub. Çox istedadlı bir şair olub və bayaq qeyd etdim, Aşıq Ələsgərlə çox yaxın dost olublar, aralarında yazışmalar, deyişmələr çox olub. Aşıq Ələsgərin yoldaşı Kəlbəcərin Yanşaq kəndindən olub, həm də aralarında qohumluq əlaqələri olub.

– Böyük ustadlardan söhbət açdınız. Neçə-neçə böyük sənətkarlarla ünsiyyətdə olmuş, onları dinləmiş Qənbər müəllim bugünkü aşıqlarımız haqda nə deyə bilər. Aşıqlarımızın, bütövlükdə aşıq sənətinin bugünkü səviyyəsi sizi qane edirmi?

– Aşıq mənim aləmimdə mədəniyyət mərkəzidir, tərbiyə ocağıdır. Aşıq dünyanı dərk eləyəndir, xalqın əqli, zəkası, xalqın danışan dilidir, xalqın mənəvi ruhvericisi, qidavericisidir. Aşıq hər zaman öz qiymətini bilməlidir. İndi, düzdür, dünyada başqa cür inkişaf edir. O vaxtlar aşıqlar məclislərə gələndə ağır oturar, ağır durardı, ağır dinərdi...

Aşıq gərək sazda kamil çala bilsin, kamil söz deməyi bacarsın, mükəmməl oxuya bilsin. Aşıq kamil dastan deməyi bacarmalıdır. Bir məclisdə gəlindən, qızdan həyalı gəzsin gərək aşıq. Atılıb-düşməklə aşıqlıq olmaz. İndiki aşıqlara onu demək istəyirəm ki, aşıq nə qədər yüksək mədəniyyət, yüksək əxlaq sahibi olsa, bir o qədər xalqın hörmətini, xalqın məhəbbətini qazanar. Nəinki davranışda, aşıq gərək hər dediyi sözdə xalqa tərbiyə aşılasın. Ümumiyyətlə, bu sənəti yaşatmaq lazımdır.

– Sizə elə gəlmirmi ki, bizim adət etdiyimiz ustad-şəyird ənənəsinin get-gedə aradan çıxması sənətin inkişafına öz təsirini göstərir. Bu boşluğu doldurmaq üçün nə etmək lazımdır? Sizcə nə etmək lazımdır ki, bu sənətə yeni gələn gənclər sadəcə saz çalmaqla kifayətlənməyib, bütövlükdə aşıqlıq ənənələrini yaşada bilsinlər?

– Gənc nəsil Aşıq Ələsgərdən, Aşıq Ağayardan, Aşıq Əmrah, Aşıq Kamandar, Aşıq Hüseyn Saraçlı və digər ustadlardan bu sənətin incəliklərini öyrənməlidir. Məsələn, Hüseyn Saraçlı nə qədər xırda-xırda əhvalatlar danışardı. Adama ləzzət verirdi. Aşıqda həm də gözəl ifadə etmək tərzi olmalı, lazım olanda zarafatlardan, atmacalardan istifadə etməyi bacarmalıdır ki, dinləyici ondan həzz ala bilsin.

Aşıq kamil olmalıdı, ustaddan öyrənməyi bacarmalıdı. Mənim indiki aşıqlara məsləhətim odur ki, əgər bizim aşıq sənətimizi, ənənələrimizi davam etdirmək istəyirlərsə, ustadlarımızın lent yazılarına qulaq asıb öyrənsinlər, onların məclisdəki hərəkətlərinə fikir versinlər, dastan demək tərzlərinə baxıb öyrənsinlər. Sənəti öyrənsinlər və yaşatsınlar. Sənəti yaşatmaq üçün isə öncə onu kamil bilmək lazımdır.

– Qənbər müəllim, erməni işğalı nəticəsində öz dədə-baba yurdundan didərgin düşən təkcə insanlar deyil, həm də adət-ənənəmiz, mədəni sərvətlərimizdir. Bu gün Göyçə, Kəlbəcər, Laçın və digər bölgələrimizdən olan aşıqlarımızın sinəsindəki saz da qaçqınlıq, məcburi köçkünlük ömrü yaşayır. Bütün bunlar bu sənətə necə təsir edir?

– Əlbəttə, bunlar sənətə mənfi təsir göstərir. Ancaq bir şeyi də qeyd etmək lazımdır ki, əvvəllər Bakıda aşıq görmək, demək olar ki, mümkün deyildi. Bakıda bu sənəti təbliğ edən də yox idi. Bir-iki aşıq dastan deməklə, – Aşıq Əmrah Bakıya gəlib-gedirdi, – aşıq sənəti Bakıda inkişaf edə bilməzdi. İndi isə Göyçənin, başqa bölgələrimizin aşıqsevərləri toplanıb Bakıda. Və onların da çoxusu istəyir ki, aşıq sənəti inkişaf etsin. Görürsünüzmü, radiolarımızda, televiziyalarımızda nə qədər gözəl verilişlər gedir. Məsələn, Azərbaycan televiziyasında professor Məhərrəm Qasımlının apardığı veriliş, İctimai televiziyanın bu yöndəki fəaliyyəti təqdirəlayiqdir. Bu sənət xalqımızın qədim sənətidir və onu öldürmək olmaz. Əgər bu sənətə dövlət qayğı göstərirsə, onu daha da möhkəmləndirmək, yaşatmaq lazımdır.

– 2013-cü il Dədə Şəmşirin anadan olmasının 120 illik yubiley ilidir. Təbii ki, bununla bağlı Aşıqlar Birliyinin öz planları var. Bəs bu yubileylə bağlı sizin hansı planlarınız var: həm bu böyük ustadın övladı, həm də Aşıq Şəmşir Mədəniyyət Ocağı İctimai Birliyinin sədri kimi?

– Dədə Şəmşirin həyat və yaradıcılığı haqda rəhmətlik Mürsəl Həkimov, Sədnik Paşayev gözəl monoqrafiyalar yazıblar. Bu yaxınlarda Gədəbəydən Səbinə adlı bir qız Aşıq Şəmşirin həyat və yaradıcılığı haqda dissertasiya müdafiə etdi.

Rəhmətlik Aşıq Sakit – çox istedadlı, gözəl bir insan idi, – dədəmin yanında çox vaxt keçirirdi məlumat toplamaq üçün, hətta dədəm onun yanında yazdığı şeirləri də ona verirmiş, o şeirlər ki, ancaq onda var, heç Dədə Şəmşirin şeir arxivində də yoxdur. Rəhmətlik o şeirləri topladı və dədəmin 115 illik yubileyində bir kitab nəşr etdirdi: 115 illik yubileydə 115 şeir.

Allah Səməd Vurğunun ruhunu şad eləsin, bildiyiniz kimi, Aşıq Şəmşir Səməd Vurğundan sonra daha çox tanınmağa başlayıb. Mən üzr

istəyirəm aşıqlarımızdan, alimlərimizdən bu ifadəmə görə, amma bəlkə də Azərbaycan ədəbiyyatında ikinci bir adam yoxuydu ki, Aşıq Şəmşir qədər ona ayrı-ayrı vətəndaşlardan, sazsevərlərdən, aşıqpərəstlərdən və eyni zamanda xaricdə – Rusiyada, başqa-başqa ölkələrdə yaşayan insanlar tərəfindən məktublar gəlmiş olsun. İndiyədək Aşıq Şəmşirin yubileyləri yüksək səviyyədə qeyd olunub. Heç şübhəsiz, 120 illik yubileyi də layiqincə qeyd olunacaq. Ancaq öncə mənim sizdən bir xahişim var: bu il mənim Qurban bababım 150 illik yubiley ilidir. Haqqında deyilənlərdən və şeirlərindən ibarət kitab hazırlamışam. Yeri gəlmişkən, bu kitabın hazırlanmasında göstərdiyi köməyə görə Sədnik Paşayevə çox sağ ol deyirəm. Və bu yubileyin keçirilməsində Aşıqlar Birliyi olaraq kömək göstərməyinizi xahiş edirəm.

– ***Son illərdə bu sənətin inkişafı naminə bir sıra uğurlu addımlar atılmaqdadır. Bu sənətə dövlət səviyyəsində də qayğı və diqqət böyükdür. Ustad aşıqlarımızın yubileyləri qeyd olunur, onların kitabları nəşr olunur. Aşıqlarımızın səsi tez-tez müxtəlif beynəlxalq festivallardan gəlir. 2010-cu ildə Bakıda I Beynəlxalq Aşıq Festivalı keçirildi. Bu ilin payızında II festivalın keçirilməsi üçün hazırlıq görülür. Bununla belə, Qənbər müəllimin fikirlərini bilmək bizim üçün maraqlıdır: həm ölkə daxilində, həm də xaricdə bu sənəti daha yaxşı təbliğ etmək üçün başqa hansı işlər görülməlidir***?

– Bu gün dövlət sağ olsun ki, bu sənətə qayğı göstərir. Biz əvvəllər öz sözümüzü deyə bilmirdik. İndi hər kəs sənət haqqında, sənətkar haqqında öz sözünü demək iqtidarındadır və dövlət də buna qiymət verir. Yəni, bu sənəti kim sevirsə, ona ürək yandırırsa, söz deməyi bacarırsa, bu özü böyük məsələdir. Bu, genişlənməkdir, bu, şəraitdir, şərait artdıqca sənətə hörmət də artır. Sənət qiymətləndirildikcə isə onun nüfuzu da çoxalır. Yəni, festivalların, simpoziumların keçirilməsi, aşıq sənətinin qiymətləndirilməsi, dövlətin qayğısı buna imkan verir ki, xalq öz sənətini daha da cilalasın. Bu gün gözəl oxuyan, saza-sözə həvəsi olan cavanlarımız, gözəl aşıqlarımız üçün Mədəniyyət və İncəsənət Universitetində aşıq şöbəsi açılıb. Bu, çox gözəldir. Aşıq sənətinə qiymət verən bütün insanlarımız var olsun! Bu sənətin inkişafı üçün kimin gücü nəyə çatırsa, gərək gücünü, əməyini əsirgəməsin bu sənətdən. Bu sənətin sahibi biziksə, biz ona yiyə durmalıyıq, onu yaşatmalıyıq. Xalq bu sənəti yaşatmasa, ona laqeyd yanaşsa, kim gəlib bizim əvəzimizdən bunu edəcək.

- Maraqlı müsahibəyə görə təşəkkür edirik.

Müsahibəni apardı:
Musa Nəbioğlu

Qənbər ŞƏMŞİROĞLU

OLSUN

Yol verin, dağlara gedim yenə də,
Xınalı kəkliklər sirdaşım olsun!
Elə tüğyan edib artsın fərəhim,
Sevincdən süzülən gözyaşım olsun.

Çayların səsindən kefim durulsun,
Minib səyirtdiyim köhlən yorulsun,
Bulaqlar üstündə məclis qurulsun,
Ətrafımda dostum, qardaşım olsun.

İgidlər düzülsün dörd bir yanıma,
Vətən məhəbbəti hopsun canıma.
Ələsgər[1] qeyrəti gəlsin qanıma,
Düşmənlərlə qanlı savaşım olsun.

Qənbərəm, qoymayın hicranda qalım,
Dərdi bilənlərin qurbanı olum.
Ömürlük Dədənin yurdunda qalım,
Sıldırım qayalar başdaşım olsun!

QALDI

Mənədn bənövşəni soraqlayanlar,
Bənövşə kolların dibində qaldı.
Turşsu dərəsində, Sarı güneydə,
Elə öz kefində, dəbində qaldı.

Heyif ki, bu gülün ömrü çox gödək,
Niyə çox sevilir, söyləsin görək?
Mənim gəncliyimin nişanəsi tək
Pencəyimin qoltuq cibində qaldı.

[1] Ələsgər - qardaşımdır

Gəlin sözümüzü doğru söyləyək,
Belə gözəl olmaz göylərdə mələk.
Onu mədh eyləmək, tərif eyləmək
Qənbərin ləfzində, təbində qaldı.

OD QALANMASA

Atalar sözüdür, əzəl deyilib:
Tüstü çıxmaz, əgər od qalanmasa.
Sözün də dəyəri, kəsəri olmaz,
Kamil bir beyində cilalanmasa.

Qanadı olmasa quşlar uçarmı?
Qar, yağış gəlməsə çaylar daşarmı?
Gül-çiçək açarmı, ətir saçarmı?
Bəhrə verə bilməz bağ sulanmasa.

Kəsər ola bilməz sapsız dəhrədə,
Kiriş yoxsa, düyçə qalar cəhrədə.
Həftələrlə saxlansa da nehrədə,
Qatıqdan yağ çıxmaz çalxalanmasa.

Nanəcib nə xeyrə, nə şərə gəlməz,
Bircə yaxşı işə sevinib gülməz.
Naqis əməlindən əl çəkə bilməz,
Ağzı yaxşı-yaxşı ovxalanmasa.

Yazda gül-çiçəyə bələnər dağlar,
Qışda hər tərəfi alar dümağ qar.
Dəryanı oyadar gur fırtınalar,
Dəniz dəniz olmaz dalğalanmasa.

BƏSİMDİ

Mənim yoxluğuma gözyaşı tökmə,
Təkcə yaddaşında saxla, bəsimdi.
Əgər çox uzaqda dəfn eləsələr,
Hərdən məzarımı yoxla, bəsimdi.

Ruhum şadlanacaq nə zaman gəlsən,
Ayaq səslərindən biləcəm sənsən.
Qəbrimin üstündə bənövşə görsən,
Üzüb bircəsini qoxla, bəsimdi.

Gəl eşit Qənbərin bu təklifini,
Sındırma özünü, pozma kefini,
Başdaşım üstündə olan şəklimi
Bağrlna bas, ya qucaqla, bəsimdi.

BELƏ

Səhər-səhər yenə duydum ətrini,
De, hardasan, can bənövşəm, can belə!
Qışda axı, ətir saçmır bənövşə,
Bu ətri göndərdin sən haçan belə?!

Mənim üçün möcüzəsən, əzizsən,
Çiçəkli dağ, dalğalanan dənizsən.
Nədən qaçıb kol dibində bitirsən,
Niyə xəlq olmusan mehriban belə?!

Sən kimdən acizsən, sən kimdən əskik,
Özün öyrətmisən boynunu bükük.
Eşit birdəfəlik, bil birdəfəlik:
Şəninə yazacam yüz dastan belə!

Aşıq yaradıcılığından incələmələr

Sədnik Paşa PİRSULTANLI
filologiya elmləri doktoru,
professor

AŞIQ NABATIN HƏYATI VƏ YARADICILIĞI

Aşıq Nabat (Nabat Paşa qızı Cavadova) 1914-cü ildə Şərur rayonunun Parçı kəndində yoxsul kəndli ailəsində anadan olmuşdur.

Nabat ata-anasını lap uşaqlıq çağlarında itirmişdir. Onun uca boyu, qızılgül kimi yanağı, hələ üstəlik məlahətli səsi çoxlarının diqqətini özünə cəlb edirdi. Nabatı öz kəndlərində sevənlər çox idi. Lakin onun meyli gənc bir oğlanda idi. Polis dəstəsinin başçısı həmin oğlan Nabatı götürüb qaçaraq Dərələyəz ellərinə aparır. Bu oğlan o qədər yaraşıqlı, xoşxasiyyət idi ki, Nabatın öz taleyindən şikayət etməyə haqqı yox idi.

Lakin, bu xoşbəxtliyin ömrü az oldu. Polis rəisi olan gənc oğlanı qaçaqlar gecə hücum edib öldürdülər. Həmin hadisəni Nabat bir qoşmasında belə xatırlayır:

Bilirsənmi, ay Ələyəz dağları,
Gəncliyimi səndə qoyub gəlmişəm.
Əllərim xınalı, gözlərim yaşlı,
İlk eşqimi səndə qoyub gəlmişəm.

Aşıq Nabat doğma elindən, obasından, Əyricə dağından, doğma Parçı kəndindən ayrılmasının səbəblərini başqa bir qoşmasında poetik bir dillə belə mənalandırır:

Nabat, yazda gəldim düşdüm qışa mən,

Qürbət eldə döndüm qərib quşa mən.
Qoymadılar gəzəm yarla qoşa mən,
Mən sizdən ayrıldım, sizdən xəbərsiz.

Qohum-əqrabası onun toylara getməsinə imkan vermədiyindən Aşıq Nabat məcburiyyət qarşısında qalıb 1934-cü ildə müğənnilər və bəstəkarlar diyarı Qarabağa köçür. O, bir müddət görkəmli müğənnilərimizdən Xan Şuşinski, Seyid Şuşinski, Zülfü Adıgözəlov və tarzən Qurban Pirimovla bir yerdə müğənnilik edir, Qarabağa ürəkdən vurulur və ömürlük bu torpağın sakini olur.

Lakin Nabat müğənnilik yolunu çox tez dəyişir, yavaş-yavaş saza meyil göstərir və aşıqlığı özünə peşə seçir. O, üç il Aşıq Ələsgərin qardaşı oğlu Aşıq Musaya şagird olur. Aşıq Musadan 20 saz havası, "Alı xan və Pəri xanım", "Abbas və Gülgəz", "Lətif şah", "Aşıq Qərib", "Leyli və Məcnun" dastanlarını öyrəndikdən sonra müstəqil aşıqlığa başlayır. Qarabağda ad-san qazanmış istedadlı sənətkar 1938-ci ildə aşıqların ikinci qurultayında iştirak edir, ustad bir aşıq kimi tanınmağa başlayır.

1940-cı ilin may ayında Moskvada keçirilən ongünlükdə iştirak edən Azərbaycanın ədəbiyyat və incəsənət xadimləri arasında Aşıq Əsəd Rzayev, Aşıq Teymur Hüseynov və Aşıq Nabat Cavadova da var idi.

Aşıq Nabat o günü xatırlayaraq hələ o zamanlar səfərlə bağlı öz təəssüratlarını belə bölüşmüşdür:

"Şair Səməd Vurğun yanımıza gəldi, repertuarımızla maraqlandı. Sonra mənə üçbəndlik bir qoşma yazıb verdi və dedi: – Aşıq Nabat, bax, xoşuna gəlsə, bu "Danışaq" qoşmasını Moskvada, Kremlin səhnəsində oxuyarsan!.."

Nabat şair Səməd Vurğunun yazdığı "Danışaq" rədifli qoşmasını "İrəvan çüxuru" havası üstündə oxuyur. Onun bu ifası Səməd Vurğuna da, başqa dinləyicilərə də xoş təsir bağışlayır. Onda Nabat gənc idi, 26 yaşına yenicə keçmişdi.

Səməd Vurğunun sözlərindən, xalqın alqışlarından güc alan Aşıq Nabat özü də "Danışaq" rədifli qoşma yazır:

Əziz şair, sən qələmlə, mən sazla,
Bu şad gündən, xoş bahardan danışaq!
Min gül açıb Azərbaycan torpağı,
Tükənməyən arzulardan danışaq.

Gözəllikdə qənirsizdi bu diyar,
Sərvəti var, neməti var, varı var.
Yurdumuzda əbədidi xoş bahar,

Aradakı düz ilqardan danışaq.

Gəz dağları, Muğana gəl, Milə gəl!
Telli sazım, bəmdə durma, zilə gəl.
Nabat deyər: könül, sən də dilə gəl,
Bu xoş gündə dostdan, yardan danışaq.

Aşıq Nabatın xalq şairi Səməd Vurğunla görüşü, onun şeirini oxuması, "Danışaq" qoşmasına cavab yazması ictimai aləmdə onun daha geniş tanınmasına və şöhrət qazanmasına möhkəm zəmin oldu.

Nabatın poeziyası, "Aşıq Nabat və Musa" dastanı, bütövlükdə, Aşıq Nabatın ədəbi irsiylə tanış olduqdan sonra belə qərara gəlirsən ki, onun yaradıcılığı xüsusi tədqiqata möhtacdır.

Aşıq Nabat, ömrü boyu Səməd Vurğunun xeyirxahlığını, humanistliyini, insana olan böyük qayğısını unutmamış, ona çox sayda qoşma və gəraylılar həsr etmişdir. Səməd Vurğun dünyasını dəyişəndən sonra Aşıq Nabatın yazdığı "Cahanda qaldı" qoşması onun ürək qanı ilə yoğrulmuşdur:

Vurğun getdi, bir də geri qayıtmaz,
Sözləri yadigar cahanda qaldı.
Çöllərində turac, bir də qırqovul,
Alagöz ceyranlar Muğanda qaldı.

Böyük şairimiz Səməd Vurğunun dili ilə desək, ictimai həyatda özünə mövqe qazanan, sənətinin inkişafı uğrunda mübarizə aparan, öz istedadına güvənən Nabat çox irəli getmişdir.

Aşıq Nabatın folklor arxivimizdə saxlanılan onlarla qoşma və gəraylısı, iyirmidən artıq özünəməxsus bayatısı, Aşıq Cəvahirlə, Cavan Teymurla, Aşıq Məsimlə deyişmələri bir yazıya sığışa bilməz. Bizim dilə gətirdiyimiz nümunələr, örnəklər olsa-olsa Aşıq Nabat yaradıcılığı ilə tanış olmağa azacıq imkan yarada bilər. Bu mənada, Nabatın aşıqlığı ilə yanaşı, şairlik qüdrətini göstərmək üçün bir neçə qoşmasından nümunə vermək yerinə düşər. Mən deyərdim ki, "Bənövşəsi" rədifli qoşma Aşıq Nabat poeziyasında möcüzədir, əvəzsiz bir sənət incisidir:

Diri dağlarının gülü, çiçəyi,
Gəlib Kür üstünə Mor bənövşəsi.
Deyirlər siftəsin Qurbani dərib,
Əmrahın bağında var bənövşəsi.

Məlumdur ki, XVI əsrin böyük sənətkar olan Dirili Qurbani yaz-yay aylarında Diri dağlarına gəlir, hamıdan əvvəl yaz bənövşəsini dərir və bənövşə haqqında elə bir şeir yaradır ki, bu gün Qurbani dedikdə bənövşə, bənövşə dedikdə Qurbani yada düşür.

"Gülüstana gəl" qoşmasının özü tarixdən xəbər verir. Yurdun toponimlərini misralarında nəqş etdirir:

Murovun döşündən Qazandurmaza,
O yerlərdən enib, Gülüstana gəl!
Uğurla keçəsən İncə çayını,
O Küsmüş körpüdən Gülüstana gəl.

Gədəbəyin məşhur Şahdağını, Göyyurd yaylağını dilə gətirən Nabat yurdumuzun gözəlliklərini təsvir və tərənnüm etməkdən doymur:

Haki Şahbağının seyrinə vardım,
Əlvan güllərini dərdim, nə dərdim.
Səfalı Göyyurdu gəzdim, dolandım,
Cənnəti də gördüm, daha nə dərdim.

Nabat simaca, boy-buxun etibarı ilə, hüsnünə görə qənirsiz gözəl idi. Başqalarının tərifləməsi bir yana, Aşıq Nabat öz gözəlliyini dönə-dönə iftixarla təsvir və tərənnüm etmişdir. Bu şeirlərində təkcə özünün gözəlliyini deyil, sənətinin də ona yaraşdığını, avazının gözəl, səsinin zil olduğunu dönə-dönə qeyd edir. "Yaraşır" qoşması Nabatın özü və sənəti haqqında tam təsəvvür yaradır:

Mənim gözəlliyim tanrı payıdır,
Atlas tapılmasa, bez də yaraşır.
Tarzəni çağır, ay müğənni qız,
Mənə sədəfsiz saz da yaraşır.

Aşıq İslam Yusifov və Aşıq Nabat

Aşıq Nabat öz gözəlliyi ilə, sənəti ilə, məlahətli səsi ilə öyündüyü kimi, başqa sənətkarlar da onun cazibədar görkəmini, ecazkar poeziyasını böyük vurğunluqla tərif etmişlər. Şəmkirli Aşıq Məsim ona neçə-neçə şeir ithaf etmiş, onun gözəlliyini vəsf etmişdir:

Çıxa qənşərinə bir bahar çağı,
Bir dünyadı gözəlliyi Nabatın.
Qızılgül yanağı, ağdı buxağı,
Bir dünyadı gözəlliyi Nabatın.

Nabat öz gözəlliyindən bəhs edərkən təkcə özünün xarici görkəmindən deyil, zəngin mənəvi dünyasından, sənətinin qüdrətindən fəxrlə danışır.

Onun gəraylıları daha çox təbiət gözəlliklərinə həsr olunmuşdur. Bunlardan biri, Gədəbəyə – Qızıltorpağa həsr olunmuş "Dağlar" şeirində deyir:

Arı çiçəklərdən alıb,
Dərdə dərman balın, dağlar.
Qüdrətdən gözəl çəkilib,
Üzündəki xalın, dağlar.

Göy daşların xınalıdı,
Qayaların cunalıdı,
Ağ göllərin sonalıdı,
Nə xoşdu əhvalın, dağlar.

Dərim gülün yarpaq-yarpaq,
Yada düşdü Qızıltorpaq.
Bu Nabatı çağır qonaq,
Yasamaldı yolun dağlar.

Nabatın yaradıcılığında Aşıq Bəstidə olduğu kimi, elə şeir nümunələrinə rast gəlirik ki, öz tipinə görə hansı şeir növünə daxil olduğunu müəyyənləşdirmək çətin olur. Lakin istər Bəstinin, istərsə də Aşıq Nabatın qeyri-adi görünən bu səpkili şeirləri deyim tərzinə görə çox oynaq və ürəyəyatımlıdır. Bu səpkili şeirlərdən bir nümunə:

Bilmirəm nəyə bənzədim,
Qəşəngsən, qəşəngsən gözəl.
Oxşadıram, seçəmmirəm,
Sən hansı çiçəksən, gözəl.
Yanaqların dağ laləsi,
Qıvrım saçlar qərənfildir.
Ceyran müşkün ondan alıb.
Gözlərin axan bulaq,
Dörd bir yanı dağ nanəsi,
Daşları boyunbağı,
Hər birin bir qızdan alıb.
Bulaqlar öz zümzüməsin,
Mən deyirəm sazdan alıb.
İnciyər Şeh dərənlər,
Deyər ki, Moy çiçəyim,
Ətrini bizdən alıb.
Boynubükük bənövşələr,
Ətrini yazdan alıb.

"Könül" adlı qoşması onun əhval-ruhiyyəsinin tez-tez dəyişməsini, onun psixologiyasına təsir etməsini dolğun şəkildə dilə gətirir. Məncə, qoşmanın bir bəndini verməklə kifayətlənmək olar:

Gahdan seyrə çıxıb dağlar başına,
Şərbət sularından içirsən, könül.
Gahdan da cumursan qəm dəryasına,
Bu şirin dünyamdan keçirsən, könül.

Aşıq Nabat Azərbaycan aşıqlarının
III Qurultayında çıxış edərkən (1961-ci il)

Aşıq Nabatın həyat və cəmiyyət haqqında, bütövlükdə dünya haqqında fəlsəfi düşüncələri, məlumatları, dərrakəsi və qavramı onun deyişmələrində özünü daha çox büruzə verir. Aşıq Cavan Teymurla, Gədəbəyli Aşıq Cəvahirlə deyişmələrindən aydın olur ki, Aşıq Nabat eli-elatı, toy məclislərini keçirdikcə, sənətə bələd olduqca nə qədər irəliyə doğru gedir, həyat hadisələrini öyrənməyə can atır və biliyini durmadan artırır. O, təkcə Daşkəsənli Cavan Teymurla, Gədəbəyli Aşıq Cəvahirlə deyişməmiş, çox sənətkarlarla qabaq-qabağa gəlmiş və onlara özünün ağıl və kamalı ilə sərrast cavablar vermişdir. Biz burada başqa şeirləri kimi, onun iki deyişməsindən nümunələr veririk. Birinci deyişməsi Cavan Teymurla Xoşbulaq yaylağında olan deyişməsidir.

Nabat: *Eşit sözlərimi, ay Cavan Teymur,*
Necə keçdi rüzgarı Qəribin.
Yeddi ilin ayrılığı çətindi,
Bir yaradan, səbəbkarı Qəribin.

Teymur: *Şahsənəm Tiflisdə, Qərib Şamda,*
O qürbət ellərdə, qərib axşamda,
Dayanmaz, yox olar, əriyər şam da,
Dünya boyda intizarı Qəribin.

Aşıq Nabatın Cəvahirlə deyişməsi də maraqlıdır:

Nabat: *Gecə-gündüz dağlarını öyürsən,*
Nuhçıxandı, Naxçıvandı dağlarım.
Nuhun gəmisini tutub saxladı,
Yerdi, göydü, asimandı dağlarım.

Cəvahir: *Gədəbəyə Qızıltorpaq deyərlər,*
Dünya boyda bir cahandı dağlarım.
Qalakənd, Qızqala, Şəmkir boyunca,
Gəmi üzüb, xoşnişandı dağlarım.

Aşıq Nabatın bayatıları da ayrıca tədqiqata möhtacdır. Onun bütün bayatıları başına gələn hadisələrlə, macəralarla bağlı şəkildə bədahətən birdən-birə yaranmışdır. Məsələn, Nabatı polis oğlan götürüb qaçan zaman onun səhəngi, parçı kənd bulağının üstündə qalır. O, öz bayatısında, doğma kəndi Parçını, səhəngini, su içilən parçının adlarını misralarında düzümləndirir:

Nabat deyər: Parçıdı,
Kəndimiz Parçıdı.
Məndən əmanət qalan,
Bulaq, səhəng, parçıdı.

Nabatın doğma kəndi "Qız qala"nın, "Oğlan qala"nın yanındadır. O, yurdundan ayrılarkən ilk növbədə öz doğma qalalarını – "Oğlan qala" və "Qız qala"nı xatırlayır:

"Oğlan qala", "Qız qala",
Ay ürəyi buz qala.
Nabat yada düşəndə,
Bircə məktub yaz, qala.

Onu götürüb qaçan oğlan Dərələyəzdə qaçaqlar tərəfindən öldürüldükdə Nabat bədahətən aşağıdakı bayatını dilə gətirir:

Əzizinəm, qız qala,
Nə çoxdu Qızqala.
Nabat, insafdan deyil,
Oğlan ölə, qız qala.

Həmin bayatıdan sonra Arpaçayla bağlı hadisələri bir-bir gözü önünə gətirir, onlarla bağlı bayatılar düzüb qoşur:

Əzizinəm, doymaram,
Səni gözdən qoymaram.
Dərya, dəniz bir yana,
Arpaçaydan doymaram.

Nabat öz ulusunun, elinin dağını, çayını, bir sözlə, toponimlərini bayatılarında əbədiləşdirir və onları bir-bir yadına salır, özünün həsrətini, intizarını, qəmli duyğularını bayatı inciləri vasitəsilə ifadə edir. Aşağıdakı bayatı da bu qəbildəndir:

Arpaçay sular başı,
Qızıldı torpaq-daşı,
Qurumaz bir çay olub,
Hey axır gözüm yaşı.

Bizə bəlli olan bayatıları öz əhval-ruhiyyəsinə uyğun olaraq elə deyir ki, bizdə təzə bir ovqat yaradır. Öz elini-obasını görmək üçün Vətən sularında axmaq, dağlar boy versə, onlara doyunca baxmaq istəyir:

Əzizinəm, baxım dağlar,
Suyunda axım, dağlar.
Nə ola boy verəsən,
Elimə baxım, dağlar.

Aşıq NABAT

CAHANDA QALDI

Vurğun getdi, bir də geri qayıtmaz,
Sözləri yadigar cahanda qaldı.
Çöllərində turac, bir də qırqovul,
Alagöz ceyranlar Muğanda qaldı.

Ellər doymadı onun səsindən,
Pətək, bal süzülür hər kəlməsindən.
Şəmşirin sazının ah-naləsindən,
Dəlidağın başı dumanda qaldı.

Nabat, Vurğundaydı dünyanın gözü,
O yana, bu yana gəl çəkmə bizi,
Xəzərə bərabər ləl-mərcan sözü,
Dənizlərdən böyük ümmanda qaldı.

BƏNÖVŞƏSİ

Diri dağlarının gülü, çiçəyi,
Gəlib Kür üstünə Mor bənövşəsi.
Deyirlər siftəsin Qurbani dərib,
Əmrahın bağında var bənövşəsi.

Aman, aman ay Ələyəz dağları,
Sən çəkmisən bu sinəmə dağları.
Harda qoyub gəldim göy yaylaqları,
Gəzir xəyalımda nur bənövşəsi.

Nabat, qəm-möhnətdə ciyərim oydum,
Bənövşəmi nə qoxladım, nə doydum.
Bir yaylığa büküb, qoynuma qoydum,
Solmaz bir gül oldu yar bənövşəsi.

YARAŞIR

Mənim gözəlliyim tanrı payıdır,
Atlas tapılmasa, bez də yaraşır.
Tarizəni çağır ay müğənni qız,
Mənə sədəfsiz saz da yaraşır.

Məclislərdə muğam-muğam deyirsən,
Məni görüb, döşünə də döyürsən.
Xandan dərs aldığım hələ bilmirsən,
Sənətkara qış da, yaz da yaraşır.

Nabat zilə qalxar, onda çaşarsan,
İnanmıram bir də əsib-coşarsan.
Bizim uşaqlartək söz də qoşarsan,
Yaxşı gözələ söz də yaraşır.

QORXMAMIŞAM MƏN

Aşıqlar diyarı, bizim Tovuzda
Əsədlə, Mirzəylə oxumuşam mən.
Səhnəyə çıxmışam Ərəbzəngitək,
Meydanda qamaşıb, qorxmamışam mən.

Aşıqlar içində, el aşığıyam,
Muğam məclisinin yaraşığıyam.
Bu sənətin üzüyünün qaşıyam,
Meydanda qamaşıb, qorxmamışam mən.

Birisi “Koroğlu cəngisi” çaldı,
Heyif ki, arzusu gözündə qaldı.
Nabatın zil səsi meydanı aldı,
Meydanda qamaşıb, qorxmamışam mən.

Vəliyəddin İSMAYILOV
yazıçı-publisist

TARİXLƏŞƏN SƏNƏTKAR, DƏDƏLƏŞƏN OZAN

Çətin ki sağalım, çoxdu azarım,
Matahım dürr matah, yoxdu bazarım.
Düşə, ya düşməyə bir də güzarım,
Səfərdir, salamat qalasan, dağlar.

Ağdabanlı Qurban

Dağlardan ümidini üzməmişdi Dədə Şəmşir. Bir də bu dağlara güzarı düşməyəcəyini ağlına belə gətirməzdi.

Atası Qurbanın şeirlərində oxumuşdu bu misraları. Ağdabanlı Qurban Zəngəzurun hissə-hissə boşaldığını görüb deyirmiş ki, matahım çox olsa da, artıq bazarım tükənib, mayasını dağlardan, bu firavan diyardan alan təbim azalır, ömür də qüruba doğru gedir, təkrar güzarıma ümidim yoxdur, onun üçün səfər edirəm. Onsuz da bir daha qayıtmayacaq müsafirəm bu dünyada...

Amma Dədə Şəmşir dağlara "salamat qal" demədi... Dağlarla sağollaşmadı... Dağların torpağına, daşına döndü, dağlara qarışdı, dağlarda zirvələşdi, özü də bir dağ oldu. Amma o dağın çəmənində Güllü nənə bitmədi. Güllü nənə dağda açılıb, aranda soldu, rayihəsi oğlu Ələsgərin qəbrinə çökdü...

Çox heyf ki, azman bir sənətkarın qəbri də dağlarda kafir gülləsinə tuş gəldi, doğmalarına və əzizlərinə gözdağı oldu...

Bülbülün, Xan qızı Nətavanın heykəli kimi Dədə Şəmşirin də abidəsi güllələndi...

Atasının sağalmaz yarasının dərinliyi ölümündən sonra üzə çıxdı Dədə Şəmşirin... Unudulmaz şairimiz Səməd Vurğunun dili ilə desək, o da tarixləşən "bir saxsı qırığına, daş parçasına" döndü. Hansı ki, bu saxsı parçaların üzərində Azərbaycanın tarixi, mədəniyyəti, incəsənəti, ədəbiyyatı yazılmış nişanələri tarixdən-tarixə keçərək yazılacaq. Gələcək nəsillər isə deyəcək: "Ay gidi dünya, oxu bu xalqın keçmişini, öyrən bunun aşığını, şairini, ədəbiyyatını, dilini..."

Ulu Yaradanın hökmü böyükdür. Onun nicat verdiyi, lütf əta etdiyi bəndəsini heç kəs və heç vaxt milyonların ürəyindən silə bilməz...

Tanrının əziz bildiyi bəndələrindən biri də unudulmaz sənətkarımız, Azərbaycanın "Qala qapısı" sayılan Kəlbəcərin Dəmirçidam kəndində dünyaya göz açmış, Ağdaban kəndində yazıb-yaratmış Aşıq Şəmşirdir... Keçmişdə izi qalan, bu günə xəzinə, sabaha ümid və ruh verən şair – Dədə Şəmşir...

Bugünün yanan, alovlanan şairi deyildi Dədə Şəmşir. O, dahi Ələsgərin, Qurban ocağının qoru üstündə közərib alovlanmışdı. O, qoru üfürmədi, sadəcə olaraq sərin-sərin püflədi... Gör o qordan nə boyda alov püskürdü, şölələndi. O qorun altında nələr varmış, İlahi! Yəqin ki, gələcəkdə də o ocağı üfürüb alovlandıran, vulkana çevirən yetişəcək... "Su gələn arxa bir də gələr", – deyib atalar...

Bənzərsiz səsi, şirin ləfzi, oynaq barmaqları və ilahi bir təbi olan aşıq idi Dədə Şəmşir...

Yüksək məclis mədəniyyəti, xoş rəftarı onun əsas məziyyəti idi. Məclislərdə Aşıq Şəmşirin davranışında bir həya, ədəb-ərkan vardı. Elə bil, qız-gəlindən utanardı. Onun baxışında, məclis əhlini süzməsində saxta bir şey yox idi. Qız-gəlin hamısı onun üçün ana-bacı idi. Heç vaxt çılpaq misra oxumazdı. O, ədəb-ərkanlı, pür-kamallı aşıq idi. Oturuşunu-duruşunu yaxşı bilirdi. Elə bil ki, Aşıq Ələsgərin tarixi bir qoşması onun boyuna biçilmişdi:

Aşıq olub diyar-diyar gəzənin,
Əzəl başdan pür-kamalı gərəkdir.
Oturub duranda ədəbin bilə,
Mərifət elmindən halı gərəkdir.

Adətdir, həmişə aşıq, şair gözəllik vurğunu olub, ondan yazıb-yaradıb, oxuyub. Amma Aşıq Şəmşir gözəllikdən, gözəldən yazdığını da həyalı yazıb, umduğunu da həyalı deyib:

Alma yanağından busə almağın,
Qiyməti nə qədər edər, gözəlim?
Sail boş qayıtsa hansı qapıdan,
Qarğıya-qarğıya gedər, gözəlim.

Aşıq Şəmşirin məclislərdə oxuduğu qəhrəmanlıq havaları – "Cəngi Koroğlu", "Qəhrəmanı", "Misri" hamını riqqətə gətirərdi. Uşaq vaxtı məclisdən çölə çıxıb "qılınc-qılınc" oynadardıq, güləşərdik, həmərsin (it-burnu) çubuğundan, əvəlik şaxından at düzəldib çapışardıq, ötüşərdik, dalda qalana gülüşərdik... Bax, bu idi o vaxtkı gəncliyin dadı, ləzzəti, vətənpərvərliyə yürüşü, qəhrəmanlığa, igidliyə hazırlığı. Milli musiqi, aşıq havaları, bayatılar, xalq deyimləri, laylalar bizim qanımızı coşdurardı o vaxtlar...

Beşikdə (yüyrükdə) analarım dediyi bayatılar, laylalar, oxşamalar, danışdıqları nağıllar bizə çağırış idi, həyata hazırlayırdı, bərkidirdi, vətənə oğul yetişdirirdi.

Dədə Şəmşir haqqında bu xatirəni yazanda yadıma onun nəsihətamiz şeirləri düşdü. Dədə ocağının davamçısı, şair-publisist Qənbər Qurbanovun toplayıb çap etdirdiyi "Öyüdlər" kitabındakı şeirləri xatırladım:

Sığal nə lazımdı daha qaş-gözə,
Bəzək-düzək uylaşarmı bu yaşa?!
Namusu, qeyrəti düşməyən başa,
Bilməz ismətini, hələ çətindi.

Aşıq Şəmşir ocağına bu qədər yaxından bələd olmağım heç də təsadüfi deyil. Bunun tarixi bir bağlılığı var. Atam Misir və əmim Məhərrəm uzun müddət onların kəndində – Ağdaban kolxozunda kolxoz sədri və kənd sovetinin sədri işləyiblər, bu camaatla qaynayıb-qarışıblar.

O zamanlar Aşıq Şəmşir də kolxoz partiya təşkilatının katibi vəzifəsində çalışıb, birgə fəaliyyət göstərib camaatı müharibənin dəhşətli qıtlığından, aclığından xilas ediblər (Arxivlərdə saxladığım sənədlərdə bu, öz əksini tapıb). Həm də Bərdə rayonunun Boyəhmədli kəndindən olan Nadir dayımla və onun dostu Murad bəylə Dədə Şəmşir dost olublar. Aşıq Şəmşirin həmişə Qamışlı Aşıq Gərayla, Aşıq Aşırla, Ağdabanlı Aşıq İmranla onların evində qonaq olub məclis keçirtdikləri yadımdadır.

Bu onu göstərir ki, Aşıq Şəmşir təkcə öz elində-obasında deyil, aranlı-dağlı, cənublu-şimallı Azərbaycanın bütün bölgələrində, hətta

Dağıstanda, Borçalıda, Tiflisdə, İrəvan mahalında, ulu Göyçədə tanınan, məşhur olan aşıq-şairdir.

Onun göyçəli Aşıq Pənahla söylədiyi dastanlar, Səməd Vurğunla olan görüşləri, deyişmələri, şeirlərinə bəstələnmiş mahnılar nəinki respublikamızda, eləcə də Cənubi Azərbaycanda, Orta Asiya respublikalarında, əksər türkdilli ölkələrdə məşhurdur.

Yadımdadır, altı-yeddi yaşım olardı. Ağdabanın Turşsuyunun üstündə Nadir dayım bir qonaqlıq təşkil etmiş, oraya Aşıq Şəmşiri də dəvət eləmişdi. Bütün gecəni tonqal qırağında oturub aşığa qulaq asdıq.

Dədə Şəmşirin zil səslə gecənin qaranlığında şikəstə oxumağı indi də qulağımda səslənir. Alov dilim-dilim olub göyə qalxdıqca aşığın səsi də gecənin qaranlığına qovuşaraq pərdə-pərdə yaşıl yarpaqların pıçıltısına qarışıb ərşə çəkilirdi.

Bəlkə də yaşıl budaqların üstündə gecələyən quşlar aşığın səsini dinlədikcə öz nəğmələrini bu səsə qoşmaq üçün dan üzünün açılmasını səbirsizliklər gözləyirdi. Mən də başımı Qədir əmimim dizinin üstünə qoyaraq alovun işığında Nəsir qağamın və Mustafa dayımın üzünə maddım-maddım baxırdım. Çünki onların hər ikisi saz çalmağı Ağdabanda öyrənmişdi və aşıq havalarını Dədə Şəmşirin barmaqlarında pərdə-pərdə izləyirdi. Simalarından görünürdü ki, hətta ürəklərində oxuyurlar.

Bəlkə də həmin gecənin hissləriydi ki, məndə də saza vurğunluq yaranmışdı və hazırda da həvəskar sazçalanam.

Haşiyə: Mən Bakı Ali Partiya Məktəbində oxuyurdum və 1976-cı ilin may ayında Mərkəzi Komitənin xətti ilə unudulmaz şairimiz Səməd Vurğunun anadan olmasının 70 illik yubileyi qeyd edilirdi.

Yubileydə şairin oğlu Yusif Səmədoğlu da iştirak edirdi. Rəsmi hissədən sonra toplantı Ali Partiya Məktəbinin özfəaliyyət kollektivinin iştirakı ilə davam edirdi. Bədii hissəni əvvəldən-axıradək sazla mən müşayiət edirdim. Böyük ekranda Səməd Vurğunu göstərirdilər. O, öz səsiylə şeir deyirdi. Mən isə arxa pərdədə şeiri sazla müşayiət edirdim. Hiss edirdim ki, rektorumuz, mərhum akademik Tofiq Köçərli ilə yanaşı oturmuş Yusif Səmədoğlunun diqqəti məndədir və tez-tez əyilib Tofiq müəllimdən nə isə soruşur (Allah hər ikisinə qəni-qəni rəhmət eləsin!).

Şeirdən sonra ekranda dağ mənzərəsi göstərirdilər. Hündür qayanın üstündən qartal uçur, Səməd Vurğun atın üstündə gəlirdi.

Tələbə yoldaşım, gözəl şeir dili, tələffüzü olan Ulduzə Əhmədova (o, məşhur diktor Davud Əhmədovun bacısıdır) şairin:

Aşıq Şəmşir Dəlidağdan keçəndə,
Yalçın qayalardan xəbər al məni.

Ceyran bulağından qızlar içəndə,
Saz tutub, söz qoşub yada sal məni, –

qoşmasını söyləyirdi.

Birdən Yusif Səmədoğlu ayağa durub dedi:

– Ay qəşəng xanım! O ikinci misranı "Kəklikli daşlardan xəbər al məni" kimi oxu. Çünki o misranı Şəmşir əmi dəyişib, atamın da xoşuna gəlib. O dediyi kimi də saxlayıb, mən bunun şahidiyəm. Çünki "kəklikli daş" xalq dilidir, şeir dilidir, amma "yalçın qaya" coğrafi dildir, elmi dildir.

Sonra da soruşdu ki, bəs Şəmşir əminin cavabını niyə oxumursan?

Qız tutuldu, görünür şeiri bilmirdi.

Mən sazı saxlayıb həmin cavabın axırıncı bəndini dedim:

Şəmşirlə görüşün qaldı yadigar,
Unutmaz nə qədər canında can var.
Səndən dərs almağa diyarbadiyar –
Gəzərəm əlimdə şam-çıraq səni.

Salonda hamı əl çaldı (Mənfur erməni müəllim-tələbələrdən başqa). Bu şeirin arxasınca dedim:

– Siz Aşıq Şəmşirin dahi Səməd Vurğuna verdiyi son qiymətə və dost yanğısıyla ağlamağına baxın...

Dövrün Nizamisi edir əlvida,
Dünyanı təzədən səs tutub ağlar.
Ümidvar etdiyin qocaman aşıq,
Kimin ətəyindən bəs tutub ağlar?!

Yusif Səmədoğlu sözünə davam etdi:

– Görürsünüzmü sözün qüdrətini, misranın gücünü, şairin deyim tərzini? İnsan insanı, dost dostu axtarar, gəzər; bu kənddən o kənddə, bu şəhərdən o şəhərə, lap bu respublikadan o respublikaya... Amma əlində şam-çıraq bu diyardan o diyara öyrənməyə, dərs almağa dost gəzəsən: bu, hər oğula, hər xalqa məxsus deyil. Atama rəhmət, Şəmşir əmiyə cansağlığı. Bu qiymətə görə minnətdaram böyük sənətkara...

Bu xoş sözlər məni çox ruhlandırdı, çox sevindim.

Dedim:

- Hörmətli Yusif müəllim! Səməd Vurğun Şərqdən Qərbə şeirimizin, dilimizin açarıdır. Sadə insandan alimə qədər əzbərlənən, yadda

qalan şairdir. Gözəl şairimiz Hüseyn Kürdoğlu görün necə qiymət verir ulu sənətkara:

Sözün köhlənini min qəlbi dağdan,
Yaxşı söz qurtarar min qəlbi dağdan.
Vurğuna dağlarla yanaşı baxdım,
Onu qəlbi gördüm min qəlbi dağdan.

Hamı əl çaldı. Ansamblın müşayiəti ilə şairin məşhur "Azərbaycan" şeiri xorla oxundu, salonda gurultu qopdu. Ermənilər dözməyib xain dəvə kimi kinli-kinli salonu tərk etdilər. Dodaqaltı mızıldandılar: "Ara, heç Avanes Tumanyandan oxumadılar".

Yekunda Yusif müəllim məni yanına çağırıb görüşdü, əlimi buraxmadı, dedi:

– Tofiq müəllim, bu kəlbəcərli oğlan məni gəncliyimə qaytardı. Yadıma Qazax düşdü, Avey dağı, Damcılı bulaq gözümün önünə gəldi, elə bildim, atam saz çalır, mən də şeir deyirəm. Tez-tez gözümü yumub səhnədən uzaqlaşır, sazın səsini qulaqlarımda saxlayıb atamla söhbət edirdim. Vəliyəddin müəllim! Çox sağ olun, atamın ruhu sizdən razı olsun, mən ayrı söz tapmıram.

Ardınca da cibindən üstündə saat olan diyircəkli yapon qələmi çıxarıb mənə hədiyyə etdi: – Götür, - dedi, - Səməd ocağından sənə yadigar olsun.

...1970-ci ilin yazında Kəlbəcər Rayon Komsomol Komitəsinin birinci katibi işlədiyim vaxt Ağdaban kəndinə gənclərlə görüşə getmişdim. İlk dəfə bizi məktəbin direktoru, təcrübəli pedaqoq, çox yüksək mədəniyyət və elm sahibi olan Əjdər müəllim qarşıladı.

Bu kəndə getmək mənim üçün çox maraqlı idi. Çünki həm Aşıq Şəmşirlə görüşəcəkdim, həm də vaxtilə bu kənddə rəhbər vəzifədə işləmiş atamın gördüyü işləri, tikdirdiyi dam-daşı görüb təsəlli tapacaqdım. Onun ayaq izləri bir yadigar kimi qalırdı. Kənd camaatı bunları çox yaxşı xatırlayır və hamısı atamdan ağızdolusu danışırdı.

Əjdər müəllim dedi:

– Mən kəndin ağsaqqallarını da gənclərlə görüşə dəvət etmişəm.

Dedim, lap yaxşı. Bəs Şəmşir əmi hanı?

– Şəmşir kişi bir az özünü pis hiss edir, – dedi.

Dedim, gedib evdə görüşərik, həm də saza qulaq asarıq.

...Görüşdə kəndin ən yaşlı ağsaqqalı, Aşıq Şəmşirin dayısı oğlu, 135 yaşlı Bayram kişi söz alıb gənclərə nəsihətamiz tövsiyələrini verdi:

– A balalarım, həmişə dövlətə, hökumətə, vətənə sadiq olun, zəhmətə qatlaşın, elmli-bilikli olun. Hökumət hər şeyi qulağı ilə görür, gözü ilə yox. Yəni hər bir adam haqqında mənfi bir şey eşidəndə fikir yaranır. Özünüz haqqında heç vaxt pis fikir yaratmayın.

Bu, çox ibrətamiz bir ağsaqqal məsləhəti idi. Kənddə hamı bayram kişini müdrik söz deyən, dolğun fikir söyləyən, uzaqgörən bir adam kimi tanıyırdı (O, 144 yaşında dünyasını dəyişdi).

Evə getdik, Şəmşir əmi bizi başı çalmalı, yastığa dirsəklənmiş halda, gülər üzlə qarşıladı:

– A bala, Vəliyəddin, Qənbərin canı üçün, Əjdər müəllim bilir, bu zəhrimar zökəm (qrip) məni yaman haxlıyıb, heç tərpənə bilmirəm.

Dedim, Şəmşir əmi, boynuna almırsan ha, şair dostumuz Məmməd Aslan yaman sataşıb sizə...

Gözəllərdən daha gözləmə ümid,
Sevdalı günləri biryolluq unut!
Üşüyürsən göyə gələndə bulud,
Yayın qızmarında köz səni tutur!

– Yox, ay bala, hələ dizim bərkdi, girəvə vermərəm azar-bezara... A Güllü! Sazı bəri yətirin! (Kəlmələri öz tələffüzü ilə, olduğu kimi yazıram). A Bayram kişi, ay dayıoğlu, yadında varmı, həmişə yazın ilk gülçiçəyini Çöplü göldən, Buzluğun boynundan yığardıq, – deyib, – sazı köynəyindən çıxardı. Çaldığı "Səməndəri" havası hələ də qulaqlarımda səslənir...

Dedim:

- Şəmşir əmi, vaxtilə ata-anamın məhəbbətinə həsr etdiyin "Misir və Sənəm" dastanını niyə üzə çıxarmırsan?

Dedi:

– A bala, vallah, onu əski əlifbayla yazmışam, aradan da xeyli vaxt keçib, gərək üzünü köçürtdürəm, yaxşı oxunmur. Deyirlər, o poçtdakı Lütfi bu əlifbanı yaxşı bilir, gərək onu tapam; bəlkə o, rus əlifbasına çevirə, mənim gözüm yaxşı seçmir...

Bayram kişi bığaltdan yavaş-yavaş gülürdü. Birdən dilləndi:

– A Şəmşir, o vaxtlar dedim ki, a Misir, a bala, nə olar kolxoz sədri olanda, gəl bir cöngə kəsək, qonaqlıq verək, Aşıq Şəmşir də bu dastanı bir gecə savağatan söyləsin, qulaq asaq...

Misir Qabiloğlu cavab verdi ki:

– A Bayram əmi, kiri, kiri, bizi işə salma. Kolxozun cöngəsini kəsərik, bizi hökumət tutar, baratasını gizlədə bilmərik. Qoy, bəlkə inəklər qurudanda özümüzkündən birini kəsərik...

– Eh, ay bala, müharibənin elə vaxtıydı ki, hər şey yaddan çıxmışdı, – deyib dərindən köks ötürdü.

Soruşdum ki:

– Şəmşir əmi, axı o dastanın yaranmasına səbəb nə idi? Bu mövzu necə yaranmışdı sizin təxəyyülünüzdə?

Dedi:

– A bala, Misir qağam bütöv adamdı. Dəyərli insandı, yaxşı rəhbər idi. Ağayana xasiyyəti vardı, sözü kişiyana deməyi bacarandı, sözünün üstündə durandı. Sənin anan Sənəm bacım da çox gözəl idi. Bərdə camaatı yaylağa Murov dağına – Meydan çayına gələrdi. Ananı da orda görüb ona vurulub və qanını qaşığa qoyub ki, bu gözəli alacam. Dayın tərəf, qohumları nə qədər güclü olsalar da, atan sözündən dönməyib... Hətta tərəf-tərəf düşüb, bir qohumun əlindən silah açılıb, anana dəyib. O, uzun müddət xəstəxanada yatıb.

Nəhayət, Misir qağam əl çəkməyib, o Qarabağ gözəli Sənəm bacımla evlənib...

Gördünmü, a bala, bu da olub bir dastan. Şəmşir əmin də bunu şair qələminə taxıb eliyib "qızıl boyunbağılı" bir dastan...

Xeyli gülüşdük...

(Bu yaxınlarda Aşıq Şəmşir yaradıcılığının vurğunu və araşdırıcısı olan (söz yox ki, Məmməd Aslanla birlikdə) hörmətli şairimiz Zəlimxan Yaqub televiziyada çıxış edəndə "Misir və Sənəm" dastanının adını çəkdi).

– Hə, bala, həm də mən Rüstəm babanla, Nadir dayınla, Boyəhmədli Qazı kişi ilə, Qara oğlu Göyüşlə, Bığ Calalla, Molla Abdulla ilə əzəldən dost-tanış idik. Onlarla Murovda o qədər at çapıb güllə atmışıq ki... məclis keçirmişəm ki... Hansını görsən, məndən onlara salam söylə. Ölənlərə min rəhmət... Qalanlarla bir də görüşmək ya qismət...

Bir günün görüşü min ilə dəyər,
Dərddi-qəmdi, qiyamətdi ayrılıq.
Cismimə od salır, qəlbimə kədər,
Bir dəhşətdi, kəsalətdi ayrılıq.

deyib, sazda bir yanıqlı el havası çalıb oxudu...

Ayrılanda...

– A bala, Qənbərə də deyəcəm, o dastanın üzünü çıxartdırın, çap elətdirək, – dedi...

Heyif ki, bu girəvəni əldən verdik...

Qənbər müəllimin dediyinə görə, bu dastan da Dədə Şəmşirin külliyyatıyla birlikdə mənfur ermənilər tərəfindən yandırılıb.

Bəlkə gələcəkdə hansısa bir tədqiqatçı tərəfindən bu dastandan sinələrdə qalanlar toplanılıb yenidən bir dastan olacaq. Ömür vəfa etsə, mən də o axtarışçılardan biri olaram...

...1980-cı il fevralın 10-da Dədə Şəmşiri haqq dünyasına yola salırdıq. Rəsmi qaydada dəfn mərasimi keçirilirdi. Mən və Arif Ələsgərov raykomda şöbə müdiri olduğumuz üçün aparat və rayon rəhbərliyi adında əklil götürmüşdük. Mərasimin ön hissəsində gedirdik.

Bir əlimlə rəhmətlik Güllü nənənin əlindən tutmuşdum. Qocalıqdan yox, həsrətdən əlləri tir-tir əsirdi, nəfəsindən elə bil od tökülürdü. Hənirində bir inilti vardı...

– Can, a Şəmşir, can, a Şəmşir, məni tək qoyub hara gedirsən!? Səni ellər ağlayır, sən ellər çiynində gedirsən, bəs məni kim ağlayacaq!?

Dünyanın işinə bax! Dünən nazı-qəmzəsi yerə-göyə sığmayan, qayınatası Aşıq Qurbanın dediyi kimi, "Kəpəzin kəkliyi-maralı" olan, Aşıq Şəmşirin sevgili yarı Güllü xanım bu gün ağsaçlı nənə kimi beli bükülmüş halda 50 ildən çox bir yastığa baş qoyduğu ömür-gün yoldaşı Dədə Şəmşiri son mənzilə yola salırdı.

Bəlkə də ürəyində Dədə Şəmşirin son anlarda ona vəsiyyət və təsəlli kimi dediyi:

Sən uzun ömrünü yaşa, yaxşıdır,
Vəsməni çək qələm qaşa, yaxşıdır.
İz qarın üstündə qoşa yaxşıdır,
Təkcəmi salarsan iz innən belə? –

qoşmasını xatırlayırdı.

Bəli... Dədə Şəmşir bax beləcə, oğlanları Qənbər, Ələsgər, Şabər və Rəşidin çiynində haqq dünyasına qovuşdu. Bu günə Dədə Şəmşir lap çoxdan hazırlaşmışdı... Əvvəldən deyirdi:

Kim bilir sinəmin nə var içində,
Ürəyim çırpınır azar içində.
Çürüyər cəsədim məzar içində,
Üstündə gül bitən torpağam bir gün.

Fələyin yazısına bax... Ata oğulu işıqlı dünyaya gətirir... Oğul atanı çiynində qaranlıq dünyaya yola salır...

Dəfndən sonra hörmətli qonaqlar – Nüsrət Kəsəmənli, Zəlimxan Yaqub, Məmməd Aslan və Hüseyn Kürdoğlu ilə birlikdə mənim maşınımda qayıdırdıq. Hamı lal-dinməz dayanmışdı, heç kim danışmırdı. Elə bil ki, qəm-qüssə bizimlə bərabər maşını da bürümüşdü. Maşını özüm sürürdüm. Eşidilən Ağdaban çayının qəmli şırıltısı, bir də maşının qayalara düşən səsiydi... Bəlkə kimsə bir mövzu axtarırdı lal sükutu pozmaq üçün...

"Misirin binəsi"nə çatdıq. Dedim:

– Bax, bura bizim binədir, atamın adını daşıyır, dam-daş da bizimdir. İndi burda bir kasıb seyid yaşayır. Atam müharibə illərində burdakı meşəni qırıb, təmizləyib, bir əkin yeri düzəldib. Ağac qabığından boru kimi düzəldib qayanın üzüylə üç kilometrlik məsafədən bura su gətirib. Qohum-əqrəba, əri, oğlu cəbhədə vuruşan qadınlar əlləri, ayaqları ilə əkib-becərib, çörək qazanıblar, ailələr ac qalmayıb. Axı, mən də bu dam-daşda çox oynamışam.

Burada yadıma şair Ənvər Rzanın bir şeiri düşdü:

Bu da yəhərləyib mindiyim boz daş,
Kövrəlmə, ürəyim, tab gətir, tablaş.
Ömrümün bəzəyi, a köhnə dam-daş,
Nə yaxşı görüşdük, nə yaxşı yenə...

Sükut pozuldu... Hüseyn Kürdoğlu ah çəkdi...

– Bəli, döşündən süd əmdiyimiz dağlar bir saz-söz nəhəngimizi də qoyununa çəkdi... Deyəsən cərgəmiz sıralanır...

Məmməd Aslan dedi:

– Bir qrup ziyalı və bəzi adamlar çox dirəndilər ki, Şəmşir əmini rayon qəbiristanlığında dəfn edək. Vəliyəddin müəllim şahiddir ki, mən dedim, a qardaş, qoyun bir abidəmiz də Murovun qoynunda, Kəpəzin aşırımında olsun. Onsuz da Dədə Şəmşir harada dəfn olunsa, ora bütün qələm əhlinin – hamımızın ziyarətgahı olacaq. Sağ olsun Qənbər müəllimi, bərk durdu. Elə rəhmətlik özü də vaxtilə demişdi ki, "qartal yuva salan dağlar oğluyam". Axı, bu, onun öz istəyiydi...

Balaca İstisuya, "Fontan" bulağına çatdıq. Yerdən çıxan qaynar sudan qurtum-qurtum içirdik. Birdən Zəlimxan Yaqubun gözü Tərtər çayının o tayındakı qayaya sataşdı.

Dedi:

– O qayanın üzünə baxın, görün necə qaynayıb bir-birinə qucaqlayıblar, bir-birindən qopmurlar. Bəs, görəsən, biz nə vaxt Cənublu-Şimallı birləşib Nizamidən, Füzulidən belə böyük dahilərimizin, yazarlarımızın tarixi abidə kompleksini yaradacağıq?

İllər keçdi. Tərtər şəhərinin qəbiristanlığındaydıq. Dədə Şəmşirin vəfadarını – Güllü nənəni öz vəsiyyətilə müvəqqəti olaraq məhz Tərtər torpağına tapşırdıq. Amma ruhu Yeddiqardaş dağında Dədə Şəmşirin ruhunu axtarır, bəlkə də qovuşublar.

...Dünya bəd üzünü heç vaxt gizlətməyib. Tərsinə döndərəndə sinələrə dağ çəkir... Aradan çox keçmədi ki, Dədə Şəmşirin istəkli oğlu Ələsgər faciəli ölümlə üzləşdi. Qəbirlər qoşa qazılıb. Ağdabanda ata-bala – Şəmşir, Əkbər, Çimnaz... Tərtərdə ana-bala – Güllü, Ələsgər. Bunları gözü önündə canlandıran Dədə ocağının dərdçəkəni Qənbər müəllim üzünü Murova çevirib yazdığı şeiri ürəyində Dədə Şəmşirə oxuyur:

Səsim qulağına çatsın, ay Dədə,
Bəlkə bu günləri görüb qalmısan.
Dedin: “Dağ oğluyam, ayrı düşmərəm”,
Dağlarla baş-başa verib qalmısan.

Göyçə gədiyindən baxır Ələsgər,
Yəqin o ustad da gözləyir xəbər.
Şəhid balaların Çimnazla Əkbər –
Onlara bir süfrə sərib qalmısan.

– Hə, ay dədə, biz də burda anam Güllüynən Ələsgərin matəm süfrəsini sərib...

Gözləri doldu...

Əziz oxucu! Bunlar mənim şahidi olduğum tarixi hadisələrdir.

Bu hadisələr burulğanının içərisindən, Dəlidağla Murovun qoşa çiyninin ortasından bir Kəlbəcər boylanır: ucalıq, mərdlik, məğrurluq rəmzi olan Kəlbəcər... O Kəlbəcər torpağında doğma əzizlərimizlə yanaşı, çox qiymətli insanlar və tarixləşən sənətkar, Dədələşən şair – Dədə Şəmşir də yatır, ruhları şad olsun!

TƏBRİK EDİRİK!

AŞIQ YANVAR – 70

Şirvan aşıq mühitinin tanınmış nümayəndələrindən olan Aşıq Yanvarın bu il 70 yaşı tamam olub.

Aşıq Yanvar Piralı oğlu Bədəlov 1942-ci il fevralın 2-də İsmayıllı rayonunun Tircan kəndində anadan olub. Hələ orta məktəbdə oxuyarkən qonşu Kəlfərəc kəndində yaşayan Aşıq Şamildən aşıq sənətinin sirlərini öyrənib, ondan bəhrələnib. Orta məktəbi bitirəndən sonra təhsilini Bakı Mədəni-Maarif Texnikumunda davam etdirib.

1963-cü ildə respublika festivalının iştirakçısı olan Aşıq Yanvar II dərəcəli diplomla təltif olunub. Sonralar müxtəlif baxış və müsabiqələrdə iştirak edərək, bir sıra diplom və fəxri fərmanlara layiq görülüb, 2004-cü ildə isə respublika aşıqlar müsabiqəsində "Şirvan aşıq sənətkarları" nominasiyası üzrə qalib olub.

O, 1970-ci ildə Tircan kənd Mədəniyyət evinin müdiri təyin edilib.

70 yaşlı ustad Aşıq Yanvar bu gün də sənətdə öz sözünü deməkdədir. Onun keçdiyi sənət yolu gənc aşıqlar üçün əsl örməkdir. O, eyni zamanda bədii yaradıcılıqla da məşğul olur.

Hörmətli sənətkarımızı 70 illik yubileyi münasibəti ilə təbrik edir, ona möhkəm cansağlığı, uzun ömür və yeni-yeni uğurlar arzulayırıq.

AZƏRBAYCAN AŞIQLAR BİRLİYİ

Aşıq YANVAR

İSMAYILLIDA

Başına döndüyüm, ay əziz dostum,
Söylə, olmusanmı İsmayıllıda.
Bir günəşli gündüz, bir aylı gecə,
Seyrə dalmısanmı İsmayıllıda.

Gəlsən salamlayar bu dağlar səni,
Bülbüllü, nəğməli budaqlar səni.
Şeirlə qarşılar bulaqlar səni,
İlham almısanmı İsmayıllıda.

Gəl boş keçirməyək hər ili, ayı,
Bizim kənddə keçir sən gələn yayı.
Bu aşıq Yanvardan bir nəğmə payı
Gəlib almısanmı İsmayıllıda.

SÖZ ÖYRƏN

Aşıqlıq eşqinə düşən a dostum,
Əvvəlcə mərifət, sonra söz öyrən.
Arif olan yerə nadan da gələr,
Əyər söz atarsa, ona döz, öyrən.

Öyrən, qoy sözlərin yersiz olmasın,
İnci təki heç qiymətdən qalmasın.
Zərrəcə dilində yalan olmasın,
Mümkün eylə, hər vaxt sözü düz öyrən.

Aşıq Yanvar dərs alıbdır ustaddan,
Elə dərs ki, heç vaxt çıxarmaz yaddan.
İstəsən sənətim düşməsin daddan,
Ustadlar yanında sən də gəz, öyrən.

VERİRSƏN

Qadir Allah, yaratdığın insanın
Hərəsinə bir cür zinnət verirsən.
Biri dolanmağa əziyyət çəkir,
Birinə tükənməz dövlət verirsən.

Biri dəli olub düşür çöllərə,
Biri dastan olub düşür dillərə.
Biri fərəhindən qonur güllərə,
Birinə dərd, kədər, zillət verirsən.

Birinin kəsilib tamam əlacı,
Biri iki əllə alır xəracı.
Birinin dahanı dadıyır acı,
Birinə şirin üstə şərbət verirsən.

YARA MƏNDƏN

Yenə də gözünə qəmli görünür,
Görən nə dedilər o yara məndən.
Ara vuran, görüm dilin qurusun,
Nazlı dilbər, kəsdi ay ara məndən.

O, yarasın özgəsinə sarıdır,
Tərlan deyil, bu yerlərin sarıdır.
Gördüm meyli özgəsinə sarıdır,
Onunçun kəsibdi ay ara məndən.

Səyrəqublar bilməm səni nə süzə,
Könlüm istər o baxçadan nə süzə.
Arzum budu, qismət olma nəs üzə,
Dostuma yetişməz ay yara məndən.

TƏBRİK EDİRİK!

PROFESSOR SEYFƏDDİN QƏNİYEV – 60

Hörmətli professor Seyfəddin Qəniyev!

Siz Azərbaycanın görkəmli folklorşünas alimi, ozan-aşıq sənətinin tanınmış tədqiqatçılarındansınız. Məhz sizin gərgin zəhmətiniz, ardıcıl və yorulmaz elmi axtarışlarınız nəticəsində ozan-aşıq sənəti və bu sənətin daşıyıcıları, xüsusilə də Şirvan aşıq mühiti və onun görkəmli nümayəndələrinin yaradıcılığı tədqiq olunmuş, neçə-neçə ustad aşığın şeirləri, söylədikləri dastanlar toplanılaraq nəşr olunmuş, barələrində kitablar işıq üzü görmüşdür.

Siz sazımızın, sözümüzün dostusunuz və təkcə elmi sahədə yox, həm də ictimai fəaliyyətinizlə də xalqımızın bu qədim və ölməz sənətinə bağlısınız. Azərbaycan Aşıqlar Birliyi idarə heyətinin və "Ozan dünyası" jurnalının redaksiya heyətinin üzvü kimi də qayğılarınız çoxdur və bu sahədəki zəhmətiniz təqdirəlayiqdir.

Arxada qoyduğunuz bu 60 ildə dəyərli ziyalı, məhsuldar alim, ləyaqətli vətəndaş ömrü yaşamısınız. Keçdiyiniz ömür yolu, cəmiyyətdəki mövqeyiniz, elmi-pedaqqoji fəaliyyətiniz və saza-sözə bağlılığınız bu günkü gənclərə bir örnəkdir.

Hörmətli Seyfəddin müəllim! Sizi anadan olmağınızın 60 illik yubileyi münasibəti ilə Azərbaycan Aşıqlar Birliyi və şəxsən öz adımdan təbrik edir, sağlam və gümrah olmağınızı, bundan sonra da folklorşünaslıq elminə, ozan-aşıq sənətinə yeni-yeni töhfələr verməyinizi arzulayıram.

Hörmərlə: Zəlimxan YAQUB,
Xalq şairi, AAB-nin sədri.

Bakı, 26 may 2012

Aşıq Pərinin anadan olmasının 200 illiyi qarşısında

Tamella QULUZADƏ
filoloq

AŞIQ PƏRİ YARADICILIĞINA BİR BAXIŞ

Azərbaycan qadın aşıq sənətinin yaradıcılarından biri və bəlkə də birincisi Aşıq Pəri hələ sağlığında həm də şairə kimi məşhur olmuşdu. Əlimizə gəlib çatan şeirlərindən məlum olur ki, onun yaradıcılığı zəngin olmuş, şifahi xalq ədəbiyyatının qoşma, təcnis, deyişmə, bayatı və s. janrlarında lirik şeirlər yazmışdır.

Aşıq Pəri naşı bir aşıq deyildi, o, dövrünün kamal sahiblərindən mükəmməl dərs almış, görüb-gotürmüş savadlı, təhsilli bir ziyalı idi:

Mürşidi kamildən dərsimi aldım,
Can götürüb bu meydanə gəlmişəm.
Mürği-Səməndərin aşınasıyam,
Od tutuban yana-yana gəlmişəm.

Burada həm də dövrün tanınmış sənətkarlarına, ziyalılarına işarə vurulur. Bu da aşıq yaradıcılığı üçün səciyyəvidir.

Aşıq Pəri daha çox şifahi xalq ədəbiyyatının ən geniş imkana malik, bədii yaradıcılığın təməl prinsiplərindən biri olan qoşma növündən geniş və məharətlə istifadə etmişdir. Bu da onun sənətkarlıq fəaliyyətinin dolğun ifadəsinə, sosial problemlərin qabardılmasına, insanın daxili aləminin hərtərəfli təsvirinə geniş yol açmış, real həyat səhnələrinin məharətlə təsvirinə imkan vermişdir. Poetik fiqurlardan yerli-yerində bəhrələnməsi nəticəsində həmin dövrün iqtisadi-siyasi mənzərəsinə narazılıqları incə poetik cizgilərlə səciyyələnir, kədərli, sevincli anları səmimiyyətlə qələmə alınır, incə bir dillə süzülüb gəlir. Çünki mayası ilahi nurdan, kamil imandan, heyrət doğuran səlis, sərrast fəlsəfədən, poeziyadan yoğrulmuşdur.

Heç şübhəsizdir ki, aşıq-şair qadağalarla dolu olan həmin dövrdə həmişə istədiklərini yaza bilməmişdir. Bununla belə, əlimizdə olan materiallarda dövrünün kədəri, dərdi kifayət qədər ifadə edilmişdir:

Namərd fələk, nələr gəldi başıma?!
Mədəd Allah, səndən mənə bir imdad.
Bilməm kimlər zəhər qatdı aşıma,
Mədəd Allah, səndən mənə bir imdad.

Aşıq Pərinin qoşma yaradıcılığı hər şeyin fövqündədir, ən müxtəlif poetik hadisələri izah edir, danışdırır. İstedad, duyum, duyğularını ifadə etmək bacarığı, başqasından fərqli və özünəməxsus deyim qabiliyyəti diqqəti cəlb edir. Bu qoşmalar ideya-məzmun baxımından insanpərvər, humanist olmaqla bərabər, həm də milli məzmun kəsb edir:

Səhər-səhər doğan dan ulduzuyam,
Aşıqların söhbətiyəm sazıyam.
Adım Pəri, Hacı Sayad qızıyam,
Xəbər alsan, o Maralyan maralı.

O, sələflərinin yaradıcılığının ən dəyərli keyfiyyətlərindən təsirlənmiş, bəhrələnmiş, onların ənənəsini davam etdirmişdir. Azərbaycanın aşıq və şair qadınlarının poetik salnaməsini şərəflə gələcək nəsillərə ötürmüşdür. Məhsətidən tutmuş, Heyran xanıma qədər zərif qadın duyğularının, hisslərinin tərənnümü, ifadəsi Aşıq Pəridə də, oxşardır, sanki onların davamıdır.

Məhsəti yazır:

Gecələr ürəyim od tutub yanar,
Ahu-fəğanımdan cahan odlanar.
Könlümdən xəbərin yoxdur, qorxursan,
Dilinə gətirsən yanar dilin, yar.

Pəri deyir:

Mən sığındım məzar sandıq daşına,
Bir rəhm eylə gözdən axan yaşıma.
Pəri deyər, dönnəm yarın başına,
Yaralıyam, mən başına döndüyüm.

O, gözəlliyi, eşqi tərənnüm edən, həyatındakı ədalətsizliklərə, insanlar arasında qanun bərabərsizliyinə etirazını bildirən ictimai-fəlsəfi poeziya yaratmışdır. Dövrünün çətinlikləri, taleyinin uğursuzluğu, ömrünün qısalığı – bütün bunlar ictimai ədalətsizliklərdən doğurdu ki, bu da sanki onun alın yazısı idi, boyuna biçilmişdi.

Burada bir məqamı da qeyd etmək yerinə duşər ki, o dövrün spesifik düşüncə tərzi də aşığın qoşma yaradıcılığında öz ifadəsini tapmışdır. Şübhə yoxdur ki, o, başqa janrlarda da yazsaydı, həyatın, təbiətin və insanın mənəvi aləminin şeiriyyəti, yüksək səviyyəsi olacaqdı, ürəklərə yol tapacaqdı.

Məhsuldar bir şair kimi o, qoşmalarında söz yaradıcılığından məharətlə istifadə edir. Yerində işlədilən ifadələr, xalq deyimləri, atalar sözü və məsəlləri bədiiliyi, axıcılığı, rəvanlığı artırmış, aşıq şeirini xalq dlinə, canlı danışıq dilinə daha da yaxınlaşdırmışdır:

Bir məsəldir, bağban olan bar çəkər,
Əndəlibin həm meyli gülzar çəkər,
Allahına bəndə ahu-zar çəkər,
Qəm çəkmə, kamildir kamalın sənin.

Lirizm, lirik poeziya, kədər və nikbinlik səhnələri bir-birini tamamlayır. Biz burada məhəbbət və onun kədərindən doğmuş aşiqanə lirikanın ən gözəl nümunələrinə rast gəlirik:

Eşqinin əlindən gedərəm bada,
Dərdim olur gündən-günə ziyada.
Şiveyi-rəffarın düşəndə yada,
Bağrımın başında millər oynaşır.

Aşıq həm də eşqi yolunda hər cür əzaba qatlaşır, hər çətinliyə dözür:

Pəri idim eşq içində aşikar,
Aralıqda yaxşı olur səbəbkar.
Bu cəng meydanında eylərəm şikar,
Əgər Məhəmməd tək səd həzar ola.

Aşığın lirik qəhrəmanı elə onun özüdür, ümumiləşmiş mənidir:

Adım Pəri xanım, Alı xan butam,
Çərxi-fələk etdi mənə yüz sitəm.
Qoymadı mətləbə, murada çatam,
Mənsur kimi çəkdi dara, de gəlsin.

Aşıq Pəri yaradıcılığında mübaliğə poetik fiqurundan çox istifadə edilib.

Bunlardan təkcə birini misal gətirməklə kifayətlənmək istəyirəm:

Dad eylərəm, haray naşı əlindən,
Yandı cigər eşq atəşi əlindən.
Mən nə deyim, gözüm yaşı əlindən
Üzüşür sonalar, göllər oynaşır.

Sözün təsir gücünü artırmaq üçün təkrirlərdən geniş istifadə edilib:

Seyrəqublar bir-birinə uyublar,
Şəri-böhtan mən yazığa qoyublar.
Xəncər ilə qara bağrım oyublar,
Pünhan-pünhan gül irəngin saralı.

Söz yaradıcılığından məharətlə istifadənin bir nümunəsini də leksik anaforalarda görürük. Aşıq gətirilən nümunələrin başlanğıcında sözləri təkrar işlətməklə buna nail olmuşdur:

Adam var, dolanır məkrin içində,
Adam var, dolanır zikrin içində.

Bu qoşmalarda şam, gül, bülbül, qönçə, fələk, pərvanə, bayquş kimi poetik obrazlar çoxdur:

Qadan qaldı bu Pərinin canında,
Pərvanələr yandı şamın yanında.

və ya:

Dağam, gül yanında xarı görəndə,
Tərlan oylağında sarı görəndə.

Sözün ahənginin təsirini artırmaq üçün eynicinsli samitlərin ifadəsini də qeyd etmək yerinə duşərdi:

Can içində mən bu canı neylərəm,
Ləli-Yəmən bədəxcanı neylərəm.

və ya:

Neçə bəylər ilə, neçə xan ilə
Göftarı xoş, əhli canı neylədin?!

Aşıq-şairin lirik poeziyasında ifadə vasitəsi kimi təzadları qeyd etməmək mümkün deyildir. Bunlar həm çoxdur, həm də yerli-yerində işlənərək müəllifin demək istədiklərini oxucusuna daha təsirli çatdırır:

Fələk məni cox ağlatdı güldürdü,
Ağladıban göz yaşımı sildirdi.

Və ya:

O fələkdir göyü yeri dağlayan,
Əzəl şad eyləyib, sonra ağlayan.

Yeri gəldikcə, yerli-yerində cinaslardan istifadə etmək bir daha sənətkar bacarığından xəbər verir:

Pis qonşudan üzdüm əli,
Qənim olsun sənə Əli.

Başqa bir qoşmasında hisslərini, duyğularını ifadə etmək üçün güclü təxəyyül-təbiətdən, əşyalardan sənətkarlıqla istifadə edib, özündən əvvəlki bir çox aşıqlar, şairlər tərəfindən işlənmiş ayrılıq mövzusuna təzə deyim, ifadə vasitəsi qatır:

Dərdim bir dəryadı, könlüm bir ada,
Günbəgündən artdı, oldu ziyada.
Hərdənbir cüt oğul düşəndə yada,
Ucalır başımdan duman, ayrılıq.

Aşıq Pəri dərdini dəryaya, könlünü adaya bənzətməklə təşbeh yaratmışdır. Buradaca qeyd etmək istərdim ki, özündən əvvəlki sələflərinin yaradıcılığında olduğu kimi, Aşıq Pəri yaradıcılığında da təşbehlər – bənzətmələr önəmli rol oynayır.

Ümumiyyətlə, sairənin lirikasında vəfa, dostluq, etibar bütün başqa mövzularla üzvi surətdə bağlıdır. Bunlara həsr olunmuş misralar az deyil:

Şaistədir ey mürşidi-kamilim,
Dostlar arasında etibar ola.
Sən ki bizə namə yazdın ibtida,
Canı dost yolunda eylədim fəda.

Aşıq Pəri yaradıcılığında poeziya və zaman əlaqəsi əvvəldən axıra bir xətt üzrə inkişaf edir. Onun şeirlərini oxuduqca oxucunun nəzərində məhz XIX əsrin səciyyəvi mənzərəsi canlanır, orada qoyulan problemlər, toxunulan məsələlər dünyəvi olduğu üçün bu gün də yenidir, aktualdır.

Aşıq Pərinin əlimizdə olan təcnis, deyişmə və bayatıları haqqında da eyni sözləri demək olar. Təkcə onu qeyd etmək kifayətdir ki, mövzular nə qədər müxtəlif olsa da, onların təsvirində yeni, orjinal obrazlardan, real həyat səhnələrindən ustalıqla istifadə edilmişdir. Bu da onun şeirlərinin oxucular tərəfindən sevilərək oxunmasına təkan verir.

Ölüm sevinməsin qoy...

AŞIQ GÜLABI XINDI MƏMMƏD OĞLU

Azərbaycan aşıq sənətinə ağır itki üz verib. Borçalı aşıq mühitinin yetirməsi, solo saz ifaçısı kimi təkcə Borçalıda və Azərbaycanda deyil, bütün Türk dünyasında məşhur olan Gülabı Xındı Məmməd oğlu 2012-ci il iyun ayının 8-də uzunsürən xəstəlikdən sonra vəfat edib.

Gülabı Məmməd oğlu Vəliyev 1950-ci ildə Borçalıda – Marneuli rayonunun Böyük Muğanlı kəndində məşhur ustad aşıq Xındı Məmmədin ocağında dünyaya gəlib.

Beşiyi başında saz çalınan, körpəlikdən sazın laylasıyla böyüyən Gülabı Xındı Məmməd, Əmrah Gülməmmədov, Hüseyn Saraçlı və Kamandar Əfəndiyev kimi böyük sənətkarların müqəddəs yolunun layiqli davamçısı olub, bu sənətin daha da inkişafı naminə əlindən gələni əsirgəməyib. Doğma kəndində "Ozan" saz dərnəyi yaradaraq neçə-neçə gəncə bu sənətin sirlərini öyrədib. 1976-cı ildə gənc sazçalanların Ümumazərbaycan müsabiqəsində I yer tutaraq diplomla təltif olunub.

Ömrünün son illərində Bakıda yaşayıb fəaliyyət göstərən Gülabı Xındı Məmməd oğlu Borçalı aşıq mühiti ənənəsini ləyaqətlə davam etdirərək bənzərsiz ifası ilə seçilib, bir çox gənc aşıqların yetişməsində böyük xidmətləri olub. O, eyni zamanda bədii yaradıcılıqla da məşğul olurdu və özündən sonra zəngin bir irs qoyub.

Aşıq Gülabı Xındı Məmməd oğlunun əziz xatirəsi sənət dostlarının, yaxınlarının və doğmalarının, bir sözlə onu tanıyanların hamısının qəlbində əbədi yaşayacaqdır.

Allah rəhmət eləsin!

AZƏRBAYCAN AŞIQLAR BİRLİYİ

İBRAHİMXƏLİL

«...YARAMA DUZ BASIN!»
(Gülabı üçün vida sözü)

Kədəri ölüm dərəcəsində olan adam, adama demirdimi: yarama duz basma, sən Allah!

İlk dəfə harda eşitdiyimi xatırlamadığım bu «yarama duz basma, sən Allah!» ifadəsi nə az, nə çox, düz yarım əsrdi ki, dünyanın Ucqar deyilən yerində vəfalı yartək yaralarıma yoldaşlıq edir.

Amma, yaralı quşların yağış gölündən içdiyi bir gündə, oğlu cavan ölən anadan eşitdiyim «yarama duz basın, ay sizə qurban!» hönkürtüsü mənə arazbarı anlamadığım çox məlallı mətləbləri bir göz qırpımındaca qandırdı. Çoxlarının yaraya duz basılmaqdan bu qədər qorxub tələş keçirdiyi yerdə bu pərişan saçlarını payız küləkləritək yolan ana yarasına duz basılmasını niyə bu qədər çox istəyirdi?

...Gülabının ölüm xəbərini eşidəndə nədənsə o fəryad edən ananın «yarama duz basın, ay sizə qurban!» fəğanı canlandı yaralı yaddaşımda.

Baxmayaraq ki, mən Gülabını cəmi ikicə dəfə görmüşəm.

Birincidə kəndimizdə toy aparırdı. Atam dağda idi: Əyriqarın o üzündə. Evdə «başıpapaqlı» mən olduğum üçün mağara da mən getmişdim. Gülabının adındakı poeziyadan da artıq idi səsindəki həzinlik. Dostumla bir oturmuşduq. Onun da atası qıraqda idi. Biz yaşda «uşaqlar»ın mağarda iştirakı o vaxt üçün namünasib olsa da, gözümçıxdıya salmamışdılar bizi. Axı, nəmər borcunu qaytarmaq lazım idi.

Həzin-füzun bu da yadımdadır ki, dostum mənə qorxulu-qorxulu pıçıldamışdı: – Birdən bizim sağlığımıza da içərlər, o vaxt nə verərik? Nəm-nüm nəmərdən başqa qəpiyimiz də yox idi. Mən heyrətlə dostuma baxdım, amma bu heyrət pul yoxluğundan doğan deyildi.

– Belə səs yiyəsi də pulnanmı oxuyur, – dedim, – pulnan səsi cırlar-cındırlar oxumalıdı, axı!

İllər sonra Bakıya getdim. «Neftçilər»də mamaoğlu, – sizdə bibioğlu deyirlər – sazbənd-aşıq Kövrək Muradın hücrəsində Murad mənə: – Tanış ol, Gülabıdır, – deyəndə elə bil dünyanın istədiyim parçasını mənə bağışladılar.

Sonra heç gözləmədiyim halda Gülabı Murada: – Bir halda ki, sənin dayıoğlun – ata-ana qohumluğumuzdan dolayı, Murad məni «dayıoğlu» deyə çağırır, çağırır yox, e, doğma dayıoğlusundan da çox istəyir; mən də eynən elə – gəlib, – dedi, – məxsusi onun üçün çalaram.

«Çalaram» – dedi. Çünki Gülabının səsi – İlahi, deməyə dil də gəlmir! – batmışdı, oxumurdu daha. Ömrümdə məxsusi mənim üçün saz çalan az olub, amma necə fəxriyyə üstündə köklənib deməyim ki, o xüsusilərdən biri elə Gülabı idi! Heç fərqində də deyiləm ki, hansı havanı daha göynərtili çaldı: «Kərəm köçdü»nümü, «İbrahimi»nimi – bu havada adımın peyğəmbər adı olduğunu sanki sazla vurğuladı da! – «İrəvan çuxuru»numu, yoxsa «Yurd yeri»nimi...

Daha sonra daha çox Gülabının məsumiyyət və doğmalıq havasına köklənib kəndimizdəki o uzaq «Gülabı günü»nü, o toy axşamını, dostumla «birdən bizim sağlığımıza da içərlər, üzüqara olarıq» akkordlu əhvalatımızı da danışdım Gülabıya. Gülabının arazbarı gülüşü Kövrək Muradın hücrəsini şahənşah sarayına döndərdi, nə döndərdi!

P.S

...Dünən Gülabının qardaşı Əşrəf gəlmişdi Mədəniyyət Mərkəzinə: Marneulidəki iş yerimi deyirəm. Əzəllər atası ustad Xındı Məmməddən «Əsildən, nəsildən mərd olan» adlı yazı da yazmışam. Bizim «Regionpress» qəzetində gedib o yazı. Əşrəf həyatdakından dolayı, sənətdə də kimin belindən gəldiyini vaqifanə bilən kişilərdəndir! Xətrimi də çox istəyir. Amma Gülabı ilə bağlı ona indiyəcən kəlmə kəsməmişəm. İndi sözün işığında oxuyar.

Öz yaralarıma gizlində-pünhanda duz bassam – ucqardakı duz qıtlığı bu yöndən ola bilməzmi? – da, Əşrəfə qıyıb yarasına bir kimsənin duz basmağına ömürbillah dözmərəm!

Xındı Məmmədin sonuncu oğlunun yarasına, olsa-olsa, həsrətini çəkdiyim Göyçənin yarasına səpdiyimtək hərdən-hərdən... gülab səpərəm.

SAZBƏND SÖZSÜZ ÖMÜR SÜRMƏZ

Onu geniş təqdim etməyə elə də ehtiyac yoxdur. Sadəcə olaraq Qəzənfər Sazbənd demək kifayətdir ki, söhbətin kimdən getdiyi bəlli olsun. Onu tanıyanlar bir şeyi də yaxşı bilirlər ki, özünə Sazbənd təxəllüsü götürsə də, o, təkcə sazbənd deyil, həm də aşıqdır, şairdir. Şeirlərinin birində dediyi kimi, Sazbənd sözsüz ömür sürməz. Bu barədə söz düşəndə özünü qısaca olaraq belə təqdim edir: sazbənd və yaradıcı aşıq. Ona görə yaradıcı aşıq ki, qələmini aşıq şeirinin müxtəlif janrlarında sınayıb və indiyədək "Özgə adda gəzəmmərəm", "Sazbənd Qəzənfərin saz-söz dünyası", "Yaşa dedi ellər mənə" adlı üç kitabı işıq üzü görüb. "Özgə adda gəzəmmərəm" adlı şeir kitabı həm də Türkiyədə çap olunub. Dediyinə görə saz havaları da yaradıb. Uzun müddət Bakıdakı 23 və 35 saylı uşaq musiqi məktəblərində dərs deyərək yeniyetmələrə sazın sirlərini öyrədib. Yetirmələri dəfələrlə müxtəlif müsabiqələrdə birinci yeri tutublar.

...Qəzənfər Əli oğlu Tağılı (Qəzənfər Sazbənd) 1946-cı il iyul ayının birində Gədəbəy bölgəsinin Göyəmli kəndində kolxozçu ailəsində anadan olub. 1964-cü ildə Zamanlı kəndində orta məktəbi bitirdikdən sonra Bakıya gəlib, burada bənnalıq üzrə peşə məktəbinə daxil olub. Həmin məktəbi bitirdikdən sonra təyinatla Sumqayıt şəhərində inşaat sahəsində əmək fəaliyyətinə başlayıb, bir müddət çalışdıqdan sonra hərbi xidmətə gedib. Ordudan tərxis olunduqdan sonra yenidən Bakıya qayıdıb, 1966-cı ildə Bakı 1 saylı Evtikmə kombinatında quraşdırıcı kimi işləməklə yanaşı, təhsilini də davam etdirərək Bakı Yerli Sənaye Texnoloji texnikumunun ağac biçmə və ağac emalı şöbəsini bitirib. 1988-1998-ci illərdə tikinti ustası vəzifəsində çalışıb. Əmək veteranıdır.

Sazbənd Qəzənfərlə aşıq sənətinin dünəni və bu günü ilə bağlı geniş fikir mübadiləsi etdik, dünyasını dəyişmiş məşhur ustadları xatırladıq, bu günkü sənətkarlardan söz açdıq. Söhbət təbii ki, həm də onun özündən düşdü. Daha çox sazbəndlikdən, onun bu sənətə gəlişindən söz açdıq və ona ənənəvi bir sualla müraciət etdik:

– ***Necə oldu ki, sazbənd oldunuz, bu sənətə gəlişiniz nəylə bağlıdır?***

– Bildiyiniz kimi, mənim doğulub boya-başa çatdığım Gədəbəy rayonu sazın-sözün vətənidir. Gözümü açandan sazın-sözün əhatəsində böyümüş, aşıqların sinəsində saz görmüşəm və elə uşaqlıqdan istəmişəm ki, mənim də sazım olsun. Uşaq vaxtı bu istəyimə çatmasam da, həddibuluğa çatıb Bakıya oxumağa gələndən sonra özümə bir saz aldım. Daha dəqiq deyim ki, Bakıda sazbənd emalatxanası olmadığından ilk dəfə özümə sazı 1974-cü ildə gedib Tovuzun bazarında əldən, ikincisini isə türk dünyasında tanınmış məşhur sazbənd usta Xududan aldım.

Hər kəsin qəlbində bir musiqi nidası var və aldığım hər iki saz ötkəm və gözəl olsa da, özümdən asılı olmayaraq nədənsə mənə elə gəldi ki, bu sazlar kövrək ötmür. Bu səbəbdən də sazın sinəsini söküb təzələmək istədim. O vaxtlar hətta qohumlarımdan məni danlayanlar da oldu ki, sən inşaatçısan, saz düzəltmək sənlik deyil, get öz işinlə məşğul ol. Həm bu sahədə təcrübəmin olmaması, həm də bu təcrübəsizlikdən irəli gələrək keyfiyyətli ağac materialı tapammadığımdan istədiyimə nail ola bilmədim və usta Xudunun yanına gedib sazın sinəsini yenidən onun özünə düzəltdirdim. Kim bilir, bəlkə elə bu da talenin qismətimə yazdığı yazıymış ki, sazbəndliyə gedən yolumun başlanğıcı kimi heç zaman xatirimdən silinməyəcək. Belə ki, həmin vaxt aldığım materiallardan sonradan özüm iki saz düzəltdim. Doğrudur, ilk işim olduğundan müəyyən qüsurlar da yox deyildi. Amma görənlər tərifləyib məni daha da həvəsləndirdilər. Dostlar, tanışlar onlara da saz düzəltməyi xahiş etdilər. Beləcə, başladım yavaşyavaş saz düzəltməyə və bir də gördüm ki, artıq mənə usta deyirlər. Demək istəyirəm ki, əslində sazbənd olmaq istəməsəm də, bu sənətə gəlməyimin səbəbi bu olub.

– ***Usta, sazbəndlik sözün əsl mənasında olduqca incə bir sənətdir. Burada təkcə dülgərlik, ağacla işləmək qabiliyyəti azdır. Bu sənətin özünəməxsus incəlikləri var və onları bilmədən, daha doğrusu, bir ustaddan heç olmasa məsləhət almadan kamil sənətkar olmaq mümkün deyil. Bu baxımdan maraqlıdır, bu sənətə gələrkən məsləhət üçün üz tutduğunuz ustad olubmu? Əl işlərinizin daha çox hansı sazbəndin düzəltdiyi sazlara bənzəməsini istəmisiniz?***

– Düzünü deyim ki, nəinki sazbəndliyə başladığım ilk vaxtlarda, elə indinin özündə də çalışıram ki, usta Xudunun düzəltdiyi saza bənzər saz

düzəldim. Bildiyiniz kimi, mən şeir də yazıram. Və həmişə Allahdan elə qüdrət istəmişəm ki, yazdığım şeirlər Səməd Vurğunun şeirlərinə, düzəltdiyim saz isə Xudunun sazına bənzəsin.

– Usta, bu gün tanınmış aşıqlardan hansının sinəsindəki sazı siz düzəltmisiniz?

– Aşıqların əksəriyyətində Usta Xudunun düzəltdiyi sazdır, yəni o, aşıqların hamısını təmin etdiyindən bizlərə ehtiyac qalmayıb. Aşıqların, demək olar ki, doxsan faizi sazı ondan alırdı. Amma bu, o demək deyildir ki, mənə müraciət edən olmur. Son vaxtlar saza maraq gücləndiyindən bizə müraciət edənlərin sayı da gündən-günə artır.

– Bəs bir sazbənd kimi necə izah edərdiniz, bu qədər sazbənd olduğu halda, niyə tanınmış aşıqlar usta Xuduya müraciət ediblər? Onun düzəltdiyi sazın üstünlüyü nəydi?

– Usta Xudu ilə sağlığında yaxın əlaqələrimiz olub. Deməliyəm ki, onun düzəltdiyi saz həm formaca, həm də keyfiyyət baxımından gözəldir.

– Dediniz ki, Xudunun düzəltdiyi saz daha çox xoşa gəlib. 35 ildir sazbəndliklə məşğulsunuz. Bu müddətdə siz də elə saz düzəldə bilmədinizmi ki, Usta Xudunun sazı kimi bəyənilsin.

– Əslində bu, elə bir sənət sahəsidir ki, ayrı-ayrı ustaların işi yüzdə yüz bir-birinə oxşaya bilməz. Tam olmasa da, mənim düzəltdiyim sazlar doxsan faiz usta Xudunun düzəltdiklərinə bənzəyir. Burada əl qabiliyyəti ilə yanaşı, material da böyük rol oynayır. Mən material sarıdan həmişə çətinlik çəkmişəm. İşimin çoxluğundan vaxtım olmur ki, rayonları gəzib saz düzəltmək üçün yararlı, keyfiyyətli tut ağacı tapım. Gədəbəydə də tut ağacı yoxdur ki, ildə bir dəfə gedib istədiyim materialı yığıb gətirim.

...Böyük sənətkara qiymət verməyi bacarmaq özü böyüklükdür. Onunla söhbət zamanı bir şey diqqətimdən yayınmadı: Sazbənd Qəzənfər həm sazbənd, həm də aşıq kimi kifayət qədər tanınsa da, bəziləri kimi mənəm-mənəm demir, hər kəlməbaşı ustadları xatırlayır. Usta Xududan bu qədər minnətdarlıq hissi və böyük məhəbbətlə danışması isə əsl qədirşünaslıq nümunəsidir. Elə buna görədir ki, özü də hər yerdə hörmətlə qarşılanır, sənətinə böyük qiymət verilir. İndiyədək bir çox mükafatlara da layiq görülüb. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Naziriliyinin, Bakı şəhər Mədəniyyət İdarəsinin Fəxri fərmanları və digər mükafatlarla təltif olunub, "Qızıl Qələm" mükafatı laureatıdır.

("Sazımız – szbəndimiz" kitabından)

Ozan dünyasından soraqlar

"BEYNƏLXALQ AŞIQ SEYRANİ SİMPOZİUMU"

2012-ci il may ayının 13-15-də Türkiyənin Kayseri vilayətinin Dəvəli şəhərində Beynəlxalq "Aşıqlıq ənənələri ve Aşık Seyrani simpoziumu" keçirilib. Bu ölkənin Kültür ve Turizm Bakanlığı, Uluslararası Türk Kültürü təşkilatı TURKSOY, YUNESKO-nun Türkiye Milli Komitəsi və Dəvəli bələdiyyəsinin təşkilatçılığı ilə düzənlənən bu tədbirə türk dövlətlərindən gəlmiş aşıqlar, şairlər və elm adamları qatılıblar. Dəvəli Kaymakamı Enver Ünlü, Kültür ve Turizm İl Müdürü İsmet Taymuş, Dəvəli bələdiyyəsinin Başkanı Recep Özkan, TÜRKSOY-un Şimai Kipr üzrə təmsilçisi Gülər Fədai, YUNESKO Türkiyə Milli Komitəsinin üzvü Doç. Dr. Ali Yakıcı, YUNESKO Yaşayan İnsan Xəzinəsi Onursal Bilim Doktoru Aşık Şeref Taşlıova, Yıldız Teknik Universitəsindən Prof. Dr. Aynur Koçak, Kastamonu Universitəsindən Doç. Dr Eyup Akman, Kosovadan Balkan Aydınlar Birliyinin Başkanı Osman Baymak, KKTC-dən Mahmut İslamoğlu və Kamal Dəvəçi, Qazaxıstandan Didar Kamiyev və Dauren Kassenov, Xakasiyadan Oleq Çebodayev, Qırgızıstandan Mahabat Kaseinova, A.Erqaşeva, Başqırdıstandan İldus Kaqarmanov və Asiya Qaynullina, Başqırdıstanın TURKSOY-dakı təmsilçisi Ahat Salihov və Tatarıstandan Elvira Hadıyevanın qatıldığı simpoziumda respublikamızı AAB-nin katibi, "Ozan dünyası" jurnalının baş redaktoru Musa Nəbioğlu və gənc aşıq Elməddin Məmmədli təmsil edib. M.Nəbioğlu simpoziumda məruzə ilə çıxış edib.

USTAD AŞIĞIN YENİ KİTABI

Prezident təqaüdçüsü, ustad aşıq Mahmud Məmmədovun "Allah qəlbə görə verir" adlı kitabının təqdimatı olub

2012-ci il may ayının 23-də M.F.Axundov adına Milli Kitabxanada Mədəniyyət və Turizm Nazirliyinin, Milli Kitabxananın və Azərbaycan Aşıqlar Birliyinin təşkilatçılığı ilə ustad aşıq, Prezident təqaüdçüsü **Mahmud Məmmədovun "Allah qəlbə görə verir"** adlı kitabının təqdimatı oldu. Tədbiri giriş sözü ilə açan Azərbaycan Aşıqlar Birliyinin katibi, "Ozan dünyası" jurnalının baş redaktoru **Musa Nəbioğlu** müasir dövrdə Azərbaycan aşıq sənətində Aşıq Mahmud Məmmədovun xidmətlərindən və onun yeni kitabının məziyyətlərindən danışdıqdan sonra sözü Xalq şairi, Azərbaycan Aşıqlar Birliyinin sədri **Zəlimxan Yaquba** verdi. Z.Yaqub Aşıq Mahmudun keçdiyi sənət yolundan və gənc aşıqların yetişməsindəki xidmətlərindən danışdı, aşıq sənətinin inkişafındakı xidmətlərini vurğuladı. Kitabın redaktoru, şair **Musa Ələkbərli,** aşıqlardan **İsfəndiyar Rüstəmov, Səyyad Pənahov, Dəmir Gədəbəyli,** şəxsi mənzilində aşıq muzeyi yaratmış **Hüseyn Həsənov, Cümşüd Həsənov**, Milli Kitabxananın əməkdaşı **Fəridə Hacıyeva** və digərləri çıxış edərək ustad aşığın yeni kitabı barədə öz fikirlərini bildirdilər.



Sonda Aşıq Mahmud Məmmədov keçdiyi sənət yolundan danışdı, tədbirin təşkilatçılarına minnətdarlığını bildirdi.

"TELLİ SAZIN MEYDANI"

2012-ci il mayın 25-də Bakıda Heydər Əliyev adına Sarayda "TELLİ SAZIN MEYDANI" adlı aşıq konserti olub. Bakının Avropanın bir növ musiqi paytaxtına çevrildiyi ərəfədə – ölkəmizin paytaxtında "Eurovision – 2012" musiqi yarışmasının keçirildiyi bir vaxtda baş tutan və xalqımızın bu qədim və ölməz sənətinin daşıyıcılarının bu möhtəşəm tədbirə töhfəsi olan konsertdə respublikamızın tanınmış aşıqları çıxış ediblər. Prezident təqaüdçüsü Mahmud Məmmədov, respublikanın Əməkdar Mədəniyyət işçiləri Əhliman Rəhimov, Ədalət Dəlidağlı, Ağamurad İsrafilov, eləcə də sənətdə öz sözlərini demiş Fəzail Miskinli (yetirmələri ilə birlikdə), Cahangir Quliyev, Ramin Qarayev, Avdı Musayev, Gülarə Azaflı, Telli Borçalı, Solmaz Kosayeva, Zülfiyyə İbadova, Kəmalə Qubadlı, Lətifə Çeşməli, İlham Aslanbəyli, Dəmir Gədəbəyli, Azər Xanlaroğlu, Təşəkkül Əmralıyev, Pərviz Axundov və gənc aşıq Elməddin Məmmədlinin rəhbərlik etdiyi uşaqlardan ibarət "Pöhrə" aşıqlar ansamblının çıxışları alqışlarla qarşılanıb.

AŞIQLAR BİRLİYİNDƏ YENİ LAYİHƏ

Son illərdə bir sıra uğurlu layihələrə imza atan Azərbaycan Aşıqlar Birliyində yeni layihəyə start verilib. Bu barədə məlumat verən Birliyin katibi M.Nəbioğlu deyib ki, yeni layihə "Ustad aşıqlarımız" adlanır və layihə çərçivəsində ustad sənətkarlara həsr olunmuş kitabların nəşr olunması nəzərdə tutulur. Bu seriyadan ilk kitab Aşıq Ələsgərə həsr olunacaq: "Artıq bu istiqamətdə işlərə başlanıb. Bu böyük sənətkarın həyatı və yaradıcılıq fəaliyyətini əks etdirən məqalələr və elmi araşdırmalar toplanılır. Kitabda həmçinin A.Ələsgər yaradıcılığından incilər də yer alacaq". Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə nəşr olunacaq bu kitab cari ilin iyul ayında işıq üzü görəcək.

"USTADNAMƏLƏR – milli dəyərlərimizin əlifbasını birgə oxuyaq"

"Aşıq Şəmşir" Mədəniyyət Ocağı İctimai Birliyi öz Nizamnaməsinə uyğun mütəmadi olaraq millimənəvi dəyərlərimizin, şifahi xalq ədəbiyyatı və unudulmaqda olan xalq sənəti nümunələrinin araşdırılması və təbliği ilə bağlı müxtəlif layihələr reallaşdırır. Bu sıradan növbəti layihə **"USTADNAMƏLƏR - milli dəyərlərimizin əlifbasını birgə oxuyaq"** adlanır. Layihə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə həyata keçirilir.

Birliyin mətbuat xidmətindən verilən məlumata görə, layihənin həyata keçirilməsində məqsəd milli dəyərlərimiz və mill dəyərlərimizin əlifbası olan ustadnamələrimizin daha geniş təbliği və gənc nəslin təlim-tərbiyəsində istifadə olunmasının vacibliyinin cəmiyyətə çatdırılmasıdır. Layihə hazırlanarkən Milli Elmlər Akademiyasının Folklor İnstitutu ilə də məsləhətləşmələr aparılıb və belə qənaətə gəlinib ki, bu gün gənc nəslin milli ruhda tərbiyəsi baxımından aşıq ədəbiyyatının ən gözəl nümunələrindən olan ustadnamələrin daha geniş şəkildə təbliği və tanıtımı vacibdir. Xalqımızın milli düşüncəsinə əsaslanan, əsasən əxlaqi, tərbiyəvi məzmunda olan, milli mentalitetimizi qoruyub saxlamağa səsləyən ustadnamələr cəmiyyətimizdə olan insani münasibətlərin daha düzgün formada qurulmasına böyük təsir göstərə bilər.

Layihə çərçivəsində müxtəlif müəlliflərin ayrı-ayrı mənbələrdən toplanan ustadnamələri nəfis tərtibatda kitab halında çap ediləcək. Kitab çap olunduqdan sonra hazırda yaşayıb yaradan Azərbaycan aşıqlarının iştirakı ilə konsert təşkil ediləcək və kitablar bu tədbirdə ictimaiyyətə paylanacaqdır.

Layihənin bu ilin iyul ayında yekunlaşdırılması nəzərdə tutulmuşdur.

ASTANADA "DƏDƏ QORQUD" MUSİQİ FESTİVALI

2012-ci il iyunun 17-dən 21-dək Qazaxıstanın paytaxtı Astanada ənənəvi "Dədə Qorqud" Musiqi Festivalı keçirilib. Qazaxıstanın Mədəniyyət Nazirliyi və Astanadakı "Yunus Əmrə" Türk Mədəniyyət Mərkəzi tərəfindən təşkil olunan festivala Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistandan 100-ə yaxın musiqiçi qatılıb. Festivalın təntənəli açılış mərasimindən sonra iştirakçılar arasında simli və nəfəsli musiqi alətlərində ifa üzrə müsabiqə olub. Bu beynəlxalq tədbirdə azərbaycanlı aşıq Ramin Qarayev III yerə layiq görülüb. Xatırladaq ki, festivalda respublikamızı Mədəniyyət və Turizm nazirliyinin əməkdaşı Rəşad Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti (gənc aşıqlar Ramin Qarayev, Kamil Nəbizadə, Leyla Sarıyeva, Nuridə Şirinova və Rəna Quliyeva) təmsil ediblər.

Ozan dünyasından soraqları çatdırdı:
E.Çobanlı

GƏNC AŞIQLARIMIZ DAĞISTANDA BEYNƏLXALQ FESTİVALDA İŞTİRAK EDİBLƏR

2012-ci il iyunun 5-dən 11-dək Dağstan Respublikasının paytaxtı Mahaçkala şəhərində "Qorçı" V Beynəlxalq folklor və ənənəvi mədəniyyət festivalı keçirilmişdir. Fsetivalda respublikamızı təmsil etmiş nümayəndə heyətinin rəhbəri, Azərbaycan Aşıqlar Birliyinin katibi ***Musa Nəbioğludan*** *səfər təəssüratlarını oxucularımızla bölüşməsini xahiş etdik.*

– Dağıstan Respublikası Prezidentinin dəstəyi və YUNESKO-nun, Xalq Yaradıcılığı üzrə Beynəlxalq təşkilatın, Beynəlxalq Folklor festivalları təşkilatçıları şurasının, Rusiya Federasiyası Mədəniyyət nazirliyinin, Rusiya Dövlət Xalq Yaradıcılığı Evinin, Dağıstan Respublikası Mədəniyyət nazirliyi və Dağıstan Respublikası Xalq Yaradıcılığı Evinin birgə təşkilatçılığı ilə keçirilən bu festivalda Azərbaycanla yanaşı Türkiyə, Hindistan, Tailand, Sloveniya, İran və Latviyadan, eləcə də, Rusiyanın Kabardino-Balkariya, Çeçenistan, Şimali Osetiya-Alaniya respublikalarından, Astraxan və Saratov vilayətlərindən gəlmiş nümayəndə heyətləri və Dağıstan Respublikasında yaşayan ayrı-ayrı xalqları təmsil edən folklor qrupları iştirak edirdi. Qonşu respublikada keçirilən bu mötəbər festivalda respublikamızı aşıq sənətinin gənc nümayəndələri – tanınmış saz ifaçısı Fəzail Miskinli və onun yetirmələrindən Fariz Təmirov, Leyla Sarıyeva, Nuridə Şirinova və Nərmin Məmmədli təmsil edirdilər.

Festivalın açılışı iyunun 6-da Mahaçkala şəhərindəki Rus Dram Teatrında oldu. Dağıstan Respublikasının Dövlət katibi T.Mahmudova və digər dövlət rəsmilərindən sonra festival iştirakçıları çıxışlar etdilər. Gənc aşıqlardan ibarət nümayəndə heyətimizin çıxışı həm yerli tamaşaçılar, həm də qonaqlar tərəfindən alqışlarla qarşılandı.

İyunun 7-də günün birinci yarısında festivala gəlmiş nümayəndə heyətlərinin rəhbərlərini Dağıstan Respublikasının Prezidenti M.Maqomedov qəbul etdi. Həmin gün axşam isə festivalın proqramı çərçivəsində milli geyimlərin nümayişi və folklor qruplarının çıxışları oldu.

İyunun 8-də günün birinci yarısında digər ölkələrdən gəlmiş nümayəndə heyətlərinin rəhbərləri ilə birlikdə əvvəlcə Mahaçkala şəhərinin meri S.Əmirovun qəbulunda olduq, sonra isə "Mədəniyyətlərin dialoqu" adlı konfransda iştirak etdik. Dağıstan Respublikasının Milli Kitabxanasının konfrans zalında baş tutan bu görüşdə YUNESKO yanında Beynəlxalaq folklor və ənənvi incəsənət festivalları təşkilatçıları Şurasının prezidenti Udom-sak Sak-munvonq, Fransa Milli mədəniyyət və ənənələr Assosiasiyasının baş direktoru və

bədii rəhbəri Jan Roş, Dağıstan Respublikasının Mədəniyyət naziri Z.Süleymanova, Rusiya Dövlət Xalq Yaradıcılığı Evinin prezidenti E.S.Kunina və Dağıstan Respublikası Xalq Yaradıcılığı Evinin direktoru M.Muqadovanın da iştirak etdiyi həmin tədbirdə Azərbaycan nümayəndə heyəti rəhbərinin də çıxışı oldu, jurnalistlərin sualları cavablandırıldı.

Həmin günün axşamı yenə Rus Dram Teatrında "Salam, Dağıstan" adlı konsertdə nümayəndə heyətimizin uğurlu çıxışı oldu.

İyunun 9-da festivalın təntənəli bağlanış mərasimi oldu. Bu möhtəşəm tədbirdə də Azərbaycanın gənc aşıqları mədəniyyətimizi layiqincə təmsil edərək bənzərsiz ifaları ilə dağıstanlıların və xarici ölkələrdən gəlmiş festival iştirakçılarının rəğbətini qazandılar.

İyunun 10-da festival öz işini bölgələrdə davam etdirdi və Azərbaycan nümayəndə heyəti proqramda nəzərdə tutluduğu kimi, Dərbənd şəhərində keçirilən "Oxu, aşıq" adlı aşıq festivalında çıxış etdi. Tədbirdən sonra isə tarixi Dərbənd qalasına ekskursiyamız oldu.

Onu da qeyd etmək istəyirəm ki, festivalın keçrildiyi günlərdə Azərbaycan nümayəndə heyəti Dağıstan kütləvi informasiya vasitələrinin diqqət mərkəzində oldu, televiziyalar, qəzet və jurnallar aşıqlarımızın çıxışını geniş işıqlandırdılar, müsahibələr götürdülər. Orada olduğumuz müddətdə hər dəqiqə mədəniyyətimizə, incəsənətimizə böyük sayğı və ehtiramın, hörmət və rəğbətin şahidi olduq ki, bundan da hədsiz qürur hissi duyurduq.

Sonda, həmişə olduğu kimi, bu dəfə də Dağıstan Respublikasında keçirilən festivalda aşıqlarımızın iştirakına şərait yaratdığına görə festifalda iştirak etmiş nümayəndə heyətinin, Azərbaycan Aşıqlar Birliyinin adından Mədəniyyət və turizm Naziriliyinə və şəxsən cənab nazir Ə.Qarayevə minnətdarlığımızı bildirirəm.

Söhbəti qələmə aldı:
Elşad Çobanlı

SAZ DÜNYASI, SÖZ DÜNYASI

- Saz olan yerdə sözü saza verərlər.
- Qabil şagird ustad olar ustadan.
- Vaxtkən oxu, aşıq,
  El gələr, tünlük olar.
- Aşıq el atasıdır.
- Aşıq ya səbir, ya səfər.
- Aşıq gördüyün çağırar.
- Aşıq deyər: Qocalmazdım,
  Olmasaydı toy axırı.
- Aşığın qılıncı-qalxanı bir sazıdır, bir sözü.
- Aşığın sazı boynunda, sözü boğazında.
- Aşığın sinəsi haqqın bazarıdır.
- Aşığınkı haydandır, mollanınkı vaydan.
- Çox aşıqlar yarı yolda qalıblar.
- Aşığı istəyən, şagirdi də istəyər.
- Aşığın sazını aldın, ya canını.
- Aşıqsız toy uğursuz olar.
- Aşıq ilqarlı, gözəl idbarlı olar.
- Aşıq dəm gətirər, molla qəm.
- Aşıq olmamışdan məclis axtarır.
- Aşığı dastanda, bostançını bostanda sınarlar.
- Aşığın sazı əlində, mərifəti dilində olar.
- Aşığın dilini aşıq bilər.
- Aşıq oxumayınca qədri bilinməz.
- Aşığın tökdüyünü şəyird döşüyər.
- Aşıqdan qonaq olmaz.
- Aşığa hər yer məhrəmdir.
- Aşıq məclis yaraşığıdır.
- Aşığın sazı çiynində, zənguləsi boğazında olar.
- Aşıq kimi çoxbilmişdir.
- Aşığın ağılı, huşu cəm olar.
- Aşıq harda, məclis də orda.
- Aşığı ilqarda, dostu darda sınarlar.
- Aşığın sinəsi haqqın bazarıdır.
- Aşığın irsi, şagirdin dərsi.

- Aşığın sözü poladdan keçər.
- Aşıq ağladan çətin gülər.
- Saz aşığın dövləti, söz aşığın sərvətidir.
- Saz aşığın, söz məclisindir.
- Sazla oyun olmaz.
- Sazı olan aşığın sinəsi sözlə dolu olar.
- Abad məclis aşığından bəllidir.

***

Xalqın əzəməti, fikri, xəyalı,
Onun hissi, zövqü, ağlı, kamalı
Sanma bir qılıncda, bir hünərdədir,
Bir də bu sazlarda, bu sözlərdədir.

(Osman Sarıvəlli)

Millətimi saz anladar, saz anlar,
Saza baxsın tarixmi yazanlar.

(Zəlimxan Yaqub)

***

Evimə ozan gətirmişəm,
Pərkar pozan gətirmişəm.
Gündüz olan işləri,
Gecələr yazan gətirmişəm.

(bayatı)

Toplayanı: Mirzə Məmmədoğlu

Dastan dünyası

AŞIQ ŞENLİYİN BORÇALI SƏFƏRİ[1]

Bəli, sizə hardan xavar verim. Qasımlı Səməd bəydən, Səməd bəyə Niqalay padşah on iki il iş verif əyğinə, əlinə qandal vuruf Sibirə, katorquya sürdü. Ancax o, Sibirdən sinəsinə yatan iyiddərdən götürüf qaçıf gəlifdi Boşşalıya. Boşşalıda harda dəli-dolu qaçaq-qoçax varsa, başına yığıf başdef qaçaqlığa. Niqalaya xavar çatıf ki, Qasımlı Səməd bəy qaçıf. Yüz əlli-iki yüz qazağı arxasıncax salıf başdeflar vuruşa-vuruşa Səməd bəyi gəzməyə. Onnar da ki, qazaxı qırıf qoyluyuflar, dalı gəlir, azalmax bilmirdi.

Bəli, beləjə vaxt keşdi. Payız düşdü. Səməd bəy dedi ki, uşaxlar, qavaxdan yağı kimi qış gəler. Sarı qazax qoymuyajax rahat çörəh yəəh, çünki çuğul ölmüyüf. Gəlin Türkiyəyə keçək. Yazına genə burya gələrih. Qıymatda ağır, vəzndə yunul nə varsa, xurcunnara təpif yola düşdülər. Keçdilər Çıldır Mahalına. Çıldır mahalının Şamdıra deyilən bir balaja kəndinə gəldilər. Soruşdular ki, bu kəndin başçısı, qonaqçı kimdi? Dedilər, Bavakişi oğludu. Gəlif Bavakişi oğluna qonax tüşdülər. Səməd bəyin başında da kimlər oluf: Avdallı Kor İsmeyil, Darvazdı Mehralı, Kor İsmeyilin qardaşı Hasanbala, bayısı oğlu İsabalı Mahmud oğlu, kişmiş təpəli Çoyuşun oğlu Osman, daa kimilər... Bu kənd oluf-qopan otuz-otuz beş öy oluf. Düzdü, Bavakişi oğluna ki, qonax oldular, ancax burda, ədətiydi, birinin öynə qonax gəlsə, hamı qonax aparırdı: savax biri, günorta biri, axşam da o biri. Amma tüşərgə yerrəri biriydi. Camaat baxdı ki, qavaxdan qış gəlir, bunnar da gedəsi qonağa oxşamıllar. Deyəllər, o adamın öyü dağılsın ki, qonax istəməsin, o qonağın da öyü dağılsın ki, axşam gəlsə, savax duruf getməsin. Qonax bir gün olar, iki gün olar, daa həfteynən, aynan yox.

Ağsaqqal, qarasaqqal yığılıf tədbir tökdülər, dedilər: qonax var pendir-çörək qonağıdı, qonax var, bir töyüx, ya bir cüceynən yola düşər, qonax da var ki, erkəhnən də yola tüşmür, gərəh tuncu mal olsun. Bunnar on səkkiz adamdı, on səkkiz atdı. On səkkiz ata gündə otuz altı çanax arpa lazımdı. Özdərinə üç öynə yeməh, o da quzu ətinnən ploy. Buna bizim tavımız olmuyajax. Doqquz ay da ki, qışımız var. Bə neyliyək?

---

[1] *Dastan Aşıq Hüseyn Saraçlının söyləməsi əsasında folklorşünas alim, professor Mürsəl Həkimov tərəfindən yazıya köçürülüb. Bax: M.Həkimov. Azərbaycan xalq dastanları, əfsanə-əsatir və nağıl deyimləri. Bakı, "Maarif", 1999.*

Bavakişi oğlu dedi: musafiri qoylamax olurmu ya? Nə edək? Toplaşannar dedi ki, Bavakişi oğlu, sən de, bizdə elə qüvvə yoxdu. Yer qaraykən, yanı qar yağmamış başıyın çarasını qıl.

– Elə demək olurmu?

– Niyə olmur? Xəjələt olmaqdansa, demək yaxşıdı.

Bavakişi oğlu bir axşam qonaxların yanına gəlif dedi:

– Əzizim Səməd bəy, incimeyin, bir söz dəəjəm.

Bəy dedi:

– Buyurun.

– Bəyim, bizim doqquz ay qışımız var, sizi saxlıya bilmiyəjiyik. Yer qaraykən başıyın fikrini çək.

– Əfəndim, biz sarı qazağın əlinnən qaçdıx. Burda bir quş gəlif budağa sığınan kimiyik. Siz qoyluyanda harya gedək?

– Sağ olmuş, sizi qoylamırıx ki, adın dünüyü tutuf – Səməd bəy belə gəldi, Səməd bəy elə getdi, kəndində hünər varsa, bu tərəfdə, Ağrı dağının dalında Calalı kürdlər var. Bir mahaldı, nə İrana xarc verif, nə Osmanlıya. Get onu çal-çap gəti, sən də ye, biz də yəəh.

Səməd bəy dedi:

– Uşaxlar, atdarı hazırreyın.

– Əfəndim, bizə bələdçi ver. Biz oruyu tanımerrıx.

– Bəy sağ olsun, bələdçi mən özüm.

Bavakişi oğlu bələdçi oldu. Atdandılar. On doqquz atdı işıxlanar-işıxlanmaz Calalının torpağına çatdılar. Gördülər ki, mal-qoyun düzü-dünyeyi tutuf. Səməd bəy uşaxlardan bir neçəsini seçdi, dedi, uşaxlar, malı qoyuna, qoyunu çovana, quzuçuya, sığırçıyı ilxıçıya qatıb dalınnan vurarsınız. biz qəsəbəyə girəjiyik. Balaja şəər kimi qəsəbələri varıydı. Tüşdülər şəərə, əllərinə keçən kürdü qılıncladılar. Kürdlər elə bildi göydən əjdaha enif. Bilmədilər nağayırsınlar. Əllərinə keçən qıymatdı şeylərdən hərəsi bir xurcun basdılar. Gördülər günün saraltısı dağlardan kəsilir, meydanda da bir kişi görükmör. Səməd bəy dedi:

– Uşaxlar, mal-dövlət indi Şamdırıya çatmış olar, getmək lazımdı. Bavakişi oğlu dedi:

– Düz deyirsən, o dağların zağalarında çox qanmaz kürdlər var, onlar bilif gəlsə, yaxşı olmaz. Getmək məsləhətdi. Odu ki, atdarı sürüf Şamdırıya çatdılar. Baxdılar ki, döylət sel kimi yeriyif. Burda Səməd bəy malı, qoynu, atı dədəsi Daşdəmir ağanın malı kimi bütün kəndə payladı. Qalanna naxırçı, çovan tutub dedi:

– Bavakişi oğlu, indi bu mal-döylət bizə bəs elləyərmi?

Bavakişi oğlu dedi:

– Bəyim, əlim Allahda, yeddi sənə bəsdi.

– Onda sən nə dedin, biz əməl ellədik, indi mən nə desəm sən əməl elləməlisən.

– Baş üstə!

– İndi bizə dörd qoçax aşvaz, dörd gəlin, dörd qarı ver, fətir pişirsin, dörd qoçax gəlin də çay qaynatsın.

– Baş üstə!

Başdadılar malı, qoyunu qırıf yeməyə.

Bəy dedi:

– Əfəndim, bu doqquz ayda bir yana çıxmax, gəzməh varmı, yoxsa bu dörd divar arasında qalajıyıx?

Bavakişi oğlu dedi:

– Əlim Allah, buralarda elə qar gələr ki, mal-at töylədən çıxmaz, naib-nökər quyulardan su çəkib içirdərlər.

– Onda biz neyliyək? – Mən Boşşalıdanam, kefçil oğlanam. Mana bir yanşax, yanı aşıx taparsan, bir sinədəftər də molla, yoxsa bağrım doyşan bağrı təki çatdıyar.

Bavakişi oğlu dedi:

– Mən haradan alım sizin o Boşşalı mahalının aşığını, sazı nar dənəsi kimi oycuna qoysun. Bizim bu qalpax papaxlarda nə elə yanşax, nə də elə molla bula bilərsən. Ancax Çıldır mahalının Suxara kəndində bir yanşax var. Özü də haqq aşığıdı, adı Şennihdi. Bilmirəm xoşuna gələ, gəlməyə? Özün bilərsən.

Səməd ağa dedi:

– Əşi, mana haqq aşığı lazımdı. Hədər-cüvərən aşığı neynirəm. Ağ otdan balta sapı, qırılanda birni də safla! Uşaxlar, Şahmarı yəhərriyin. Şahmarın uğuru kəsərridi. Qara daşa getsə, boş qayıtmaz. Götürüf bir namə yazdı ki, Aşıx Şennih, başını orda isdat, burda qıxdırajam. Yazan Boşşalı eşqiyə Səməd bəydi. Naməni verdi atdıya, atdı sürüf yola düşdü. Çıldır mahalına.

Şamdıra köyünnən Suxaranın arası iki ağacdıx yoluydu, yanı altı verst. Atdı gəlif çatdı Suxarıya. Suxara Çıldır gölünün qırağı uzunu düzülü köydü. Gölün qırağında iri daşdıxda ağsaqqal kişilər söhbət elləyirdi. Xoca və Aşıx Şennih də burdoydu. Atdı camaata salam verdi. Salamını aldılar.

– Xoş gəlifsən, – dedilər. Biri irəli çıxıf dedi:

– Oğul, atdan düş, qonax ol.

– Əvvəlcə deyin görüm, Aşıx Şennih burda varmı?

– Bəli, burdadı.

– Bu namə onundu.

Şennih naməni aldı, ancax oxuya bilmerdi. Xocuya verdi.

– Xoca, bu namənin məzmununu mana qandır, – dedi. Birdən Xocanın əlini tutdu, dedi, aya, bərkə pünhan namədi. Çəkildilər bir tərəfə. Xudu xoca dedi:

– Balam, səni eşqiyalar çağırır.

Şennih dedi:

– Əfəndim, mən nejə varım. Dövlət paşası eşitsə, boğazıma qurğuşun tökər.

Xoca dedi:

– Olan, get, hamsı birdi, getməsən də eşqıyalar səni öldürəllər.

Şennih atdıya dedi:

– Oğlum, sən get, kəndim şam vaxtı gələrəm.

Axşam sazını götürüf gəldi həmən məclisə. Savaxdan axşama, axşamnan savağa aşvaz qazanı sönmürdü, işdəri-peşələri elə çalmax-çağırmağıydı. Camaat da axşam-savax yığılıf yeirdilər. Nə vejdərinə? İmarətə xarcı çıxmıyan elə bilir çöl kövələyidi. Ancax çuğula nooluf, Allaha şükür, biri ölsə, beşi doğular. Bir quduz var, axşam-savax malın-qoyunun baş-ееyğini daşıyır. Papağı qavağına qoyuf fikirrəşdi: mən elə baş-ееyəxmi yəəjəm? Bə neylim? Öz-özünə dedi: gəl Hüdud paşasına xavar ver, bunnarı qırsın, bu talan maldan özdəri də aparsınlar, mana da versinlər. Ətəyini belinə çirmeyif yola tüşdü, düz Zurzunuya.

Deyəllər Zurzunada Qazı Əfəndi paşa başında yüz əsgər postda durordu. Şamdırıynan Zurzunanın arası altı ağacdıx yoldu. Gejəynən gəlif çıxdı Zurzunuya. Əsgərrər onu tutdular.

– Olan, kimsən, nəçisən?

– Qazı Əfəndiynən söhbətim var.

– Olan, Qazı əfəndi xabıda uymuş, yanı yatır, onu oyatmax olurmu ya?

– Olan, sübhə qalsa, işiniz kötü olar.

Amma əsgərrər gördülər ki, bu, sözdü adama oxşuyur, dedilər oyadax. Qapını döydülər:

– Paşa, oyan!

– Nə var, əfəndim?

– Bir hərif kəndini bəkliyor.

– Olan, buraxın gəlsin!

Hərifi yoxluyuf buraxdılar. Çuğul girən kimi ədəb-ərkənnən salam verdi.

– Oğlum, nə var?

– Əfəndim, Boşşalı eşqıyaları Calalı kürdünü çalıf-çapıf gətirdi. Şimdi Şamdırada yeyif-içməhdədilər.

– İştə, yanşax da çunbuş yapuyor, yanı, saz çalır, oxuyur. Savax nə sana baş əyər, nə Dövlət paşasına, özü üçün bir ağadı.

Gəl gör ki, Qazı Əfəndi bu işi bilirdi. Fikirrəşdi ki, islam qardaşdı, mana dəymiyən qurd yüz il yaşasın. Calalı kürd onsuz da mana xarac vermir. Ancax bileydi ki, bu təkdi, burda kəsdirərdi başını. Elə bildi bir neçəsi də İstanbula gedif, ürəyində dedi:

– Olan, bu xınzır oğlunu bən bə bilməməliydimmi? Olmazdı, gərəh getsin.

Əsgərə əmr verdi. Suvari hazır oldu, sürdülər gejeynən Şamdırıya, Quduz çuğul da yanınnan əl çəkmirdi.

Qazı Əfəndi onnarı qırmax istəmirdi. Dedi:

– Oğlum, köyü yaxaladıx, iştə. Get gör genə həmən dəmidövran-dadılarmı?

Çuğulu başınnan əkdi. Əsgərə əmr verdi ki, mərd qardaşdı, iştə, ataş yapın, ancax aradan yol verin bir yana getsinlər, birini də vurmuyun, mən bağırajam ki, qırın, ancax siz burdakı sözü yaddan çıxartmayın. Qazı əfəndi bu tapşırığı vermişdi ki, çuğul qayıdıf dedi ki, Səməd bəy dirsə-yində müttəkkə-yasdıx, axşamnan əyləşif, yanşax da çunbuş yapıyor.

– Of, anasını satdığım, ağlın urusun sarı kazağınamı gedif, əəyğini tırpıldadanda qoyun kimi ülküşə. Mənim bu füsküllü fəs əsgərimin qurğuşununun dadını görmüyübsənmi?

Dörd yanı üzük qaşı kimi arıya aldılar. Amma Səməd bəy bir qarolçu tutuf tafşırmışdı ki, qar yağana kimi damın üstündə dursun, qar yağannan sonra heç kim gələ bilməz, yol bağlanar. Yenijə dan yeri ağaran kimiydi, qarolçu tez içəri yüyürdü ki, ay bəyim, bizim əsgər hər tərəfi bürüyüf. Səməd bəyin heç vejinə də gəlmədi. İsmeyil peykannan sıçradı, əlini aynalı tüfəngə yetirdi. Səməd bəy dedi:

– Əyə, İsmayıl, nağayrersan?

– Ay bəyim, görmörsən nə deyir?

– Nə deyir? Məclisə pozğunnux salma, yerində otu!

Oydu ki, camaat təmiz dağıldı. On səkkiz qaçaxdan başqa heç kim qalmadı. bir də Aşıx Şennih. Səməd bəy əmr verdi ki, aşpaz qazannarını gətirin! Dedilər ki, bəy sağ olsun burdan salamat çıxajeyıxmı ki, sən hələ yemək gəterdersən?

Canım, işinizə baxın, öləndə də tox öləh. Aj niyə ölürük? Qərəz, yaxşı yedilər. Səməd bəy bığlarını eşdi, dedi:

– Uşaxlar, atdarı hazırreyn.

Ona kimi işıxlandı Səməd bəy dedi:

– Aşıx Şennih, bağışda, işimiz tələsik oldu. Burdan salamat qurtarsax, səni Boşşalıya gətirdərəm, dünya malınnan qane edərəm. İndi bu sağ civimnən baxtına nə çıxsa, sənindi.

Əlini arxalığın civinə saldı. 25 tümən qızıl pul çıxdı. Aşıx öz-özünə dedi:

– Öldürməsələr, ölümə də bəsdi, dirimə də.

Səməd bəy dedi:

– Aşıx Şennih, dava-atış kəsəndə Bənöyşə dağına bax, gör neçəmiz ölmüşüh, neçəmiz qalmışıh.

İsmeyil irəli duruf dedi:

– Əziz bəyim, sana bir sözüm var.

– Buyur, İsmeyil!

– Bəyim, sənnən çox yoldaşlıx elləmişik, qıyamat ayrılığıdı, axirət haqqını halal ellə!..

Köyrəldi, gözü doldu...

Səməd bəy dedi: "İsmeyil, heç belə olmamışdın. Sana nooluf?"

İsmeyil dedi:

– Bəyim, bu xına ayrı xınadı. Əsgər həyət oylusuna gözdüyür. Gün də bir çatı boyu qalxıf.

– İsmeyil, qorxma. Şahmarı irəli salajam, dalımcax durna kimi gəlin, çox dağılmayın. Qaçağa qaç deyiflər, qaçıf. Çıxmağa baxın.

İsmeyil dedi:

– Bəy, bir xahişim var, qoy qavaxcax mən çıxım, məni vursunlar, sənin ölümünü görmüyüm.

– İsmeyil, onda mana nə dəəllər? Dəəjəhlər ki, qorxudan özü çıxmadı.

– Səni and verrəm ağan Daşdəmirin başına, qoy mən çıxım!

– Çıx, ancax bir sözüm var: olmuya-olmuya bir əsgər vurasan, qoyun, qanımız burda tökülsün, bir də sarı qazağın üzünü görmüyək. Uşaxlar, xurcunnarda yemək də götürün, ağayana gedin.

– Burdan salamat qurtarajıyıxmı?

– Aya, işinizdə olun, baxın ölən öləjək, qalan gənə yemək yeyəjək. Sonra Səməd bəy üzünü Şennihə tutuf dedi:

– Aşıx, salamat ol, sən qorxma! Deynən məni eşqiya Səməd bəy zornan gətirdi.

Oydu ki, atışma başladı, amma havıya. On səkkizi də sağ-salamat aradan çıxdı. Aşıx Şennih gəldi ki, görüm vurulan varsa, içəri çəkim. Baxdı ki, aynalının patronu oğlax kimi məliyir. Barıdın tüstüsü çən kimi hər yeri bürüyüf. Tez özünü içəri verdi. Bir azdan atışma kəsdi. Aşıx Şennih eşiyə çıxıf gördü ki, qaçaxların on səkkizi də Bənöyşə dağının döşünnən dırmaşıllar. Hamısı səf durdu. Allah, sana şükür dedi. Səməd

bəy Şahmarı sürüf atın yeddi oynunu oynatdı, üzəngiyə qalxdılar. Papaxları qılınca keçirif üç dəfə baş əydilər. Aşıx elə bildi ki, ona baş əyillər. Bir də gördü ki, Qazı Əfəndi o yanda durub əhsən deyir. Tez özünü içəri saldı. Dalınnan iyirmi iki əsgər içəri girdi:

– Olan, xana sahibisən?

– Xeyr.

Biri sazı görüf dedi:

– Olan, bu həndəm kimin ola?

– Bənimdi.

– Olan, eşqıyalara çünbuş yapan sənmisən?

– Əvət, bənəm.

Biri aşığın qolunu tutdu, o biri dedi:

– Get, Qazı Əfəndidən əmr istə, görəh neçə zopa vurax?

– Bu yerdə paşa gəldi.

– Olan, bu, xana sahibidimi?

– Xeyr, bu eşqiyalara çünbuş yapandı, yanşaxdı.

– Xınzır, açın bunun qollarını. Heç yanşağın qolu da bağlanarmı?

Qolunu açdırıf dedi:

– Oğlum, nasıl oldu, sən buraya gəldin? Duymadınmı, eşqıyalara çünbuş yapmaq yasaqdı?

– Nə edim paşam, əmr etdilər, gətirdilər.

– Olan, deyə bilərsənmi onnar nasıl igiddilər?

– Paşam izn versə, həndəmnən dəərəm, nasıl igidilər.

Səfil Şennih başdadı Osmannı dilinnən "Koroğlu bozuğu" havasında oxumağa:

Səməd bəynən İsmeyilin seyrinə vardım,
Bu diyarı gəzə-gəzə, Əfəndim!
Səməd bəy namında bir iyid gördüm,
Vəsfini qaldırdım saza, Əfəndim!

Mahmud oğlu deylən bir ətdən qala,
Mehralı da bənzər Rüstəmi-Zala.
İsmeyil baş əyməz yeddi krala,
Nə düşdün onnarnan bəsə, Əfəndim!

Paşa dedi:

– Bunnarın böyüyü hansı oldu?

Aldı Aşıx Şennih:

Səməd bəy deyiləndi onnarın başı,
Çoyşoğlu şahların alıcı quşu.
Yanında vardı çox iyid yoldaşı,
Onnarı da Koroğlu say, Əfəndim!

– Olan, yanşax, onnar tüşmən əlinnən qaçıf, yoxsa hökumət əlinnən?
– Paşam, qoy deyem:

Bir vaxt göndərdilər Sibir yerinə,
Yüz min bala gəldi onun sərinə.
Fərmansız xan oldu qılınc zoruna,
Hökm edirdi divan-kəsə, Əfəndim!

– Olan, yanşax, onnarın iyidliyi yalqız rus torpağındadı, yoxsa ayrı diyarda da bilinyormu?
– İcazə ver, deyem:

Alosman elinə talan saldılar,
Calalı Kürdüyə qılınc çaldılar.
İran ölkəsinnən xarac aldılar,
Şahı da saldılar yasa, Əfəndim!

– Oğlan, nə yaman kötü danışdın, bəs nasıl oldu ki, heç əsgər vurmadılar?
– Paşam, qoy onu da deyem:

İsmeyilin bir baxışı yağıdı,
Bəy əmr etsə, min qazağı dağıdı.
Sarı qazax onlar üçün yağıdı,
Qıymadılar qızıl fəsə, Əfəndim!

– Yoxsa elə qırardılar biriniz də qalmazdınız, – dedi.
– Olan, saza, sözə nasıldılar? Sevərlər, yoxsa nasıl?

Səməd bəy əmr etsə min qazağı calallar,
Onnarı görənlər məəttəl qalallar.
Ustaddardan əhli-mərfət alallar,
Müşdahdılar saza, sözə, Əfəndim!

– Olan, yanşax, deyə bilorsun, səxavət əlləri nasıl?

– Dəərəm, əfəndim, dəərəm:

Paşa səltənətdi, asdan qırımlı,
Bəlli bədöy minər, qulac kərimli.
Hər nə verəndə də bir can verimli,
Baxan döyül çoxa, aza, Əfəndim!

– Olan, onnarın əvəzi bizim ölkədə olurmu?

Şennih fikirləşdi ki, hamısı birdi, bu məni cəzalandırajax, gəl de ki, bu diyarda onnarı tutan olmaz. Götürüf dedi:

Şennih mədh eliyər iyid sirrini,
Kimsiyə verməz heç gizdin sirini.
Səməd bəynən İsmeyilin yerini,
Bu diyarda verməz kimsə, Əfəndim!

Söz tamam oldu. Paşa əlini civinə atıf, iki oyuc Osmannı altunu verif dedi:

– Yanşax, mən də gördüm ki, onnar iyiddilər. Əyər kəndin dansaydın, boynunu vurajaxdım. Ürəyin istədiyini götü, çıx get, bir də belə işə gəlmə. Allah sənə ömür versin!

Bəli, Səməd bəy, keçif gəldi Boşşalıya. Niqalay Yaponiyaynan dava elliyirdi. Qaçaxlar Yapon davasına dəstəsinnən getdilər. Yaponu rus basdı. Səməd bəy çox böyük hünər görkəzdi. Qoşun böyüyü bunnarı qələmə aldı, Niqalaya xavar verdi. Niqalay bunnarın günahını bağışladı.

Aşıx Şennih bunnarı Çıldırda eşitdi. Boşşalıya gəlməli oldu. Amma yolunu bilmirdi. İrvahım adlı bir çovuş varıydı. O, Boşşalı mahalını yaxşı tanıyırdı. Şennih dedi ki, İrvahım, deyillər Səməd bəy bağışdanıf. Sana da xeyir verrəm. Yola tüşdülər. Sağamoydan aşdılar, Əyriqardan iri daşdığa gələndə onnarı yağış möhkəm istatdı.

Başkeçidin Qəmərri kəndinə çatanda yağış kəsdi.

Günün axşam tərəfiydi. Qəmərri kəndində uşaxlar başdarına yığışdılar. Hərə bir yannan soruşdu:

– Əmi, aşıxsınızmı?

Aşığıyız, oğul.

– Onda bizə saz çalarsınızmı?

– Çalarıx, bala, ancax bizi bir isti, qonaxcıl öyə aparın. Uşaxlar onnarı Oyçu oğlu İsmeyilin öyünə gətirdilər. İsmeyil kişi öydə yoxudu. Gəlinnər buxarıyı qaladı. Onnar üst-başdarını qurutdular.

Gənə uşaxlar gəlif dedi:

– Əmi, dedin sizə saz çalarıx, bə havax?

Şennih dedi:

– İrvahım, sazı ver, bunnara görüm bir hava çala bileremmi? Sağ olsun bu uşaxlar, yoxsa ölərdik.

Payızın söyüx tüşən vaxtıydı, sazı da yağış islatmışdı, ha dınğıldatdı, saz düzəlmədi. Baxdı ki, geri yanınan tımbıltı gəler. Sən demə kürkün dalı quruyuf donbalıf. Uşaxlar çuvuxnan qurdalıyanda toy kimi səs verir, iki uşax kürkdə toy çaler.

– Ay bala, neyliyersiniz?

– Hə, əmi, heç zəhmət çəkmə. Sənin sazıyın səsinnən bu kürkün səsi yaxşıdı.

– Oğlum, düz deyirsiniz, döşüyün.

Sonra üzünü İrvahıma tutuf dedi:

– Öyün yıxılsın, buranın uşağı belə olanda, gör böyüyü noolar?

Bu yerdə öy yəəsi gəldi. Salam da yadınnan çıxdı.

– Ə, aşıxsınızmı?

– Bəli, ay katda.

– Hə, bir çalın görəh. Sizin geyiminiz laf Ağbaba adamına oxşoyor.

– Bəli, ordanıyıx.

– Hə, orda – deyillər, – Çıldırrı Aşıq Şennih var, bax, onun sözdərinnən bilirsinizsə, oxuyun.

– Baş üstə, eləmi bilirik ki!...

Şennih götürüf burda nə dedi:

Allahı sevərsən, qonaq et bizi,
Səhər bir müddətə duruf gedərik.
Gözdən iraq oluf, konuldan cida,
Lap elə dərbədər oluf gedərik.

– Əyə, mağıl oxuyun. Mən qonaxcıl adamam, Şennihdən oxuyun.

– Baş üstə:

Qonaxcıl dedilər, biz gəldik sizə,
Öz adına layiq hörmət et bizə.
Günahkar bəndəydik, göründük gözə,
Bildir yağan qardan alıf gedərik.

– Əə, niyə elə deyersən?

Savah duran kimi bizi səsdiyin,
Paramız olmasa, bizi qısdıyın.

Atımız var, müşdərini səsdiyin,
Dəyər-dəyməzinə satıf gedərik.

Oyçu oğlu dedi:

– Əyə, aşıx, niyə elə söz oxuyursan. Mən elə adam deyləm. Ə, ləhcəniz osmannı adamına oxşoyor. Olma elə Şennih sənsən?

– Katda, qoy deyim:

Şenniyi görüfsən, abdal posdunda,
Nə durufsan, sən də onun qəsdində?
Qafa peykanında, həsir üstündə,
Yorğansız, döşəksiz yatıf gedərik.

Oyçu oğlu gördü ki, ə, bu elə Şennihdi, dedi:

– Amandı, Aşıx Şennih, vallah, tanımamışam. Əyə, ay qırılmış, bunnar çörəh yemiyiflərmi? Əyə, durma, bir erkəh gətir kəs, surfa aç.

Məclis quruldu, yaxşı yeyif-içdilər. Savax gənə çay-çörəy yeyif yola tüşən vaxtı öy yəəsi Şenniyin qavağına yüz manat qızıl pul qoyuf yola saldı.

Gədihlərdən aşıf, gəlif çıxdılar Bolusun Avdallı kəndinə. Kor İsmeyilin öyünə tüştülər. İsmeyilin külfəti onnarı qonax qavıl ellədi. İsmeyili soruşdular, dedilər ki, Qızılhajılıya kirvəliyə gedif.

– Kimə?

– Cöyrə kişinin oğlu Qaraya.

Ordan qalxdılar, yolu ələ alıf gəldilər düz Qızılhajılıya.

Toy öyünnən bir uşax çağırdılar, dedilər, bala, get soruş burda Avdallı İsmeyil kimdi, denən qonax gəlif, çağırır. İsmeyli çağırdılar. İsmeyil gördü ki, Aşıx Şennihdi. Öpüşüf görüşdülər.

– Gedəh, – dedi, düz içəri toya apardı.

Şennih dedi:

– Aşıx səsi gəldi, orda aşıx varmı?

İsmeyil dedi:

– Bəli, var.

– Onda mənim həndəmimi bir pünhan yerə qoyun. Aşığın üstünə saz aparmazdar.

Sazı bir qonşuya qoyuf getdilər məclis olan otağa.

Amma di gəl gör ki, ağaların hamısı altdarında döşək-mütəkkə oturmuşdular, heç Aşıx Şenniyi saymadılar. Məclisin əəyəğində qaldı. Ortada iki aşıx oxuyurdu. Kim kiməydi? Bu, İsmeyilə çox yer elədi. Duruf kirvəsini çağırdı eşiyə, dedi:

– Kirvə, sənnən bir qat paltar isteyerem, əəyəxdən başa təzə, bir saada omasa, kirvəliyi pozajam, atdanıf gedəjəm.

Cöyrə kişi dedi:

– Kirvə, bu nə sözdü? İstiyirsən laf on qat olsun, nə çoxdu, Əlyətdə dərzi, paltar. Bu saat!

Bir adama kağız verif, nə lazımdısa yazdı. Bir saada paltar gəldi. Möndülədən arxalıx, şalvar, üstündə mahutdan gümüş vəznəli çuxa, bir sallama sarı başdıx, gümüş kəmər, xancal, bir çərkəzi, gümüş türk saatı, əəyğinə bir məs, üstünnən də qondarğa. Aşıx Şennihi çağırdı xəlvət bir yerdə geyindirdi, oldu bir bəy, Şennih də yaraşıxlı adam olub, sarıyanız, göygöz. Onu yanına salıf məclisə gətirdi. Bəylər dirsəhlənmişdilər, elə bildilər, Gəncədən bəylər bəyi gəlif. Tez hamsı əəyğə qalxıf dedilər:

– A bəy, buyurun başa!

İsmeyil özünü saxlıya bilmədi, dedi:

– Əyə, a tazı-tula qoyloyan ağalar, bu bəyəx əəyxlihdə qalan o kürklü kişi döyülmü? İndi nooldu birdən.

Ağalar hamısı bir səsdən dedilər:

– İsmeyil, bizi bağışla. Bu kimdi?

– Bu Çıldırrı Aşıx Şennihdi.

Təzədən hamısı əyəğə qalxdı, üzr istədi. İsmeyil onun sazını gətirtdi, minnət ellədilər ki, bir-iki kəlmə oxusun. Aşıx Şennih sazı köhlüyüf burda bir "Osmannı divanısı" çalıf-oxudu:

Ey fələh, sənin dövrəndə,
Abad olan görmədim.
Gedib çənginə tüşüf,
Geri gələn görmədim.
Çox Süleymannar hükmünü,
Edərdi Qafdan-qafa:
Taxtında barqarar oluf,
Binə salan görmədim.

Ərşdəki löhü-qələm,
Qərq oldu nuruna.
İncil, Zəbur, Tövrat, Quran –
Yetmək olmaz sirrinə.
Firqətdən dərs alan,
Daa dalar dərinə.
Adı haqqam deyən qulda,
Qeyri-yalan görmədim.

Səfil Şennih eşqə düşüf,
Eşq ujunnan dardadı.
Xudamın bir nişanı,
Ən ibtida nurdadı.
Qurvan olum Çıldıra,
Ədəb-ərkan ordadı.
Diyar-qürvət vilayətdə,
Qədirbilən görmədim.

İsmeyil dedi:

– Ömrün uzun olsun, aşıx, nə yaxşı oldu ki, qədəmlərini bizim torpağa basdın?

Aşıx Şennih cavavı saznan-söznən verdi:

Çox andım ismini, əzvər eylədim,
Sən tüşdün fikrimə gənə, İsmeyil.
Mövlam hökm verif, bilinməz sirri,
Gündə girər yüz min dona, İsmeyil.

Hər nadanın məclisində əylənməz,
Laf atınnan hirsli-hirsli söylənməz.
Seyrequf yurdunu abad eyləməz,
Zülümnən qurdurmaz binə, İsmeyil.

Qoçax iyidlərin sığmaz qələmə,
Əl pəncədə hamsı durar salama.
Qafdan-qafa bayan edim aləmə,
Bənzər ədalətin günə, İsmeyil.

Qovğa günü dağı dələr cidası,
Koroğludan çoxdu bunun ədası.
Zal oğlunan artıx gəlir sədası,
Bərəkallah, belə ünə, İsmeyil.

Əflatun xub kamal, əhval bilici,
Şahin caynaxlısan, tarlan alıcı.
Hər zaman çəkəndə əyri qılıncı,
Qan etməmiş qoymaz qına, İsmeyil.

Sən də oldun Koroğluya baravar,
Hər divanxanada şikayətin var.

Şahlardan qətlinə gələn fərmannar,
Hesaf etdim, çıxır minə, İsmeyil.

Məmləkətin şana kimi darandı,
Şam, Hələbdə, Qeysəridə var adı.
Zamanda bir qəhrəman törədi,
Səddi-İsgəndərdi fəna, İsmeyil.

Layıxdı ki, Çanlıbeldə əylənə,
Koroğludan ədalətdi söylənə.
Bəzirgannar poza, cənglər paylana,
Dağlar dönə zimistana, İsmeyil.

Kəşmir, Şiraz qüvvətinnən bezdilər,
Çin-Macində eytiyatın düzdülər.
Bakıda da şəkilini yazdılar,
Göndərdilər Həşdərxana, İsmeyil.

Orda da durmadın, aşdın İrana,
Seyraquf yurdunu etdin virana.
Yeddi iqlim şaha qarşı durana,
Calallanıf qılınç çaldın, İsmeyil.

İranda xanıynan iddiya düşdün,
Alosman mülkündə durmadın, keçdin.
Rusiya çarınnan yeni barışdın,
Arxa verdin Gürcustana, İsmeyil.

İyid odur, dözə iyid yolunda,
Hökmün işdər hər divana elində.
Şennih kimi şairlərin dilində,
Dastan oldun hər lisana, İsmeyil.

Söz tamama yetişdi. Hamı əhsən dedi.

Qızılhacılıdan yola tüşməh vaxtı gəlif çatdı.

İsmeyil dedi:

– Qardaş, man sana hələ nəmər vermirəm. Ağam Səməd bəy nə versə, onnan əysik verəsiyəm ki, bəyin xətrinə dəyməsin.

Elə də elədi.

İsmeyil Şenniyin təzə paltarnı görkəzib dedi:

– Qardaş, Boşşalıda azğın-azğuna rast gələrsən, soyun aparım öyə, gəlif geyinərsən.

Həmən gün Aşıx Şennihnən İrvahım Hallavarın yanınnan Bəylər kəndinin içiynən keçdilər kiçik Şülöyrə. Burda onnarı erməin qoruxçuları tutdu. Şər-şərvət ellədilər. Burda Şennih sazı sinəsinə basıf görəh nə deyəjək dört nəfər Şüıöyür ermənisinə:

Biz güzar ellədik sizin ellərə,
O gözəl xudaya bağışda bizi.
Gəl incitmə, verim dəyən zararı,
Aldığın paraya bağışda bizi.

İrvahım çovuş ermənicə bilirdi. Dedi:

– Əyə, bunnarın fikri ayrıdı. Gör nağayrersan, İsənin, Məryəmin adını çək, bərkə əl çəkələr. Aldı dübarə:

Gəl incidif, biznən etmə davanı,
İstərsən İncili, Tövrat, Quranı.
Sevərsən İsanı, Həzrət Musanı,
Ol Məryəm anıya bağışda bizi.

İrvahım genə işarət verdi ki, indi də ağanı nişan ver:

Ağam Səməd bəydi, yolumu gözdər,
Məkanım Çıldırdı, elimə göndər.
Sefil Şennih sizə iltimas edər,
Mehmet Mustafaya bağışda bizi.

Biri dedi:

– Ara, qaçax, Səməd bəyi dedi, gəlin, gedax, aldığımız da biza basdı. Oydu ki, buraxdılar. Şennihnən İrvahım getdilər birbaşa Qasımlı kəndinə. Səməd bəy də öydüydü. Qazax bəyləri qonağıydı. Uzaxdan Səməd bəy gördü ki, gələn Aşıx Şennihdi. Qabağına çıxdı, öpüşüf görüşdülər. İrvahım çovuş ağlamsındı ki, ağa, bizi soydular. Aşıx Şenniyin ajığı tutdu, ona bir sillə çəkdi ki, amanına nə oldu. Səməd bəy hirsləndi, qılıncı çəkdi ki, aşığı vursun. Qazax-bəyi qoymadı, dedi, əyə nağayrersan, indijə öpüşmədinmi?

Səməd bəy dedi:

– Əzizim də olsa, nə hünərnən mənim yanımda adam vurdu.

Qazax bəylərinnən biri dedi:

– Aşıx, o nə dedi ki, vurdun?
Şennih dedi:
– Bəy, izin ver, saznan deyim.
Aldı görəh Şennih nə dedi:
– Əyə, demədinmi Səməd bəyin qonağıyıx?

Dedim, Səməd bəydi sərdərin özü,
İncitməyin bizi, öldürər sizi.
Çox yalvardıx, tutmadılar heç sözü,
Bizi də yalançı bildilər, bəyim.

– Əyə, bilmədinizmi haralı oldular?
Bəyim, dedim:

Sənsən bu Şenniyin xoş vəfadarı,
O səbəbdən gəldim bu yana sarı.
Bu viran Şülöyrün qoruxçuları,
Bizi döyüf, yola saldılar, bəyim.

Səməd bəy əmr eylədi ki, Şahmarı yəhərrəsinlər, soyğunçuların dalınnan getməlidi. Amma Qazax bəyi qoymadı, dedi ki, kişinin özü getdi, sözü getdi birdi. Oydu ki, Şülöyürdə uryadnik dururdu. Səməd bəy onun üstünə bir namə yazdı ki, kiçik Şüyöyürün qoruxçularının dördünü də bu saat burya göndərməsən, savax Şülöyürdə səni qılıncdıyajam. Namə uryadnikə çatdı. Bir rəng aldı, bir rəng verdi, çağırdı qoruxçuları ki, əyə, siz nə iş görüfsünüz?! Qoruxçular yalvardılar, əl-əəyəğə tüşdülər. Amma Səməd bəy bir yerdə bənd ala bilmirdi. O vaxt öyünün dalında Xan arxı varıydı. Şahmar orya gələndə həmişə kişniyirdi. Birdən at kişnədi. Səməd bəy bir az rahatdandı, dedi:

– Əyə, səni aşıx elə yaxşı vurdu. Bu nə xurcundu?

Qorxurdun Səməd bəyin gəvəsi, xurcunu olmasın, apareydin?

Şülöyürün kəndxudaları minnət naməsi göndərmişdilər. Oydu ki, Səməd bəy Şülöyür kəndxudaları minnətinnən qoruxçuları bağışladı.

Bəli, Səməd bəy cöngələr, erkəhlər kəsdirif, təzədən böyük bir ziyafət qurdu, məclisdə həm ağa, bəy, həm də rəiyyətdən Boşşalının hər yerinnən adamlar varıydı. Avdallıdan İsmeyili də çağırdılar. Aşıx Şennih də ortada dövran ellədi.

Nəysə, burda ağalarnan, rəyiyətin arasında höjət tüşdü. Dedilər: Aşıx Şenniyi deyişdirəjiyik Quşçu şair Abbasəliynən. Hər ikisi şairdi, birbirinə də taydı. İki katif seçdilər, iki kamil molla oturtdular ki, kitava

baxsın görək sözdər düzdü, yoxsa yox. Meydan açıldı. Hər iki şair meydana girdi. Dedilər: kim qavağa tüşəjəh? Aşıx Şennih dedi: torpax qüvvətdidi, Abbasəli qavağa tüşsün. Burda Abbasəli götürüf dedi:

Gəl sənnən imtahan alım,
Qəm donunu geyin, aşıx.
İndijə sinənə vurram,
Dağıynan düyün, aşıx.
Tarlan kimi yol görkəzdin,
O, oylahların yerini.
Şikar üçün nə tüşüfsən,
Sən əlimə bu gün, aşıx.

Aşıx Şennih:

Arzuluyuf gəlmişəm,
Mən sizi deyib, aşıx.
Heçmi səndə möhübbət yox,
Ey qəlbi xain aşıx.
Əzəli havayı getmə,
Sonra peşman olarsan.
Ha zaman mat etsən,
O zaman öyün, aşıx.

Abbasəli:

Genə verib eşq əsəri,
Mana sevda sərini.
Səni kimi aşıxların,
Aşdım gizdin sirrini.
Cəngiynən gəlif meydana,
Görərsən xasım zorunu.
Gələndə asta gəlifsən,
Qaçarsan yeyin, aşıx.

Aşıx Şennih:

Mən ki, bilirəm səni,
Nə fitneyi-feldəsən.
Çox çəkməz, indi sən də
Dəsti-fürsət əldəsən.
Tüşüfsən astan cənginə,
Heçmi xavarın yoxdu?
Özün öz-özünə gəl,
Sən də az öyün, aşıx.

Abbasəli:

Abbasəli abdal oluf,
Eşq ucunnun dəlidi.
On iki imam, çahar yarar,
Həp xudanın quludu.
Açaram gizdin mətahım,
Ləli-mərcan doludu.
Dürrü-gövhəri görərsən,
Bayanımı bəyən, aşıx.

Aşıx Şennih:

Mən ki, bilirəm səni,
Nə fitneyi-feldəsən.
Çox çəkməz, indi sən də
Dəsti-fürsət əldəsən.
Tüşüfsən Şennih bəhrinə,
Abı-umman seldəsən.
Nejə səni qərq elliyim,
Ey hiyləgər, xain aşıq.

İkinci deyişmə başdandı. Genə Abbasəli qavağa tüşdü:

Abbasəli:

Çox da callanıf çıxma qarşıma,
Mən bir dərya, aşıxlığın çay döyül.
Hiddətdənmə, tez gələrsən imlama,
Hər mətahın cəvahirə tay döyül.

Aşıx Şennih:

Hiddətdənif imtahana gəlmişəm,
Məfrutə tək təkəbbürrük, ey döyül.
Hər şikara xarac deyif bac alma,
Bu qısmatda sən yəəsi pay döyül.

Abbasəli:

Meydanımda genə xasım görünü,
Sidqiynən çağırram eşqin pirini.
Həp bilirəm ərşin-kürşün sirrini,
Ağlım goruş, həm gümanım zay döyül.

Aşıx Şennih:

Ərşi mal üzündə qurarsan binə,
Qorxuram yelkənin zəminə enə.
Kəj baxma qəmərə, tən etmə günə.
Zehnin kef-kef, səltənətin ey döyül.

Abbaşəli:

Gənə ürcah oldux qəlbi qarıya,
Naşı xoryat nə girifdi arıya.
Gəl "vallah" de, qayıtginən geriyə,
Şair Abbas hər aşığa tay döyül.

Aşıx Şennih:

Kəj baxıf Şenniyə tən etmə belə,
Şad gəlifsən, məlul döndərrəm yola.
Sana mehri-bürcü, bədənin qala,
Dua oxu, fəhmin qatı yay döyül.

Söz tamam oldu. Dedilər, indi qavağa kim tüşəjəh. Şennih dedi ki, atalar üçə kimi deyif, qoy gənə Abbaşəli desin:

Abbaşəli:

Əvvəl binə nəynən qurdu dünyəni,
Zəbti nejə sər üstündə əylədi?
Yeddinci zəminin ismini söylə,
Rafe Adəm nə üstündə əyləndi?

Aşıx Şennih:

Altı nurdan binə qurdu dünyəni,
Cismi-candı, sər üstündə əyləndi.
Yeddinci zəminin ismi hicavdı,
Rafe Adəm yer üstündə əyləndi.

Abbaşəli:

Azreil öləndən sonra, de nolu?
Nəyin qəzəvinnən fatə cəng olu?
Qaç min illik yoldu siratın yolu?
Neçə bala şər üstündə əyləndi?

Aşıx Şennih:

Azreil ölənnən açıldı yolu,
Yomya qəzəbində fatə cəng olu.
Yetmiş illik yoldu siratın yolu,
Yeddi damı nər üstündə əyləndi.

Abbaşəli:

Abbas der, burağa qoydular bizi,
Nə donda yaratdı löhü-məhbusu?
O kimdi məhşərə tükənməz sözü?
Qərar tutuf nə üstündə əyləndi?

Aşıx Şennih:

Şennih der, qaradı namərdin üzü,
Yaqutdan, yaratdı löhü-məhbusu.
Loğmandı, məhşərə tükənməz sözü,
Çəkər ahu-zar, üstündə əyləndi.

Hər yandan eyvallah sözü yüksəldi.
Dedilər, indi də qavağa Şennih tüşsün. Aldı görəh o nejə başdadı.

Aşıx Şennih:

Dünyə əhvalınnan xavar alan qul,
Siftə tanrı sübhan nəyi yaratdı?
O nəydi ki, endi ildən hicava,
Nədən sonra xaki-payı yaratdı?

Abbaşəli:

Dünyə əhvalınnan xavardaram mən,
Siftə Tanrı sübhan nuru yaratdı.
Touz quşu endi ildən hicava,
Keyfdən sonra xaki-payı yaratdı.

Aşıx Şennih:

Yeddi qat zəminin qaçdı dayağı,
Qaç qədəmdi kavı-mahın əyəği?
Siftə zəmzəm nəyə vurdu boyağı?
Nədən əvvəlinci göyü yaratdı?

Abbaşəli:

Yeddi qat zəminin yetmiş dayağı,
Qırx dörd qədəm kavı-mahın əyağı.
Siftə zəmzəm nəyə vurdu boyağı,
Zəbərcəddən əvvəl göyü yaratdı.

Aşıx Şennih ki, harya çəkdi, gəldi. Dedi, gəl elə şey de ki, elə bilsin yalandı, amma mənası olsun. Götürüf axırıncı nə dedi:

Qəflətə dalıfsan bir ram et, görüm,
Şenniyin zəninni bəyan et, görüm.
O nə sirdi əstafına yet, görüm,
Can-cəsədsiz, sərsiz muyu yaratdı.

Abbaşəli dirəndi, dedi:
– Bu, yalandı, sözün var, söz de.
Şennih:
– Əlim Allah, yalan deməm, – dedi.
Səməd bəy soruşdu:
– Aşıx, bu sözün açması varmı?
Şennih dedi:
– Bəli, var.
Bəy dedi:
– Yalan olsa, boynunu vurajam.
Sonra üzünü Abbaşəliyə tutdu:
– Bağlı qalırsanmı?
O, dinmədi. Səməd bəy dedi:
– Aşıx Şennih, açmasını de.

Aşıx Şennih:

Gənə uzax oldu Şenniyin suçu,
Dəəsən allınıf hərifin güjü.
Sərsiz yarandı ol Məryəmin saçı,
Kəbə beytullahnan muyu yaratdı.

Sonra Şennih söznən dedi:
- Çöllərdə cığalı, boz ot pitir. Ona Məryəmin saçı deyillər. Qaldı muy, o da gənə saçdı. Deyillər ki, Məryəmin saçınnan Kəbədə var.

Abbasəli burda dedi, ay mənim gözüm kor olsun, həmən otdan cijim bir şələ damda kərənin arasına qoyuf, necə yadıma tüşmədi. Doğurdan da, Şennih mənnən güjdüdü.

Məclis çox razı qaldı. Hər ikisini öpüşdürdülər. Bu qonaxlıxdan sonra Abbasəli Şenniyi öyünə apardı. Hörmət ellədi. Səməd bəy də ona beş yüz manat pul, bir at, bir qat paltar bağışladı.

Sonra qaçax İsmeyil onu Avdallıya apardı. Səməd bəy nə vermişdisə, bu hamsınnan artıx verdi, amma at vermədi ki, bəyin xətrinə dəyər, qoy bəxşeyişi onunkunnan az olsun.

Beləjə Aşıx Şenniyi hörmət-izzətnən yola saldılar.

Aşıx Şennihnən Səməd bəy, İsmeyil əhvalatı bunnan qurtarmır. İndi istəyirəm bu haxda bir söhbət danışım.

Belə nağıl elliyirlər ki, Niqalay hökümətinnən Türkiyənin davası başladı. Səməd bəy Calalı Kürdün başını Niqalaya gətirdi. O da Səməd bəyin günahından təmiz keçdi, onu bağışladı. Oydu ki, yoldaşlarının da bağışlanması üçün qubernatorun yanına getdi. Dəstəsi də İmirasan kəndində, İman oğlunun damında gözdüyürdü. Yeyif içdilər, yorğun olduqlarınan bərk yatdılar. Özü də qarol-filan qoymadılar. Amma çuğul nə ölüf, nə öldürüf. Xavarrarı olmadı, çünki bu kəndə etivar elləmişdilər.

İşıxlanan vaxtı İsmeyil dedi:

– Uşaxlar, damın üstündən taqqıltı gəlir, bəyə umuddu oldux, bu kəndə də etivar ellədik, qarool qoymadıx. Biriniz eşiyə çıxın, görün nə var?

Baxdılar ki, qapıda ot tayasının divində qaraltı görünür. Tez İsmeyilə xavar verdilər. İsmeyil dedi:

– Əyə, görün Kazaxdamı, yoxsa dalı qudadımı / quda – yanı cüyürün dərsinnən dağarcıq /, yanı əsgərrər. Onu aralayıf birinin belini gördülər. İsmeyil dedi:

– Onnar allahsız tüfəng atıllar. Kazax olsa, çıxa bilərdik. Bunnar bizi qıracaxlar. Qoyun bu damın üstündəynisə vurum. Əlində aynalı, aynalı da türk aynalısıydı, çox güjdü tüfəngiydi. İsmeyil aşağıdan yuxarı bir güllə atdı. Güllə düz əsgərin əəyğinnən dəydi, çənəsinnən keçif, başının qapaanı apardı.

O saat dama od vurdular, İsmeyil əmr verdi ki, yanmaxdansa, ölməh yaxşıdı, durmuyun, qaçax.

Əsgərlər yaxşı yer seçif güdürdülər. Damnan çıxanın hamsın qırdılar. Səməd bəy o vədə yetirdi ki, tay-tay oluf, boy-boy. Xavar tutdu ki, dalıqudalılar Faxralıya doğru gediflər. Atı sürdü Faxralıya. Burda ağsaqqallar dedilər: ay bəy, nahax yerə getmə. Onnar çoxdular, səni də vurallar. Odur ki, Səməd bəy geri qayıtdı, İsmeyili layığınca basırdı. Üstünə də yaxşı bir başdaşı qoydurdu.

Bu əhvalat yazbaşı oldu. Payıza dönəndə Aşıx Şenniyi Faxralıya, Söyünnülərin Molla Mahmudun toyuna gətirdilər. Yetirəndə soruşdu ki, o eşqiyaların axırı nooldu?

Ağsaqqallar bir-birinə göz vuruf dedilər ki, ustad Şennih, onnarı Niqalay hökuməti bağışladı. Əvvəlcədən Təhməzqulu demişdi ki, öldürülməhləri dilinizdən çıxmasın, onnar aşığın dostarıydı, sonra ruhdan düşər, yaxşı oxumaz.

Toy qurtardı. Pənah kişi, Təhməzqulu, Atvaz dedilər: ustad Şennih, onnarın başına belə-belə iş gəldi. Özümüz demədik ki, qəmgin olarsan, oxumazsan, toyumuz yarımçıx qalar.

Şennih dedi:

– Onda, maa bir bələdçi verin, heç olmasa onnarın qavrını görüm.

Dedilər:

– Bələdçi-zad lazım döyül, hamılıxnan gedəh. Şeyxi, mollaları da götürüf, kəndxudalar hamsı İmirasana qavır üstünə getdilər. Başdarını aşağı əyif bir xeyli yas saxladılar. Şennih gənə doluf, ağladı, dedi: qələm, kağız götürün, bir neçə xanə sözüm var, deyim, yazın qavırın üstünə. Mənim axırıncı gəlişim olsun. Müxənnət xalxsınız. Onnarı biz Türkiyədə nə qədər saxladıx, siz bir gejə saxlıya bilmədiniz.

Aldı Aşıx Şennih:

Könlüm xof ellədi qəm xəyalına,
Dəli dərviş etdin məni, İsmeyil.
Kəmənd atsan, daa düşməz əlinə,
Sürdüyün döyrannar hanı, İsmeyil?!

Bir zaman sən özün şöykət-şan oldun,
Neçə diyarrara vəlvələ saldın.
Alaylar dağıdıf ordular pozdun,
Çalxadın cahanı qana, İsmeyil.

Bir zaman varlıydın fani dünyada,
Cəhd edif cahanı yandırdın oda.
Ölənətək nə xan bildin, nə gəda,
Tanımadın bir divanı, İsmeyil.

Qızıl quş qəzəfli sər asdanıydın,
Qazısız, müftüsüz hökmü-xanıydın.
Əjdaha heyvətdi pəhlivanıydın,
O zamanın qəhrəmanı, İsmeyil.

Müxənnət zamana müxtəlif əsdi,
Dövrü dönmüş fələh tənəfin kəsdi.
Hatəm səxavətdi, Rüstəm-Zal səsdi,
Bir dövranın pəhlivanı, İsmeyil.

Padşahların hökmünə baxmadın,
Baş endirif, bir divana çıxmadın.
Üç dövlətin bir ölkəsinə sığmadın,
Ha dolandın gen cahanı, İsmeyil.

Şennih sözdər deyər xalxın nasında,
Mərifət göstərdin dava bəsində.
Min iki yüz doxsa dörd sənəsində,
Bada verdin şirin canı, İsmeyil.

Söz tamam oldu. Aşıq Şennih bu torpaxdan getdi. Bir daha qayıtmadı. Onnan bir az sonra da Səməd bəyi düşmən öz nökərinə vurdurdu. Qırx çuyan ayrımı Suliyə, Aşıx Şenniyə xavar çatdırıf. O da götürüf bir neçə xanə söz də burda deyif:

Ay ariflər, gəlin sizə söylüyüm,
Səməd bəy namında hökmü-xan getdi.
Qazaxnan, Şəmsəddin, külli Boşşalı,
İyidlər içində belə can getdi.

Edərdi meydanda həmişə cəngi,
Əyğini apardı polad üzəngi.
Gəzdi Alosmanı, Hindi, Firəngi,
Saldı Calalıya bir tufan, getdi.

Həmişə minərdi o şahmar atı,
Əldə qılıncının polatdı zatı.
Bütün Rusiyada dinin qüvvətdi,
Hayıf, əlimizdən pəhlivan getdi.

Şennih mədh elliyif saldı dastana,
Yaşıyar hər zaman rəhmətim ona.
Rüstəm tək səs saldı külli İrana,
Hayıf, əlimizdən qəhrəman getdi.

MÜNDƏRİCAT

M.Nəbioğlu. "Aşıqlıq gələnəyi millətin əxlaqıdır" 3
O.Əliyev. Azərbaycan folkloru antologiyası 9
E.Akman. Azerî âşik Azafli Mikayil'in şiirlerinde türklük bilinci
ve iki şiirinin hikâyesi 14
X. Bəşirli. Ozan dünyasi, sazbəndlik..... 23
M.Xudubəyli. Bu yol Kamandar yoludu..... .. 29
Ə.Qoşalı. Günəşə gedən yolu sevməyən bizdən deyil! *34*
Saz mənəviyyat məktəbidir (müsahibə)..... 41
Q.Şəmşiroğlu (şeirlər)..... 46
***S*.Paşayev**. Aşıq Nabatın həyatı və yaradıcılığı 49
Aşıq Nabat (Şeirlər) 58
V.İsmayılov. Tarixləşən sənətkar, dədələşən ozan 60
Təbrik edirik. Aşıq Yanvar - 70 71
Aşıq Yanvar. Şeirləri 72
Təbrik edirik. Seyfəddin Qəniyev – 60 74
T.Quluzadə. Aşıq Pəri yaradıcılığına bir baxış 75
Ölüm sevinməsin qoy.. 80
İbrahimxəli. Yarama duz basın... 81
"Sazbənd sözsüz ömür sürməz" 83
Ozan dünyasından soraqlar 86
E.Çobanlı. Gənc aşıqlarımız Dağıstanda Beynəlxalq festivalda
iştirak ediblər 91
M.Məmmədoğlu. Saz dünyası, söz dünyası 93
Aşıq Şenliyin Borçalı səfəri 95

Nəşriyyatın direktoru: professor N.B.Məmmədli

Texniki redaktor: Elşad ÇOBANLI

Yığılmağa verilmiş 15.03.2012
Çapa imzalanmış 05.04.2012
Şərti çap vərəqi 7,5. Sifariş № 382.
Kağız formatı ***70x100*** *1/16. Tiraj 1200*

Jurnal ***«Nurlan»*** *nəşriyyat-poliqrafiya müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.*
Цнван: Бакы, Ічяришящяр, 3-ъц Магомайев дюнэяси 8/4.